Vaqif İSAQOĞLU

ADİL CƏMİLİN POEZİYASI

BAKI – 2022

Redaktor: Sərvaz Hüseynoğlu,
şair, publisist

Vaqif İsaqoğlu. Adil Cəmilin poeziyası (monoqrafiya).
Bakı, «İmza» nəşrlər evi, 2022. 243 s.

Kitabda müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan, öz zəngin və çoxcəhətli yaradıcılığı ilə seçilən Adil Cəmilin poeziyasından söhbət açılır, onun söz dünyasının poetik özünəməxsusluğu üzə çıxarılır. Poeziyamızda özünəməxsus yeri olan şairin keçdiyi sənət yolunun ayrı-ayrı mərhələləri üzərində dayanan, onun poetik yaradıcılığını elmi təhlilə cəlb edən Vaqif İsaqoğlunun bu monoqrafiyasının adilsevərlər tərəfindən maraqla qarşılanacağına inaniriq .

İSBN 978-9952-37-440-11

©Vaqif İSAQOĞLU-2022

HAQQA KÖNÜL VERƏN HAQQ ŞAİRİ

...Dəyərli insan və gərəkli vətəndaş olmağın ayrı bir dəyəri, ayrı bir gözəlliyi, ayrı bir xoşbəxtliyi var. Bu gözəlliyə, bu xoşbəxtliyə böyük şair olmaq sözlərini də əlavə etsəm, fikrimi daha dolğun və aydın ifadə etmiş olaram. Belə insanlardan biri də görkəmli şair, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Adil Cəmildir. Onun böyüklüyünü sadəliyində və sadəliyindəki qeyri-adiliyində, həm də bədii-fəlsəfi düşüncələrində, «sirri» açılmamış misralarında axtarmaq lazımdır. Deyirlər dağın böyüklüyü uzaqdan daha aydın görünür. Ancaq Adil Cəmil kimi insanların böyüklüyünü görmək üçün də ondan uzaqlaşmaq lazım deyil, əksinə, onun iç dünyasına yaxınlaşmaq, bu dünyanın qapılarını açıb içəri daxi olmaq lazımdır. Adil müəllimin iç dünyası yazdığı şeirlərdə, poemalarda, publisistik yazılarında güzgü kimi əks olunub. Odur ki, bu işıqlı ziyalının, haqqa könül verən şairin, ürəyi Vətən eşqilə çırpınan insanın iç dünyasına daha yaxından bələd olmaq üçün onun kitablarını yenidən oxudum, ürəyim şairin hər sözünü, hər misrasını süçəkən kimi özünə çəkdi. Şeirləri yaddaşıma ağırlıq vermədi, əksinə, bir işıq seli kimi könül sarayımı nura qərq elədi və mən də bu nurun işığında yazı masamın arxasında əyləşib canımı isidən, ruhumu sığallayan duyğularımı, hiss və həyəcanlarımı, mənə rahatlıq verməyən fikir və düşüncələrimi yazmağa başladım. Çünki şairin şeirləri iç dünyamı

«işğal eləmişdi». Bu «işğaldan» qurtulmağın bircə yolu vardı; yazmaq, yazmaq, yenə də yazmaq! Bilirəm ki, onun yaradıcılığından, onun çoxcəhətli sənətkarlıq xüsusiyyətlərindən, bir şair kimi məziyyətlərindən çox yazılıb, çox deyilib. Ancaq onu da bilirəm ki, onun yaradıcılığından nə qədər çox yazılsa da, yazılanlar onun şeir dünyasını tam işıqlandırmaq qüdrətində olmayıb, sadəcə olaraq dəryadan bir damla götürməklə kifayətlənməli olublar.

Mən ədəbiyyatşünas, heç tənqidçi də deyiləm. Sözə yaxın, sözü duyan qələm adamıyam və bir qələm adamı kimi insanlığın fövqündə dayanan, ziyalı adını daha da şərəfləndirən, şeirlərilə iç dünyamızı işığa bürüyən işıqlı bir insanın yaradıcılığından söz açmağı vacib bildim. Bu həvəslə, bu istəklə Adil Cəmil poeziyasından tükənməz sevgiylə yazmağa başladım.

Bu da mənim işıqlı bir söz adamına söz hədiyyəmdi. Kimin nə deməyindən, kimin yazdıqlarımı bəyənib bəyənmədiyindən asılı olmayaraq sadə bir jurnalistin, sadə bir qələm adamının ürəklə yazmış olduğu bu kitabın maraqla qarşılanacağına inanıram. Bu inam mənə şairin şeirlərindən gəlir, çünki Adil Cəmilin özü və sözü olan yerdə işıq var, səmimiyyət var, mehribançılıq və gözəllik var, düzlük və halallıq var...

Azərbaycan ədəbi mühitində, Azərbaycan cəmiyyətində şair kimi məşhurlaşan, ziyalı kimi, tərcüməçi kimi, Əməkdar jurnalist kimi yaxşı tanınan, alim kimi sevilən Adil Cəmil fəaliyyət sahələrinin hər birində böyük uğurlar qazanıb. «Yazıçı» nəşriyyatında redak-

tor vəzifəsində çalışanda da, «Həqiqət» qəzetinin baş redaktoru, «Bakı» və «Baku» axşam qəzetlərində mədəniyyət şöbəsinin müdiri olanda da, Binəqədi rayon «Həqiqət» qəzetinin redaktoru, «Maarifçi» qəzetinin baş redaktor müavini vəzifəsində çalışanda da, AMEA Folklor İnstitutunda ümumtürk folklorçu şöbəsinin aparıcı elmi işçisi olanda da həmişə uğur qazanıb. Vicdanla çalışdığı bütün sahələrdə böyük nailiyyətlərə, uğurlara imza atan Adil Cəmil daha çox şair kimi tanınıb və demək olar ki, onun şairliyi işlədiyi bütün vəzifələri kölgədə qoyub.

Şairlik istedadı ona Tanrıdan verilib. Şairlik istedadı ilə vətəndaşlıq məfkurəsi birləşərək onu daha yüksəklərə qaldırıb və o, ucaldığı şöhrət zirvəsində də öz gözəl insanlıq xüsusiyyətlərini qoruyub-saxlaya bilib, yaxşı şair olduğu kimi, yaxşı insan olmağıyla da seçilib. Bu isə hər şairə qismət olmayan xoşbəxtlikdir. Bu yerdə böyük rus şairi Aleksandr Blokun demiş olduğu sözləri xatırlamaya bilmirəm: «Yaxşı insan olmayan şəxsdən, yaxşı yazıçı ola bilməz». Haqlı sözlərdir. Bəli, Adil Cəmil işıqlı adam olmasaydı, yaxşı insan, yaxşı ziyalı və yaxşı vətəndaş olmasaydı, yaxşı şeirlər də yaza bilməzdi. Pis adam olub yaxşı şeir yazmaq, kinli adam olub şeirlərində ürəyini gün işığına çıxarmaq, qaşqabaqlı olub səmimi şeirlər sahibi olmaq çətindi, çox çətindi. Hər halda mən belə düşünürəm. Düşünürəm ki, şairin özüylə sözü vəhdət təşkil etməli, bütöv olmalıdır. Şairin özündə sözü, sözündə özü görünməlidir. Bu, belə olmasa, onda şairin şeirləri ürəkdən gəlməz, zorən yazılar ki, ürək-

dən gəlməyən və zorən yazılan şeirlər də ürəklərə yol tapa bilməz, oxucular tərəfindən qəbul edilib sevilməz. Saxta süni söz də saxta pul kimidir, heç bəyənilməz.

Adil Cəmil öncə səmimi insandı, yaxşı vətəndaşdı, yaxşı jurnalisti, tərcüməçidi, ən əsası yaxşı şairdi. Onun yaxşı bir şair olmağının bir səbəbi də Tanrının ona verdiyi istedaddı. Bu istedad ona ana bətnində verilib və o, anadan şair kimi doğulub.

Adil Cəmilin var-dövlət sarıdan bir qələmi, bir də qələmindən süzülən şeirləri var. Və bir də işıq dolu ürəyi var.

O, ruhunu ədəbiyyata kökləmiş bir söz adamı olaraq Tanrının verdiyi ömrü Tanrının istədiyi kimi yaşayır. Hərdən mənə elə gəlir ki, poeziyasevərlər onun şeirlərində dincəlir, çünki hər kəs özünü Adilin şeirlərində görür, hər kəs hiss və həyəcanlarını, yaşantılarını onun şeirlərində tapır və tapdığına çox sevinir. Və mən də bacardığım qədər onun sənətkarlıq xüsusiyyətlərindən söz açmağa çalışmışam.

Müasir Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri olan, poeziyamızda, həm də poetikamızda yeni səhifələr açan, bəşəri mövzulara müasirlik tələblərilə yanaşan, həmişə və hər zaman yeni söz deməyə can atan Adil Cəmil ədəbiyyat tariximizdə öz imzasıyla, öz üslubuyla seçilən söz adamıdır. Və mən də bu görkəmli şairin söz dünyasından söz açmaqla şərəfli bir işin qulpundan yapışmalı oldum. Buyurun, həmin kitab qarşınızdadır. Bu kitabı açın və oxuyun! Və onu da deməyi özümə borc bili-

rəm ki, yazmış olduğum «Adil Cəmilin poeziyası» kitabının özü də bir işıqdı. Bu işıqda səmimiyyət də, gözəllik də, vətənpərvərlik də, ülvi məhəbbət də aydınca sezilir. Ona görə işıqda qaranlıq yox, qaranlıqda işıq axtarmağa çalışdım.

Müəllif

ADİL CƏMİLİN POETİK DÜNYASI

...İllər öncə hər dəfə Adil Cəmillə rastlaşanda istər-istəməz böyük rus şairi Sergey Yeseninin öz xatirələrində yazmış olduğu bu sözləri yadıma düşürdü: « Peterburqda məni sevinclə qarşıladılar. İlk gördüyüm Blok, ikincisi Qorodetski idi. Bloka baxanda məni tər basdı, çünki ilk dəfə idi canlı şair görürdüm». Və mən də Adil Cəmilin şəxsində ilk dəfə olaraq canlı şair görürdüm. Bəli, özü ilə sözü bir-birini tamamlayan, şəxsiyyəti də, yaradıcılığı da bütöv olan əsl şair görürdüm və onunla ilk tanışlıq yaddaşımda parlaq işıq kimi qaldı. Bu işığın çevrəsində onun həm özünü, həm də sözünü tanımağa başladım. Böyük şairin böyük sözüylə tanışlıq mənə çox şey öyrətdi.

İllər ötdü. Bu illər ərzində «Şair kimdir?» - sualına da cavab tapdım. Sualın cavabını görkəmli tənqidçi, ədəbiyyatşünas, yazıçı və tərcüməçi A. Lunaçarskinin fikirlərilə açıqlamaq daha məqsədəuyğun olardı: «Şair, hər şeydən əvvəl, müstəsna dərəcədə həssas, böyük daxili məzmuna, geniş dünyagörüşə malik insandır, öz mədəni səviyyəsi və təbiətinin istedadlığı etibarilə yüksələn, buna görə də dilin bütün məharət və şairanəlik qüdrətindən istifadə edərək öz hissləri ilə ətrafdakılara sirayət etməyə çalışan insandır»
Öz hissləri və duyğuları ilə oxucunun ürəyinə nüfuz edən, professional məharəti, qətiyyəti, öz sənətinə tələbkarlığı, şeirləri yaşarı və uzunömürlüyü ilə seçilən, özü ilə oxucu arasında əsl ünsiyyət yaradan Adil Cəmilin yaradıcılığı həmişə diqqət mərkəzində olub.

Həmişə onun poetik dünyası haqqında söz deməyə can atmışam, bu arzu və istəkdə olmuşam.

Deyəsən, Peyğəmbərimizin kəlamıdır: «Ərzin altında Allahın xəzinələri vardır ki, şairlərin dili bu xəzinənin açarıdır». - Bu kəlamın işığında Adil Cəmilin poeziya dünyasına üz tutarkən bir daha heyrətləndim.

Qələminin və istedadının gücüylə incə və sadə, gözəl və cazibədar, mənalı və düşündürən şeirlər yazan şairin sözü «bişirməmiş» şeirə gətirmədiyinin şahidi oldum. Onun hər şeirində ürəyinin səsini eşitdim. Şair ürəyinin səsi - xalqın səsidir. Poeziya xalqın ürəyidir. Şair də xalqın ürək sözlərini şeir dilinə çevirərək Allahla xalq arasında vasitəçilik missiyasını yerinə yetirir. Adilin şeirlərinin sevilə-sevilə oxunmasının, ürəklərə yol tapmasının başlıca səbəbini də bunda axtarmaq lazımdır. Onun şeirlərinin təsir gücü çox böyükdür və bu şeirlər bizi özümüzə qaytarır, özümüzə qayıtdıqca daha böyük olduğumuzu hiss edirik, həm də saflaşırıq, mənən zənginləşirik, xeyirxah işlər görməyə, yaxşılıq etməyə can atırıq, bir sözlə yaxşılığa doğru dəyişirik. Bu dəyişikliyə görə həm də Adil Cəmilin şeirlərinə borcluyuq. Bunu unutmayaq. Həm də unutmayaq ki, bizimlə «şeir dilində» danışan, qaranlıq dünyamızda bir damla nur olan şairin «şeir dililə» danışması heç də təsadüfi deyil. Axı bir zamanlar allahlar da, kahinlər də şeirlə danışmışlar XVII əsrin məşhur fransız yazıçısı və nəzəriyyəçisi Bualo «Poeziya sənəti» əsərində yazırdı:

«Həyəcanlı kütləyə Feb allahının sərt və qəzəbli

hökmlərini çatdıran kahinlər də həmişə şeirlə danışmışlar. Qədim zəmanənin böyük və məşhur qəhrəmanlarını Homer şeirlə tərənnüm etmiş və onların qəlbində igidlik və qorxmazlıq hissini alovlandırmışdır; şair Hesoid isə zəmiləri becərməyi, tənbəl torpaqdan taxıl almağın qaydalarını insanlara şeirlə öyrətmişdir. Beləliklə, şairlərin sözündə həmişə müdrik ağlın səsi eşidilmiş, insanlar isə həmişə şairlərin nəcib və xeyirxah məsləhətlərinə qulaq asmış, poeziyanın şirin və axıcı ləzzəti ürəkləri fəth etmişdir».

Adil ürəyə yol tapan şairdir. Və bir şair olaraq ruhunun məchul səsini ifadə edir, ürəkdən süzülən hiss və həyəcanları, düşüncə axınını, köksündən qopan duyğuları, fikir və düşüncələrini, həyata, dünyaya baxışını şeirlərində oxucuya elə ustalıqla çatdırır ki, onun poeziya aləmində öz sözünü deyə bildiyinin bir daha şahidi oluruq.

Adilin hər bir şeirinin arxasında canlı insan, hiss və həyəcanları, duyğu və düşüncələri dayanır; onun mürəkkəb və zəngin daxili aləmi görünür. Həm də həssaslığı, duyumu, dərin müşahidə bacarığı hiss edilir, sözünün qüdrəti duyulur.

İnsanın özünü özünə anladan, daxili dünyasını açıb özünə göstərən Adil Cəmil şeirinin təsir gücündən, sənətkarlıq səviyyəsindən söhbət açmazdan öncə demək istəyirəm ki, onun ədəbi prosesdəki uğuru, sənət aləmindəki mövqeyi qürurvericidir. Obrazlı ifadələrlə poetik fikri daha dolğun şəkildə ifadə edən şairin «Çiçəklənmə» şeirindən bu misralara

diqqət yetirək:

Qarlı görüb zirvəni
Bənövşələr büzüşüb.
Dağlara düşən şehin
İşığı kəndə düşüb.

Və yaxud:

Şəhər yastığına qoyub başını-
Bir körpə ağlasa, bir layla sınar.
Salxım söyüdlər də əyib başını
Arxın bir gecəlik pıçıltısına.

«Gecə duyğuları»

Şeirdə söyüd ağacı insaniləşdirilib. Söyüd ağacı başını aşağı əyən insan kimidir. «Arxın bir gecəlik pıçıltısına» başını əyən söyüd ağacının obrazı gözlərimiz önündə məharətlə canlandırılıb.

Bu misralardan da göründüyü kimi obrazlı söz və ifadə böyük yaradıcılıq səyləri tələb etməklə yanaşı, həm də şairin sənətkarlıq məharətini göstərir. Oxucu obrazın mənasını duymaqla yanaşı, eyni zamanda hiss edir ki, şairin yaratdığı, canlandırdığı lövhələr də onun obrazlar sistemini təşkil edir, bir estetik keyfiyyət olmaqla yanaşı şeirə yeni ruh, yeni poetik nəfəs verir. Bəli, obrazlılıqdan kənar poeziya mövcud ola bilməz. Obrazın keyfiyyəti poeziyanın keyfiyyəti deməkdir. Bu barədə U. Raçandovskinin fikirləri də qəbul ediləndir: «...Obrazlar ilham kimi, vəhy kimi gəlməlidir, tamamilə təzə-tər sözlərlə ifadə olunmalı,

elə bir aləm üzə çıxarmalıdır ki, heç kimin gözləri indiyə qədər onları görə bilməyib. Obrazlar dolğun, zəngin olmalı, çox yığcam, azacıq sözdə daha əlvan rənglər, daha cazibədar cizgilər rəsm edilməlidir. Suya atılan daşın yaratdığı konsentrik dairələr kimi poetik obraz da bizim fikir və düşüncələrimizin məkan dairəsini genişləndirməli, poetik assosiasiyaların bütün sferalarını əhatə etməlidir. Poetik obraz vizual (gözə görünən) obrazdır, rənglərlə çəkilmiş təsvir kimidir. Lakin poetik obraz üçün yeganə material sözdür və hər şey işlədilən sözün gücündən, sərrastlığından, ifadəliliyindən, gözəlliyindən asılıdır».

Adil Cəmilin şeirlərindən də hiss olunur ki, obrazlar ona ilham kimi, vəhy kimi gəlir.

Səhralar içdikcə əsgər qanını
Torpaqdan qırmızı lalə çıxıbdır.

«Şöhrət muzeyi»

Aldanıb payızın qızıl «payına»
Küləyə qoşulub yarpaqlar qaçır.
Canını qaçıran fələstinlinin
Ayağı altından torpaqlar qaçır

«Qaçış»

Canını götürüb qaçan fələstinlinin, onun ayağı altından torpaq da qaçır. Bu, didərginlik və qaçqınlığın dəhşətli rəsmini çəkir.

Bu misraların gözəlliyi, təsir gücü, poetikliyi onun

obrazlılığındadır. Elə bu obrazlılıqla da şairin yüksək sənətkarlıq səviyyəsini, obrazlı sözə məsuliyyət münasibətini təyin eləmək mümkündür.

Adil Cəmil poeziya aləmində öz sözünü deyən bir şair olmaqla yanaşı, bədii sözün bütün imkanlarından məharətlə istifadə etməyi bacaran şairdir, sözün bədii möcüzəyaratma imkanlarını bilən şairdir və bir şair olaraq oxucunu söz obrazlarında canlandırdığı fikir və duyğular aləminə çəkib aparmaqla yanaşı, həm də oxucularla yeni poetik nəfəslə danışır:

Ağrıyan ürəyin üstündə əsin-
Böyük ağrıların kökü dərində.
Gecəni yuxusuz keçirən kəsin
Dan üzü doğular bəbəklərində.

Doğular dan üzü - nurlanar dünya
Nurlu adamların baxışlarından.
Kədərli-kədərli fırlanar dünya
Asılıb bu payız yağışlarından.

«Ünvansız şeir»

Dünya ona görə kədərli-kədərli fırlanır ki, sonunun yaxınlaşdığını hiss eləyir. Hər şey dəyişib. Ekologiyanın tarazlığı pozulub, qlobal istiləşmələr özüylə fəlakətlər gətirir. Müharibələr səngimək bilmir. Qan su yerinə axır. Dünyanın gözəlliyi məhv olmaqdadır. Bir romanlıq fikri «Kədərli-kədərli fırlanır dünya» misrasına sığışdıran şairin bu misralardan da hiss olunur

ki, o, yaradıcılıq həyəcanları keçirib və «söz əzabı»ndan zövq alaraq şeirin bədii çəkisini artırıb və bu da onun poetik mənalandırma bacarığından irəli gəlir.

Adil Cəmilin dilindəki obrazlılıq xalqdan gəlir, xalq dilinə bağlılıqdan, şifahi xalq ədəbiyyatını dərindən bilməsindən irəli gəlir. Bayatılarda, aşıq şeirlərində, laylalarda, nağıl və dastanlarda obrazlı ifadələr - yəni obrazlılıq yetərincədir. Şair də şifahi xalq ədəbiyyatına «söykənərək» ondan güc-qüvvət alır və sözün görünməz sehrinə düşərək öz sözünü məharətlə deyə bilir:

Gecə pərvanələr gələr işığa,
İşığın suyuna çəkilmək üçün.
Gecənin qapqara üfüqlərinə
İşıq toxumutək tökülmək üçün

«İşıqlar, pərvanələr»

Və yaxud:

Uca zirvələrin sərinliyini
Küləklər gətirdi dağ ətəyinə.
O çölün, çəmənin şirinliyini
Arılar daşıdı öz pətəyinə.

«Dağların töhfəsi»

Bu misraların səmimiyyəti fonunda anlayırsan ki, içimizdə qış yuxusuna getmiş türk mənliyimizi, türk qeyrətimizi, ancaq Adil Cəmil kimi sözə həssas bir

şair silkələyə bilər, vətəndaşlıq, soydaşlıq borcumuzu ancaq o, xatırlada bilər:

Yollar qanlı ləpir oldu,
İsti qoynun qəbir oldu.
Nə ayrıldıq, nə bir olduq,
Ağlama, ana torpağım.

Yaraladı yad qılıncı-
Qəfil oldun xıncım-xıncım.
Sönər bir gün bu qığılcım,
Ağlama, ana torpağım.

Sən bilirsən-mayam səndən,
Rəngim səndən, boyam səndən.
Səngərimsən - qayam səndən,
Ağlama, ana torpağım.

«Ağlama, ana torpağım»

Hisslərini, duyğularını şeirlərində anladan, hər misrasına beyninin və ağlının işığı düşən Adil Cəmil türk ruhunun şairidi. Şairin ruhu çırpınan şeirlərindən birindən seçmələrdir:

Oğul istəyirəm yana torpağa,
Şığıyıb şahintək qona torpağa.
Əllərim çatmasa ana torpağa
Çatmaram arzuya, diləyə bir də.

Güllü baharımı heç eyləmişəm,
Bir olan dərdimi üç eyləmişəm.
Vətəndən vətənə köç eyləmişəm-
Düşmərəm mən belə tələyə bir də.

«Bir də»

«Vətəndən kənarda xoşbəxtlik yoxdur» - deyib dədələrimiz. Haqlı sözlərdir. Şair ana torpaqdan - yəni ana vətəndən uzaq düşsə, doğma yurda əli çatmasa heç bir arzuya, diləyə yetişə bilməyəcəyini bəyan edir. Vətəndən vətənə köç edən şairin güllü baharı, gözəl həyatı heç olub, bir dərdi üç olub. Vətən duyğularını, vətən sevgisini bu misralarla həzin bir şəkildə ifadə edən şairin ürək döyüntülərinin səsi aydınca eşidilir.

HƏR ŞEİR BİR NUR DAMLASIDI

Şair kimi, publisist kimi sevilən, ürəklərə yol tapan, əsl ziyalı kimi, alim kimi tanınan Adil Cəmil dəyərli şəxsiyyətdi, qələmilə millətə xidmət edən işıqlı söz adamıdı.

O, yaradıcılıq ampulası ilə çoxlarından seçilir. Şeirləri, poemaları, publisistik yazıları, hekayələri, tərcümələri onu ədəbiyyatın ədəbi dünyasına özünəməxsus biçimlə daxil edib və o, bu ədəbi dünyada əbədi yaşamaq hüququ qazanıb.

Azərbaycan ədəbiyyatının, elminin sayılıb-seçilən görkəmli simaları, söz adamları onun yaradıcılığına

heç vaxt biganə qalmayıblar. Adilin yaradıcılığı bütün zamanlarda ondan yazmağa imkan verəcək və o, bütün zamanların şairi olduğunu şeirlərilə bir daha təsdiqləyib. «Əgər bir xalqın Adil Cəmil kimi həm sevgisində, hörmətində, ehtiramında, həm də mübarizəsində, mənəvi cəngavərliyində bütöv, ardıcıl olan şairi, publisisti, alimi, ümumən, halal sözün halal adamı varsa, yaşamağa dəyər» - Akademik Nizami Cəfərovun sözləridir. Elə bu sözlərlə də Adil Cəmil yaradıcılığının, Adil Cəmil şəxsiyyətinin miqyasını aydın şəkildə göz önünə gətirmək mümkündür. Bütün zamanların şairi kimi qəbul etdiyim şair haqqında çox yazılıb, çox deyilib və gələcəkdə də onun yaradıcılığından geniş söhbət açacaqlar Çünki onun şeirlərində xalq sevgisi, Vətən eşqi var. Bunu xalq şairi Hüseyn Arif də deyib. Deyib ki, «Xalq eşqi, vətən eşqi! Budur Adil Cəmili sənətə gətirən, ilhamını qanadlandıran».

Adilin şeirlərində ürəyə yatmayan misralara, yabançı fikirlərə rast gəlmək mümkün deyil. Məhz bu səbəbdən də şeirləri ürəyə doğmadır, könüllərə yaxındır. Bu doğmalıq və yaxınlıq ruha xoş gəlir. Ona görə də Adil Cəmil həm də ruh şairidir. Gəlin ruh şairinin ruhumuza yaxın olan «Ürək tumurcuq misallı» şeirindən bu misraları nəzərdən keçirək:

Ürək tumurcuq misallı-
İnsan ürəyindən çiçəkləyir,
Ürəyindən yarpaq tökür.
Bəlkə yenə çiçəkləyər deyə

Dirilər ölülərin
Üstünə torpaq tökür

Və yaxud:

Mən külə dönəsi ocaq deyiləm,
Tumurcuq tutmayan budaq deyiləm.
Tanrımın gözündən uzaq deyiləm-
Məni yaxşı görür aləmi görən.

«Suallı misralar»

Tanrı onu nəinki yaxşı görür, həm də kölgəsi şairin üstündədir. Tanrının kölgəsi onun üstündə olduğuna görə ürəyi əbədi işığa bürünüb. Bu işıq Tanrının kölgəsindən düşüb. Günəş sanki onun ürəyində «doğub» dünyanı işıqlandırır. Bəli, bu «ürək-günəş»in işığında hər şeyi incəliklərinə qədər görə bilirik. Məhz buna görə də deyə bilərəm ki, Adil ürəyinin heç bir sirrini oxucudan gizlətmir, istəsə də bunu eləyə bilməz, çünki ürəyində doğan günəşin işığı bu sirrin gizlədilməsinə maneçilik edər.

Bütün təbiiliyi və səmimiyyətilə ürəyini süfrə kimi açan şair, öz zəngin, mənəvi «nemətlərini» (şeirlərini) böyük səxavətlə bizimlə bölüşür.

Bir çox şeirlərində uşaqlıq və gənclik illərini sevə-sevə, həm də kövrələ-kövrələ yada salan, nisgilli bir şəkildə təsvir edən şair «Uşaqlıq dostlarıma» adlı şeirində yazır:

...Ətəyi sıldırım bir çaydan keçdik,
Çaya körpü salan budaqdan keçdik.

Kökümüz işləyən torpaqdan keçdik-
Düz bir il yaşadıq azından o gün.
Ürkütdük üz-gözü şehli çiçəyi,
Titrədi saplağı, əsdi ləçəyi.
Dumana büründü kənd girəcəyi
Bu yelli yerişin tozundan o gün.

Ötən illərin həsrətini çəkən, uşaqlıq və gənclik illərini tez-tez xatırlayan şairin dağlara sarı ürəyi atlanır, xəyalı o yerlərə uçub gedir. Şəhərdə yaşayan dağlar oğlu atasına cavab məktubunda belə yazır:

Yazıram gülündən, bənövşəsindən,
Yaşıl yamacından, göy meşəsindən.
Ayrılıb şəhərin bu gur səsindən
Görəsən çatırmı səsim dağlara?

Görünmür şəhərin dumanı, çəni,
Yaşıl «zirvəm» olub yaşıl səməni.
Kaş bir də gəzəydim şehli çəməni,
Kaş bir də düşəydi izim dağlara.

Bax, budur el-obaya, doğma yurda məhəbbət. Bax, budur əsl istedad, əsl sənətkarlıq

Şeirlərini sevə-sevə oxuyub zənginləşdiyim, su kimi durulduğum şairin hər şeiri bir nur damlasıdı və düşünürəm ki, bu nur damlaları olmasaydı dünya qaranlığa qərq olardı, həyat öz dəyərini və şirinliyini, dünya öz gözəlliyini itirərdi.

Dünyanın bütün xəbisliklərindən, pisliklərindən

uzaqlaşan, heç vaxt ədalətsizlik etməyən, ömür səhifələrinə gözəl əməllərdən başqa heç nə yazmayan Adil Cəmil sözün sərrafı və sahibidir, ifadələri dəqiq və sərrastdır, ahəngdar və poetikdir, hər şeirində orijinal sənətkarlıq məharəti nümayiş etdirir. Onun lirikasına daxil olan şeirlər spesifik xüsusiyyətlərinə görə diqqətəlayiqdir. Fikrimizin təsdiqi kimi «Payızla üz-üzə» şeirinə diqqət yetirək:

Ayağım altına sərilib payız,
Yarpaqlar yaşayır xəzan ömrünü.
Meşə çeviribdir əlvan rənglərə
Günəşdən nur alıb qızan ömrünü.

Çöl-çəmən qızarır dan yeri kimi,
Qızılı payızın gəlişidir bu.
Gözəllik bu qədər göz oxşamazdı-
Ana təbiətin əl işidir bu.

«Ana təbiətin əl işi» - yəni rəssamın əl işi. Ana təbiət əsl rəssamdır və onun əlilə hər fəslin öz mənzərəsi çəkilib. Bu şeirdə ana təbiət payızı çəkib. Özü də gözəl çəkib.

Misralardakı təbii və səmimi hərarət, obrazlı ifadələr, sözlərin düzülüşü şeirin bədii uğurunu şərtləndirir.

Şeir ürəyəyatımlıdır, ahəngdarlığı ilə diqqəti çəkir; təbiətə paklıq, ülviyyət və gözəllik mənbəyi kimi baxan şair özü ilə təbiət arasında bir yaxınlıq, bir doğmalıq hiss edir:

Fəsil dəyişəndə ayrısı gəldi,
Uçdu kəpənəyi, arısı gəldi.
Bu payız ömrümün payızı gəldi,
İçimdə payızdır, çölümdə payız.

«Bu payız»

Və yaxud:

Bu bahar torpağa, insana həyan,
Torpaq da, insan da onu sayıbdır.
O bahar könlümdə tumurcuqlayan
Bu bahar ömrümdə yarpaqlayıbdır.

«Bu bahar»

Bu şeirdə də bədii təsvir vasitələrindən bacarıqla istifadə olunmuşdur. Şeirdə misralar bir-birini tamamlayır. Çünki şeirdə hər söz öz yerindədir.

Adil Cəmilin poeziya dili obrazlıdır, axıcıdır. Sözlər dildə dolaşıqlıq yaratmır, misralar yaddaşa yük olmur, tez əzbərlənir, ürəyə tez yol tapır. Çünki o, şeirə gözəllik və emosionallıq gətirən məcazlardan, bənzətmələrdən həm yerli-yerində, həm də ustalıqla istifadə edir. O, öz bədii məramına uyğun, yaxşı duyduğu, dərk etdiyi mövzulara daha çox müraciət edir. Adil Cəmilin yaradıcılığının əsas hissəsini onun məhəbbət, təbiət, ictimai mövzularda yazılmış şeirlər təşkil edir. Təbiət və cəmiyyət hadisələrinə fəal poetik münasibət bəsləyən şairin bir çox şeirləri vardır ki, sözün həqiqi mənasında həyat, insan və gözəllik haqqında nəğmələrdir. Bu «nəğmələrdən» birinə diq-

qət çəkək:

Sinəsində yeridiyin
Yamac oldum - sən görmədin.
Yollarına kölgə salan
Ağac oldum - sən görmədin.

...Qəlbimdə bir yuva gəldim,
Başımda bir hava gəldim.
Dərdlərinə dəva gəldim,
Əlac oldum - sən görmədin.

«Sən görmədin»

Şeir ürək çırpıntıları ilə qələmə alınıb. Şeirdə poetik təqdimat elə gözəl və təsirli verilib ki, hiss və duyğuların hardan başlayıb, harada qurtardığını müəyyən etmək olmur.

Daima axtarışda olan, yenilik hissi ilə yaşayan, yaradıcılığındakı düşüncə, üslub və forma diqqətdən yayınmayan Adil Cəmil özünəməxsus yaradıcılıq axtarışları ilə fərqlənən qələm adamıdır. Lirikasındakı səmimiyyət, lakoniklik, emosional təsir ürəkdə xoş ovqat yaradır. Hər söz, hər misra üzərində şam kimi yanan şair sözlə davranışında olduqca məsuliyyətlidir. Bu məsuliyyət sözdə, misrada, bütövlükdə şeirin özündə ahəng və ritmi gözləməsindən bir daha hiss olunur. Həm də hiss olunur ki, şairin poeziyası öz gücünü müasir insanın hiss və duyğularından, könül döyüntülərindən alır. Məhz ona görə də onun əksər şeirlərində oxucu özünün hiss və duyğuları ilə qarşı-

laşır.

...Adil Cəmil Tanrı divanəsidi. Çünki o, şairdir. Aristotel şairləri «Tanrı divanəsi» adlandırıb və o böyük filosof bu fikrində haqlıdır.

O, bu dünyaya təkcə şeir yazmaq üçün yox, həm də xeyirxah işlər görmək üçün gəlib. Xeyirxahlıq şairlər üçün ən gözəl keyfiyyətlərdən biri hesab olunur. Axı yaxşı şeir də oxucuya edilən xeyirxahlıqdı, yaxşılıqdı. Və həm də xeyirxahlıq insanın canında olmalıdır. Xeyirxahlıq Adil Cəmilin canındadır. Yazdığı şeirləri kimi, xeyirxahlığı da canından, qanından gəlir.

Dediyim kimi şair kimi, publisist kimi, alim kimi, tərcüməçi kimi, əsl ziyalı kimi ona dəyər verən tanınmışlar çoxdur, lap çoxdur. Xalq şairi Bəxtiyar Vahabzadə yazır: «Adilin şeirləri xalq ruhundan süzülür. Hiss olunur ki, aşıq şeirini, folkloru yaxşı bilir». «Adil Cəmil istedadlı, gözəl şairimizdir. Onun yaradıcılığında vətən, torpaq hissi, təbiətə vurğunluq, anaya vurğunluq, Cənubla bağlı həsrət motivləri çox güclüdür» Bu sözlər isə xalq yazıçısı Anara məxsusdur. Akademik Muxtar Kazımoğlu «səhra, suyu canına çəkdiyi kimi Adil Cəmil şeiri də yurd havasını canına çəkir» sözlərilə şairin yaradıcılığına böyük qiymət verib.

***

Adil Cəmil dəyərli şəxsiyyət olduğu kimi, şeirlərində ifadə etdiyi fikirlər mənalıdır. Aşağıdakı misralarda olduğu kimi:

...Karvan köç elədi, gün daha batdı,
Uğursuz yollarda əjdaha yatdı
Ağılsız danışıb «günaha batdı»,
Ağıllı ağzını mumladı getdi.

Dünyanı duyanlar əhli-hal imiş,
Duyğusuz ürəkdə sevgi lal imiş.
Sən demə arzular xam xəyal imiş-
Xəyallar Adili xamladı getdi.

«Karvan köç elədi»

Düşündürücü misralardır. Hər misrada məna yükü var. Şair «Danış, səni görüm»- məsəlini yadımıza salaraq bu fikri poetik şəkildə qələmə alıb. «Ağılsız danışıb günaha batdı» - deməklə hər kəsin öz yerini bilməyini, yersiz danışmamasını istəyir. Sözün qeyrətini çəkdiyi kimi vətənin, torpağın, xalqın qeyrətini də çəkməyi bacarır. Vətən torpağının hər qarışına üz qoyan, hər daşına sığal çəkən şair sülh adamıdır. Müharibənin, qan tökülməsinin əleyhinədir. Dünyada sülh istəyən şair vaxtsız insan ölümlərinə görə də həyəcan keçirir, bir uşağın göz yaşlarına dəyməyən bu dünyada hamını xoşbəxt görmək istəyir.

...Övlad məhəbbəti bir ayrı sevgi,
Nəvəli günlərim başqa həyatdır.
Nəvə dedikləri mən görürəm ki,
Kainat içində bir kainatdır.

Çiçəyim çırtlayır «baba» sözündən,
Bu yaşa gəlməyin özü bir şərəf.
Öpüb nəvələrin nurlu gözündən
Baxmaq istəmirəm qüruba tərəf.

«Sirri açılmayan sabahdı onlar»

Baba olmaq böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi yaşayan şair baba sevgisini, baba böyüklüyünü, baba qürurunu o qədər həzin, o qədər gözəl qələmə alıb ki, heyrətlənməyə bilmirsən.

Özünün və sözünün ağası olan şairin hər şeirinin öz təravəti, həm də böyük təsir gücü var. O, nədən yazırsa yazsın, onu öz istedadı, öz hissləri, öz anlayışı dairəsində ifadə edərək bədii şəklə salır.

Şair oxucu ilə dil tapa bilir, onunla mehriban danışır, yaxın dost kimi, yoldaş kimi söhbət edir və heç zaman öz fikrini mütləq həqiqət kimi qəbul etdirmir, heç bir əsas olmadan çatdırmaq istədiyi fikri, düşüncəni hökmlə bildirmir. Bu keyfiyyət demək olar ki, onun hər şeirində hiss olunmaqdadır.

Adil Cəmilin bədii cəhətdən cazibədar, oxunaqlı olan şeirlərinin hərarəti oxucunun qəlbini isidir, marağını daha da gücləndirir Çünki onun hər şeirində, hər misrasında işıq var. Gündəlik həyatdan, eləcə də məişətdən alınmış sadə həyat lövhələri həm təbiiliyi, həm ürəyəyatımlılığı ilə susuzluqdan ürəyi yanan oxucuya saf bulaq suyu effektini verir və şairin ürəyini çulğalayan hisslərin, duyğuların səsini eşidirik. Eşitdiyimizə sevinirik. Sevinirik ki, ruhumuza sığal çəkən şeir oxuyuruq:

...Bəzən lələ gizlənir sel arasında,
Tikanlar bəslənir gül arasında.
Gərək elə gəzim el arasında
Mənim tərpənişim yekə düşməsin.

«Düşməsin»

Adil Cəmilin şeirləri hər bir oxucuda maraq doğurur. İnsanlıq və vətəndaşlıq hisslərini misralarının ruhuna hopduran şairin hər bir sənət əsəri adamı ovsunlayır. Çünki o, həyat, təbiət, Vətən, sevgi və insanlar haqqında, onların gözəlliyi, sevinci və kədəri barədə yeni bir şey deyir. Oxucunun bilmədiyi, duymadığı, hətta xəyalına belə gətirmədiyi qəribə hisslərlə tanış edir, fikrini, düşüncəsini həyatın, insanın sirlərini dərk etməyə yönəldir.

Poetik fikri tükənməyən, oxucuya bir-birindən mənalı, oxunaqlı, düşündürücü şeirlər təqdim edən şairin bu misralarına diqqət yetirək:

Ötən ömrü qaytarmağın
Əbəsdi - getdi, gəlməz ha.
Yaşamağın özü, vallah,
Həvəsdi - getdi, gəlməz ha.

...Nə cavan, nə piran bilər,
Bilinməzi Quran bilər.
Quru canı quran bilər:
Nəfəsdi - getdi, gəlməz ha.

«Getdi, gəlməz ha»

Şeir oxucunu həyatı sevməyə, həyatda yaxşı işlər görməyə, dünyada pozulmaz iz qoyub getməyə səsləyir. Hər kəs ömrünü mənalı, şərəfli yaşamalı, vaxtın, zamanın qədrini bilməlidir. Axı hər şey Tanrıya bəllidir. İnsan nə vaxt dünyadan köç edəcəyini bilmir. «Nəfəsdi - getdi, gəlməz ha» poetik fikri ilə şair demək istəyir ki, nə qədər nəfəsiniz gəlir sevin, sevilin, qurun-yaradın, xeyirxahlıq edin, yaxşılıq edin Şair bu misrayla çox söz demək istəyir. Həm də demək istəyir ki, dünyaya bir dəfə gəlirik və əsl insan kimi yaşamağa borcluyuq.

POEZİYA XALQIN ÜRƏYİDİR

Adilin şeirlərində xalqın ürəyindən gələn səsləri eşidirik, xalqın ürəyinin hansı hisslərlə, duyğularla döyündüyünü görürük. Həm də görürük ki, o, havada uçuşan səsləri həssaslıqla eşidir və çox asanlıqla o səsləri şeirə çevirə bilir. O, sözlə ülfət bağlayıb, sözə könül verib və sözə o qədər ürəkdən vurulub, sözə o qədər dəyər verir ki, söz də onun bu sevgisinə, bu istəyinə etinasız qalmır, inci kimi ürəyindən süzülüb durna qatarı kimi ard-arda düzülür. Bu «durna qatarından» bir sözü ayırsan, bu «durna qatarı»nın səfi pozular, sözlər sapı qırılmış mirvari dənələri kimi dağılar

...Bu karvanda köç elədim,
Həyatımı heç elədim.
Ürəyimdə gecələdim-
Yara aldım yaman yerdən.

Hər çınqıya alışmadım,
Hər qatqıya qarışmadım.
Taleyimlə barışmadım-
Adam küsər uman yerdən.

«Bu karvanda»

Sənətin gözəllik tacı sayılan poetik obrazlılıqda bədiilik, zəriflik, incəlik və təsirlilik, asan mənimsənilmək, yaddaşlara həkk olunmaq, çətin unudulmaq keyfiyyəti əsas şərtlərdən sayılır. Bu şərtlərə diqqətlə əməl edən Adil Cəmilin yaradıcılığı həm də xalqın ağrılarının güzgüsüdür. Xalqın ağrılarını o da yaşayıb və yenə də yaşayır və yaşadığı ağrılar şeirlərində də öz əksini tapıb.

Bu çölün düzündə, səhra üzündə
Qanadı qırılmış quş hardan gəldi?
Məni yuva bilib qondu çiynimə,
Görəsən bu quşa huş hardan gəldi?

...Ah çəkib uzaqdan Murova baxdım,
Kəlbəcər adında girova baxdım.
Dən düşən saçımda qırova baxdım-
Yazdan ayrılmamış qış hardan gəldi?

«Hardan gəldi»

Şair həm də xalqın sevincilə sevinir, kədəriylə kədərlənir və bu kədəri ürəyində gəzdirir. Xalqın kədəri sevincindən həmişə çox olub. Məhz ona görə də onun ürəyində kədər daha çox «məskunlaşıb».

...Ayrıldım yurdundan ayrılan eldən,
Gün gündən bəd gəldi, il də ki, ildən
Bəxti üz döndərib Adil Cəmildən-
Sağaltmaz bir təbib, həkim dərdimi.

«Belə doğulmuşam»

Və yaxud:

...Bu ömür-gün vəfasızmış dedikcə,
Sultanların zərli taxtı-kötükcə
Gizli-gizli qəm içindən yedikcə
Dərdli insan ürəyindən qocalır.

«Qocalır»

Dərd şair ürəyinin «bəzəyidir». Həm də dərdsiz insan yoxdur. Dərdini bilməyən, anlamayan insan var. Bəli, «dərdli insan ürəyindən qocalır», yəni, şair ürəyindən qocalır. Onun da dərd içini gizlincə «yeyir» və şair dərdin özünü yox, dərdin gətirdiyi bəlaları qələmə alır; həm də şəxsi dərdindən daha çox, dünyəvi dərdləri oxucularla bölüşür.

«Mən çəkəsi nə qaldı» şeirində olduğu kimi:

Tanrı mənə bir dərd verib, neyləyim-
Ay uzunu, il uzunu çəkmişəm.
Dərin-dərin dəryaların dibindən
Gül bildiyim göy yosunu çəkmişəm.

Qara bulud ağ donunu geyməyib,
Yaxşı xəbər heç qapımı döyməyib.

Mən bu yurdun ağrısına göynəyib,
Mən bu elin namusunu çəkmişəm.

Şair ürəyi nə qədər dərdli olsa da, o, heç vaxt ruhdan düşmür, əksinə, dərdin zülmünə qarşı mübarizə aparır, hər ağrıya dözür, dözə-dözə həm də elin qeyrətini çəkir, namusunu, şərəfini qoruyur. Şair bununla lovğalanmır. Demək istəyir ki, dərd nə qədər ağır olsa da, yurd üçün, vətən üçün həmişə ayaqdayam.

ŞAİR QƏLBİNİN İNCİLƏRİ

İlahi-fəlsəfi fikri yüksək poetik formada təqdim edən Adil Cəmil obrazlı ifadə və deyimlərilə daha çox ürəklərə yol tapır, sözlər onun yaradıcılığında yeni rənglər, yeni xüsusiyyətlər qazanır, şairlər tərəfindən dəfələrlə işlədilmiş sözlər onun qələmindən süzülərək yeni məna kəsb edir, təzə - tər olması anlamına gəlir. Aşağıdakı misralarında olduğu kimi:

...Ömür dedikləri bir dəli çaydır-
Axar məcrasını tapana qədər.

«Ömür dedikləri»

...Anamın yaydığı yuxa kimidir
Kövrələn ürəyim, yuxa ürəyim

«Yaylaq xatirəsi»

...Bir baba qollarında
Bir uşaq çiçəkləyib

«Çiçəklənmə»

...Dağların boynuna dolanan cığır
Torpaqdan göyərən göy sətir imiş

«Lövhə»

Şairin poetik fikirləri oxucunu həyəcanlandırır. Xalq şairi Bəxtiyar Vahabzadə poetik fikri - müxtəlif rəngli, müxtəlif formalı, müxtəlif ətirli güllər yığınından çəkilmiş gülaba bənzədir və göstərir ki, «gül-söz, gülab çəkən söz ustadır. Gülab artıq gül deyil, gülün şəhdidir». Belə şəhdli, şirəli sözlərdən, ifadələrdən geniş istifadə edən Adil Cəmil oxucuya həm də müdriklik ruhu aşılayır, yaddaşında əbədi qalmaq hüququ qazanır.

Bəli, Adil Cəmilin hansı şeirini oxusaq təzə bir obrazlı ifadəyə rast gələ bilərik.

Şair həmişə dəfələrlə işlədilmiş, necə deyərlər qəlib poetik obrazlardan qaçmağa çalışıb və buna müvəffəq ola bilib. O, başqa şairlərin istifadə etdiyi bədii obrazı özünəməxsus bir tərzdə işlədib və özü yaratdığı obrazlarla şeirin məna yükünü, fəlsəfi yükünü daha da artırıb.

Şairin ilk şeirləri də diqqətçəkəndir. Onları nəzərdən keçirsək görərik ki, Adil Cəmil ilk qələm təcrübələrindən yetkin bir şair təsiri bağışlayır.

...Köç gedir, bulaqlar qalıbdır ağlar,
Yolların şələsi ağırlaşıbdır.
Köç gedir, arxada tək qalan dağlar
Dilsiz körpə kimi fağırlaşıbdır.

«Köç gedir»

Bu şeirlərdə bənzətmələr o qədər inandırıcı, o qədər səmimidir ki...

Adilin şeirlərində təbii lirizm güclüdür. Onun istənilən şeirindən hər hansı sözü, ifadəni qoparıb çıxarmaq mümkün deyil. Onun şeirlərini fərqləndirən əsas cəhət sadəlikdi, səmimilikdi, həm də hisslərin, duyğuların zənginliyidir. O, həyat həqiqətlərini, gerçəkliyi elə səmimi ifadə edir ki, şairlə bərabər həyəcanlanır və fərəhlənirik, sevirik və qısqanırıq, kədərlənirik və sevinirik. Ancaq həqiqəti dilə gətirən, həqiqətin gözünə dik baxmağı bacaran şair hər cür saxtakarlığa, yalana və ikiüzlülüyə qarşıdır:

Mənə yalan demə, qardaş,
Həqiqətin özünü de.
Qoy quruca düzdə qalım-
Təki sözün düzünü de.

Mənə yalan demə, qardaş,
Aldananda bağrım yanır
Bu yalanın alovunda
Neçə-neçə doğrum yanır.

«Vədəbaza»

Yalana nifrət edən, yalançı adamları yaxına buraxmayan şair, ancaq sözün düzünü eşitmək istəyir. «Düz danışan düzdə qalar» atalar sözünü «qoy quruca düzdə qalım» misrası ilə poetikləşdirən şair ürəyini və qələmini heç vaxt yalana öyrətməyib, ancaq haqq sözləri şeirlərinə gətirə bilər və gətirir də.

Qoyunun yerinə söz verən çoban
Qoyubdur milləti qoyun yerinə.
Bir deyən olmayıb o vaxt, o zaman:
«Gəlmə» quzuları qoyun yerinə

Bir toyuq bir gündə iki yumurta,
Bir inək bir ildə üç bala verib.
Biclərin əməli bu ana yurda
Bilsəniz nə qədər bic bala verib.

Hər yerdə başsızı başa çəkiblər,
Yüz iş görübdülər bir qohum üçün.
Kələmin yerinə qarpız əkiblər -
Bu torpaq şumlanıb yad toxum üçün.

«Yaxın keçmiş»

Şeir otuz dörd il öncə qələmə alınıb. O vaxtların saxtakarlığı, dövlət büdcəsinin talanması, qohumbazlıq, tayfabazlıq, rüşvətxorluq, yalan və doğru olmayan məlumatlar təəssüf ki, çağdaş həyatımızdan yan keçmir Və biz yenə də şairin özünəməxsus səsi və nəfəsini aydın duyuruq.

Bu səpkili şeirlər yüz illərlə öz təravətini, məzmun

və dəyərini qoruyub saxlayacaqdır. Şairin tənqidi şeirlərində də epitetlər, müqayisələr forma gözəlliyi xatirinə işlədilmir, lirik obrazı daha dərindən ifadə etməklə yanaşı, həm də obrazların mahiyyətinə romantik pafos və gözəllik gətirməsində mühüm rol oynayır.

Adil ədəbiyyata həyatdan gəlib və istedad sahibi olduğuna görə də əsl şeirlər yazır. Görkəmli tənqidçi, ədəbiyyatşünas, dünyadan vaxtsız köçmüş unudulmaz Aydın Məmmədovun 1988-ci ildə «Yazıçı» nəşriyyatında çap olunmuş «Sözümüz eşidilənədək» kitabında oxuyuruq: «Əsl şeir nə ayrılıqda götürülmüş istedadla yaranır, nə də ki, təbii istedada arxalanmayan biliklə. Əsl şeir o yerdə yaranır ki, həmin yerdə istedadla zəngin biliyin münbit sintezi, yaradıcı vəhdəti var. Belə sintez, belə vəhdət isə günaşırı yaranmır, iyirmi-otuz ildə bir yetişir və iyirmi-otuz illik bir poeziya mərhələsi üçün həm aparıcı qüvvə, həm də keçmişin zəngin irsi ilə gələcəyin cücərtiləri arasında körpü rolunu oynayır». Doğrudan da əsl şeir istedadla yaranır. Adil Cəmil də ilk şeirlərini çap etdirdiyi gündən istedadlı bir şair olduğunu, ədəbiyyata, poeziya dünyasına kitablardan gəlmədiyini sübut elədi. Həm də ilk şeirlərindən göstərdi ki, Kəlbəcərin Kilsəli (Günəşli) kəndindən ədəbiyyata yeni nəfəs gəlir, heç kimi təkrarlamayan, özünəməxsus yaradıcılıq üslubu olan bir şair gəlir. Və gəldi də. Bir çox şeirlərində şairin öz obrazı canlanır, qəlbindən heç vaxt silinməyəcək izlər, ürəyinə vurulmuş yaralar, uşaqlıq illəri, həyatla mübarizə, ağrı-acılı günlər onun şeirlərinə hopub və bu gün də yaşamaqdadır.

Hər bir şeir şairin ürəyindən gələn səsdir. Biz bu səsi eşidərək şairin mənəvi dünyası ilə tanış oluruq, onun hansı duyğularla, düşüncələrlə yaşadığını görürük. Bu mənada Adilin şeirlərini onun tərcümeyi-halının bəzi məqamları kimi də qəbul etmək mümkündür.

Hər şeirində Adil Cəmilin özü görünür. Onun yüzlərlə şeiri var ki, bu şeirlər vasitəsilə yaşadığı ömrün müxtəlif anlarından xəbər tutmaq olar.

Bir çox şeirlərində şair ömrünün müxtəlif anları ilə tanışlıq oxucunun qəlbinə təsirsiz ötüşmür. Şairin yaşantıları əslində milyonlarla adamın yaşantısıdır. Və bu yaşantılar hamının qəlbini isidir Şair haqsızlıq önündə susmur, haqsızlıqla barışmır, həmişə haqq səsini ucaldır:

...Mən kişi nəvəsi, kişi oğluyam,
Budağam - kökümdən qopan deyiləm.
Mən Tərtərçaylıyam, Dəlidağlıyam,
Od yağsa gözümü qırpan deyiləm.

...Əlləşib əyməyin, bükməyin məni,
Qayalar üzündə əkməyin məni.
Müqəddəs ölümə çəkməyin məni-
Günahsız mələyən qurban deyiləm.

...Başqa cür yaradıb məni təbiət,
Haqqımı yeyənlə barışmamışam.
Eşit, gözlərini döyən bədniyyət,
Mən sənə qaynayıb-qarışmamışam.

«Barışmazlıq»

Və yaxud bu misralara diqqət yetirək:

İndiki dövranın küləyi başqa,
İndiki süfrənin çörəyi başqa,
İndiki insanın ürəyi başqa -
Millət əldən gedir, din əldən gedir.

«Hacı Sabir Həsənliyə»

Bəli, o, haqsızlıq önündə susmur, çünki susa bilmir, çünki şairdir, millətin, dinin əldən getməsinə o da cavabdehdir.

Şair oğrunun doğrunun üstünə bağırmasına, yalanın ayaq tutub yeriməsinə, şeytanın mələkdən gözəl görünməsinə, mərdin qovula-qovula namərd edilməsinə dözə bilmir, haqq səsini ucaldır. Şairin haqq səsi - xalqın səsidir. Məhz ona görə də şeirləri xalqın ürəyinə yol tapır, çünki o, xalqla nəfəs alır, xalqın arzu və istəklərini, düşüncələrini qələmə alır.

«SÖZ ƏZABI»NDAN ZÖVQ ALAN SƏNƏTKAR

Adil Cəmil şeirə - bu əzablı yola ona görə qədəm qoymuşdu ki, qələmilə xalqa xidmət eləsin çünki onun gücü, ancaq qələmə çatardı. O, ancaq Tanrının bəxş etdiyi şairlik istedadından yararlana bilərdi. Amma bununla o, özü də bilmədən dünyada ən ağır, ən əzablı bir işin qulpundan yapışmışdı. Şair də fəhlədir, onun külüngü qələmidir. Qələmin gücü daha çoxdur, qələmin gücüylə dünyanı lərzəyə gətirmək, dağları silkələmək, dənizdə fırtına qopartmaq olar.

O, qələmin gücünü yaxşı bilirdi, çünki heç kimə yox, qələminə güvənirdi. Qələminə güvənərək, özünə arxalanaraq, daha çox fərdi axtarışlara meyl edirdi, çünki dövrün ideoloji qəlibindən çıxmaq istəyirdi. Çıxdı da

Adil Cəmil müasir Azərbaycan şeirində xüsusi yeri, mövqeyi olan istedadlı sənətkarlardan biridir. Hələ orta məktəb illərindən başlayaraq çətin, şərəfli, həm də əzablı bir sahə olan şeir «yoluna» üz tutmuş, qələmilə xalqına, vətəninə sədaqətlə xidmət etməyə başlamışdır.

Keçən əsrin 70-ci illərindən yazdığı şeirlərdən də hiss olunur ki, onun şəxsində ədəbiyyatımıza öz səsi, öz nəfəsi olan, fərdi üsluba, orijinal təfəkkürə malik bir şair gəlir və bu şairin ədəbi platforması, ictimai-siyasi mövqeyi diqqətdən yayınmadı. O, doğma yurdundan, Vətən və təbiət sevgisindən, ölməz bəşəri ideallardan, ülvi, saf və təmiz məhəbbətdən ilham alaraq yazırdı.

Şair sadə insanları, eləcə də ananı, atanı, görkəmli adamları tərənnüm edərkən adi təsvir yolu ilə getmir, canlı, təsirli, poetik ifadə vasitələrindən istifadə edir, insanların daxili aləminə enir, onların mənəvi gözəlliyini, yüksək insani keyfiyyətlərini açmağa çalışır və bununla da canlı, yadda qalan bədii obrazlar yaratmağa nail ola bilir. «Beş oğul atası Məhəmməd kişi», «Sən gedəli», «Çinar atası», «O illər itmədi», «Ürəyinlə əritmisən daşı sən» və başqa şeirlər bu səpgidə yazılmış gözəl sənət nümunələridir. Onlardan birinə - «Gözün aydın, ovçu Əmrah» şeirinə nəzər salaq:

Gözün aydın, ovçu Əmrah,
Gözlədiyin qış gəlibdir.
Deyirlər ki, siftə-siftə
Sınamısan şikarını
Tüfənginə tuş gəlibdir...

Bilirəm ki, ayaz vurub,
Üzün-gözün qarsalanıb.
Bilirəm ki, kipriyindən,
Bir də sallaq bığlarından
Qar sallanıb...

Şeirdə gözlərimiz önündə çiynində qoşalüləsi, belində patrondaşı, Çapıqdaşın çalasında gizlənib ovu bərəsində vurmaq istəyən ovçu Əmrah canlanır. Ovçu Əmrah bütün ovçuların ümumiləşdirilmiş obrazıdır. Mən bu şeiri oxuyanda gözlərim önündə kəndimizin gülləsi boşa çıxmayan ovçuları canlandı və ürəyim isindi. Ovçu Əmrahın şəxsində kəndimizin ovçularını gördüm.

Bu şeirdən də görünür ki, ürəkdən gələn daxili hərarət, isti nəfəs, səmimiyyət, bədiilik, poetik gözəllik Adil Cəmil şeirinin canıdır, əsasıdır.

Quru sözçülükdən, uzunçuluqdan, təkrarçılıqdan, ritorikadan qaçmağa çalışan və buna müvəffəq olan şair sözlərin poetik düzümünə xüsusi fikir verir, hadisələri, faktları ümumiləşdirir, öz fikir və düşüncəsini misralara hopdurараq oxucuya çatdırır. Təsvir etdiyi həyat hadisələrilə, eləcə də Vətən və təbiətlə, haqqında söz açdığı insanlarla şairin ürək çırpıntıları

qaynayıb-qarışır, biri digərini tamamlayır və bu şeirlər ürəyə nüfuz edir, oxucunun qəlbində təmiz, saf duyğular oyadır, hər kəsi həyatı sevməyə, gələcəyə ümidlə, inamla baxmağa kömək edir.

Onun əsərlərinin oxucular tərəfindən sevilməsinin, böyük rəğbətlə qarşılanmasının əsas səbəbi ondadır ki, onun şeirləri hansı mövzuda yazılmasından asılı olmayaraq bədii siqlətinə, ifadə və təsvir vasitələrinin yeniliyinə, orijinallığına görə seçilir, diqqəti cəlb edir.

Yaradıcılığında insana məhəbbət, təmiz sevgi, vətənpərvərlik və ictimai mövzuların təsviri və tərənnümü mühüm yer tutan Adil Cəmil dünyanın dərdlərindən, qayğılarından da söhbət açır, ana, ata, qardaş, oğul, dost...mövzularına həsr olunmuş şeirlərində də o, ürəyin ən incə, ən kövrək «siminə» toxuna bilir.

Kövrək duyğulardan yoğrulmuş bu şeirlər bəsit, dayaz və yüngül hisslərdən uzaqdır, xalqımızın nəcib mənəvi-əxlaqi keyfiyyətlərindən qida alan şair ürəyi eşqsiz, məhəbbətsiz bir an da döyünə bilməz. Bu eşq, bu məhəbbət hörmət və ehtiram bəslədiyi insanlaradır, vətənədir, təbiətədir, sevdiyi gözələdir. Onun sevgi şeirlərində Füzuli, Müşfiq poeziyasının ətri, rayihəsi duyulur.

...Adını adıma bağlamaq üçün
Məhəbbət ünvanlı bir ömürəm mən.
Səni yuxumda da saxlamaq üçün
Yuxumdan oyanmaq istəmirəm mən.

«Gəlirsən yuxuma»

Bu sevgi şeirində də obrazlı təsvir və ifadə vasitələrindən ustalıqla istifadə edən şairin hər misrasında oxucunu düşündürən, həyəcana gətirən poetik fikir, hiss və qaynar duyğular hakimdir.

Hələ keçən əsrin 60-cı illərindən şeir yazmağa başlayan, «Bahar» adlı ilk şeiri 1970-ci il martın 22-də «Mingəçevir işıqları» qəzetində çap olunan, poeziya yollarında ilk addımlarını atan Adil Cəmil həyatın qəmini, sevincini az görməmişdi. Sevginin, ayrılığın, həsrətin, dərdin, kədərin, haqsızlığın, ədalətsizliyin nə olduğunu hiss eləyirdi.

Bütün ədəbi təsirlərdən uzaq olan Adil öz hisslərini, duyğularını, qəlb çırpıntılarını şeirlərinə hopdurmağa, özünü yazmağa başladı. Özünü yaza-yaza həm də vətəndən, xalqdan, azadlıqdan yazırdı. Onun şeirlərində xüsusi bir qeyri-adilik vardı. Nəydi bu qeyri-adilik? Ötən əsrin 70-ci illərində yazılan poetik nümunələr fonunda Adilin şeirlərinə nəzər yetirsək bu qeyri-adiliyi hiss eləmək o qədər də çətin olmayacaq:

Bölünüb bölünmüş torpaqlar yenə-
Bir xalqın yurduna min xətt çəkiblər.
Cadarlı çöllərə su əvəzinə
Tikanlı məftildən sərhəd çəkiblər.

Millət var, yadlaşıb yad dilləriylə,
Doğma laylası da bölük-bölükdür.
Sərhədlər bu yüngül məftilləriylə
Torpağın çiynində ən ağır yükdür.

«Dünyanın xəritəsi»

Bu misraları ancaq onun kimi cəsarətli söz adamları qələmə ala bilərdi... O təhlükəli və qorxulu illərdə ürək titrədən, qəlb oynadan, insanın yatmış duyğularını oyadan bu misraları ancaq Adil kimi üsyankar şairlər qələmə ala bilərdi.

Daha bir şeirə nəzər yetirək:

...Qanlı cəbhələrin mərmiləriylə,
Ovulmuş torpağam, para-parayam.
Azadlıq ətirli nəğmələrimlə
Çiliyə çilənən Viktor Xarayam.

«Mənə toxunmayın»

Bəli, Adil Cəmil o dövr üçün məqbul olan «ideoloji qəlib»dən biryolluq imtina eləmişdi. Düzdür, o vaxtlar «ideoloji qəlib»dən çıxan şeirlər «senzuradan» keçməsə də, şairin hər şeirində bu qəlibdən çıxmaq üçün çırpındığını görürük. O, sanki quyuya atılmış balıq kimiydi. Nəfəs ala bilmirdi. Rahat nəfəs almaq üçün, öncə şairin qolları «buxovdan» azad olmalıydı Ancaq azad olmaq, azad nəfəs almaq üçün icazə verilmirdi. İcazəsiz az qala gülmək də, ağlamaq da olmazdı. Ancaq əsl şair üçün yasaqlar, hədə-qorxular mənasız idi. Əsl şairlərin qismətinə ya qəbir, ya Sibir düşsə də, onlar Kommunist Partiyasının dediklərini yox, ürəklərinin səsini, könül duyğularını, qəlb çırpıntılarını qələmə alırdılar.

Adilin şeirlərindən fəlsəfi dərinlik, xəlqilik, humanizm, insanpərvərlik, vətənsevərlik, torpağa, yurd yerinə bağlılıq, azadlıq, insan kimi yaşamaq, heç kimin

əsarətində olmamaq və s. kimi bəşəri dəyərlər qırmızı xətlə gəlib keçir. Şairin ilk şeirlərindən görürük ki, o, Kommunist partiyasına, onun ideologiyasına yox, vətənə, millətə xidmət etmək üçün, haqq səsini ucaltmaq üçün qələmə sarılıb. Heç də təsadüfi deyildir ki, onun «İşıqlar, pərvanələr» adlı ilk kitabı (1980) «Azərbaycan» şeirilə başlayır. Elə düşünməyin ki, burada qeyri-adi heç nə yoxdur. Keçən əsrin 80-ci illərinə qədər çap olunmuş Azərbaycan şairlərinin əksəriyyətinin ilk kitabları məhz Leninə, Kommunist partiyasına həsr olunmuş şeirlərlə açılırdı. Bu, qəbul olunmuş qayda idi, ancaq Adil Cəmil ilk kitabının qapısını «Azərbaycan» şeirilə üzümüzə açdı:

...Ən uca zirvəndə ocaq qalaram,
Ürəyim isinər od-ocağında.
Çiçəkli çölündə ölüb qalaram,
Qalmaram yad elin yad qucağında.

Sən mənim gözümdə uludan ulu,
Mən səni od-alov yaşıdı billəm.
Dəysəm bir daşına gözüyumulu
Doğma diyarımın daşıdı, billəm

Düzlük, səmimiyyət, saflıq, dostluq, qardaşlıq, sevgi, məhəbbət və s. kimi yüksək əxlaqi dəyərlərlə ədəbiyyata gəlmiş Adil Cəmil dünyaya, həyata, insanlara yeni münasibət bəsləyir, ifadə və düşüncə tərzi ilə çoxlarından fərqlənirdi, çünki o, partiyalıqla, partiyanın ideologiyası ilə əks mövqedə dayanmışdı.

O, cəsarətli, açıq fikirli şair idi və heç bir ideologiyaya boyun əymək istəmirdi. İstəyində haqlı idi. O, hər hansı bir ideologiyaya boyun əysəydi Tanrının pıçıltılarını da eşitməzdi. Və o, istəsəydi də bunu bacarmazdı, çünki şair anası Maral xanımın duaları ilə haqq yoluna çıxmışdı; bu yol nə qədər əzablı olsa da, fərəhləndirici idi, məftunedici idi, gözəl idi. Bu gözəlliyi çoxları görə bilmirdi, bu gözəlliyi duymaq üçün gərək onların da sinəsində Adilin ürəyi döyünəydi.

Kəlbəcərin havasını udan, suyunu içən Adil Cəmil həmişə və hər zaman yad təsirlərdən uzaq olmuşdur.

...Poeziya dünyasında ilk addımlarını atmağa başladığı gündən o, özünü, öz daxili aləmini, necə deyərlər, öz daxili potensialını ifadə etməyə nail ola bilmişdi. Özündən əvvəl yaşayıb-yaradan şairlərin fəlsəfi düşüncələrini daha obrazlı şəkildə davam etdirən Adil Cəmil poeziyanın dəyərini dərk etmək üçün onun həyat fəlsəfəsinə bələd olmaq gərəkdir. Həm də «insan, ömür, həyat, dünya, olum, ya ölüm» və bu kimi sözlərin dərin qatlarına enmək, şairin poeziyasının əsas qayəsini təşkil edən «Həyat nədir? Dünya nədir?» suallarının cavabını onun şeirlərində axtarmaq lazımdır.

O, ilk şeirlərindən diqqəti cəlb edərək tanınmağa başlayıb. İlk şeirlərini çap etdirdiyi illəri «axtarış dövrü» kimi səciyyələndirmək mümkündür.

Onun şeirlərindəki özünəməxsus fəlsəfi baxışlar, lirik duyğular, düşüncələr, ifadə və deyimlərdə təzəlik hər iki dövrü xarakterizə edir. Yaradıcılığında özünəməxsus rənglərdən istifadə edən şair öz fəlsəfi

düşüncələrinə, həyata, dünyaya baxışı ilə, gözəllik axtarışı ilə, mənəvi zənginliyi ilə oxucuları heyrətləndirməyi bacarır. Şair insanlara üz tutub deyir ki, mənəvi gözəlliklərdən yapışın, namusdan, qeyrətdən, düzlükdən, halallıqdan dördəlli yapışın, çünki dünyanın varı dünyada qalacaq, dünyada ancaq yaxşılıq qalır, yaxşı ad qalır və bir də yazılanlar qalır.

Onun şeirlərində xoşagələn cəhətlərdən biri də odur ki, duyumlu və anlaşıqlıdır, təzahür edən fikirləri heç vaxt öyüd, nəsihət şəklində söylənilmir. O, fikir və düşüncələrini elə ifadə edir ki, bu şeirləri oxuyan hər kəs özündən də xəbərsiz bulaq suyu kimi durulmağa, mənən təmizlənməyə, saflaşmağa doğru yönlənilir. Birbaşa deyilən öyüd və nəsihət, bəzən qıcıq yarada bilir, qıcıq yaratmasa da təsirsiz olur, məhz buna görə də Adil Cəmil fəlsəfi düşüncəli bir şair kimi vermək istədiyi öyüd və nəsihətləri şeirlərində elə ustalıqla, elə mehribanlıqla, elə mülayimliklə işlədir ki, oxucunu uzun müddət öz ovsununda, öz təsir dairəsində saxlaya bilir.

Boylan uzaqlara, yaxına baxma,
Sənə soyuq-soyuq baxana baxma
Heç kəsin gözüylə cahana baxma,
Yaşa ürəyincə, sez ürəyincə

İlləri saxlamaq heçdi, hədərdi,
Ay var - sevincdirsə, gün var - kədərdi.
Onsuz da bu dünya gəldi-gedərdi,
Özünə gün ağla öz ürəyincə.

«Özümə»

Adil Cəmilin yaradıcılığında çağırış ruhlu şeirlər yox dərəcəsindədir. O, demək istədiklərini hayküysüz, həzin və kövrək bir səslə pıçıldayır. Şair öz fikirlərini yüksək tribunalardan qışqıraraq desəydi, zənnimcə onu kimsə eşitməzdi, ancaq onun pıçıltılarını bütün Azərbaycan eşidir, türk dünyası eşidir.

Onun öyüd və nəsihətlərində, fikir və düşüncələrində nə tənqid hədəfi var, nə də ki, tərif obyekti... Onun şeirləri oxucunu düşünməyə vadar edir və oxucu düşünə-düşünə özünə qayıdır, kimliyini anlayır, öz həyat tərzində, yaşayışında yaxşılığa doğru korrektələr etməyə başlayır. Bax, budur şeirin təsir gücü! Şairin gənclik illərində yazdığı şeirlərdən birinə nəzər yetirək:

...Uşaqlığım nadinc olub, kür olub,
Şıltaqlığım şələləylə bir olub.
O gədiklər bu gün mənə pir olub-
Səcdəsində ayaqlarım yalındı.

«Dağlara qayıtmışam»

Adama elə gəlir ki, bu şeir cavan bir şair yox, həyatın hər üzünü görmüş ağsaçlı, nurani, müdrik bir söz adamı qələmə alıb. Məhz ona görə də şair şairdir, şairin cavanı, qocası olmur, Şairin istedadlısı, istedadsızı olur. Ona görə də həmişə və hər zaman «cavan şair» ifadəsinin əleyhinə olmuşam, bu fikirlə razılaşmamışam və indi də razılaşmıram.

Şeirlərində, ancaq həqiqəti yazan, həqiqəti pıçıl-

dayan Adil Cəmil yalanı heç zaman şeirə gətirməyib. Bir çox şairlərdən fərqli olaraq yalana əl çalmayıb, yalanı ucaltmayıb, vəsf eləməyib, könülsüz, ürəksiz bir misra da qələmə almayıb. Yazanda da pambıqçı, üzümçü qızların, tütün becərən Azərbaycan analarının gözlərindəki qəmi, kədəri, ürəklərində yuva salan dərdi şeirə gətirib, bununla təskinlik tapıb, mənəvi borcunu bununla ödəməyə çalışıb.

...Torpağa açdınız ürəyinizi,
Əkindən, biçindən doymadınız siz.
Dağlara söykəyib kürəyinizi
Günəşi batmağa qoymadınız siz.

Elin gur səsinə qatıb səsini
Aşdı zirvələri çoban, naxırçı.
Bəyaz çiçəklərin ağ şirəsini
Qızıl inəklərdən sağdı sağıcı.

«Dağların töhfəsi»

İnsanı insan kimi görmək istəyən şairin vətəndaş yanğısı, ictimai kədəri, ürəyini çulğalayan dərdlər, ən başlıcası isə Vətən dərdi, millət dərdi onu həmişə məngənə kimi sıxıb. Ürəyi sıxıldıqca qələmindən od tökülüb. Bu od daha çox şairin özünü yandırıb və o, şeirlərini yana-yana yazıb. Yana-yana adamları aydınlığa çıxarmağa çalışıb.

Nədir ərəb sözü «beynə-əl-miləl»?
«Millətlərarası» deməkdir, Bakı.

Biz hansı millətlər arasındayıq,
Bu hansı millətə köməkdir, Bakı?

«Paytaxt şəhərində».

Bulaq başı yarpız qaldı,
Xəyalımda bir qız qaldı.
Kəlbəcərim yalqız qaldı,
Yurdumda yalquzaq gəzir.

«Murovun bu üzündə»

Bu misraları oxuyanda üzümüzü qarsalayan rüşvət alovunu, yalanın, yaltaqlığın «qoxusunu» hiss edirik:

Rüşvət yağır rəislərin
Pula təşnə «boş» cibinə:
Yan cibinə, döş cibinə
Bir şəhəri almaq olar
Beləsinin beş cibinə

«Atama məktublar»

Və yaxud:

Bütün inamları qıran qırışmal,
Aldığın nəfəs də yalanmış sənin.
Gəl belə əzilmə, belə qırışma,
Ocağın yalandan qalanmış sənin.

«Yalançı yanında»

Və yaxud:

Gəzdim yer üzünü, bu millət kimi
Millətlər içində yaltaq tapmadım.

«Tapmadım»

Saxta, yaltaq adamları görəndə ürəyi fəryad qoparırır, onlardan qaçmağa çalışır Adil Cəmil:

Ömrüm boyu səndən qaçdım,
saxta adam.
Niyə Allah bizi saldı
bir zamana, vaxta, adam?!

...Yox sözündə səmimiyyət,
a bədniyyət.
Üzündə üz bitib sənin,
dizində diz bitib sənin,
əl-ayağı taxta adam,
saxta adam.

«Saxta adam»

Son illər saxta adamların sayı sürətlə çoxalmaqdadır. Şeir uzun illər öncə yazılsa da öz aktuallığını hələ də qoruyub-saxlayır və dünyanın sonuna kimi qoruyub-saxlayacaqdır. «Əl-ayağı taxta adam» misrasında böyük məna yükü var. Doğrudan da saxta adamlar, saxta pul kimidir, heç kimə yaramır. Onlar yaltaq və hiyləgər olur, yalan danışır, yalana əl çal-

maqla, ona-buna badalaq vurmaqla, mələk donunda şeytanlıq etməklə ömür sürürlər.

Onların ürəyi də buz kimi soyuq olur və bu soyuqluq saxta adamın əllərində də hiss edilir, çünki saxta adamın əlləri taxta kimi duyğusuz olur

***

Adilin şeirlərində onun fəlsəfi düşüncələrini, yadda qalan obrazları nəzərdən keçirdikcə, misralarında «gizlənmiş» sirləri açdıqca heyrətlənirsən. O, heç kimə və heç nəyə baxmadan öz duyğularını, hisslərini, düşüncələrini misralara hopdurur, onun düşüncələri həqiqəti əks etdirir. Öz daxili «mən»ilə baş-başa qalıb həyatın ağrısını-acısını, sevincini, kədərini yaşayaraq, hər əzaba, əziyyətə qatlaşaraq, özündə güc və cəsarət taparaq həyatın özünü şeirlərində əks etdirməyə nail ola bilir.

Qara buludlara sinəmi gərib
Sevinci sayrışan bir dağ olmuşam.
Hardasa, kimisə sevinən görüb
Halal sevincinə ortaq olmuşam.

«Sevinən görəndə»

Və yaxud aşağıdakı misralara diqqət yetirək:

Yurd yerində od-ocağım sönübdü-
Sac altında soyuq külə gəlmişəm.
Xəzan vurub baharımı, yazımı,
Bu çəməndə solmuş gülə gəlmişəm.

«Gəlmişəm»

Elə ki, yurd yerim viranlıq oldu,
İşıqlı günlərim qaranlıq oldu.
Sevincim həmişə bir anlıq oldu,
Boy verib kədərə, dərdə duruldum.

«Duruldum»

Adil Cəmil bütün yaradıcılığı boyu klassik və xalq ədəbiyyatı ənənələrindən səmərəli istifadə edərək şeirlərinin emosionallığı ilə, ovsunu ilə oxucu diqqətini özünə çəkməyi bacardı, folklora məxsus sədə dililə, ruhi-kökə bağlılığı ilə özünü şair kimi təsdiq edə bildi.

Xalq sənətinə, milliliyə, kökə dərindən bağlı olan şair yenilik həvəsi, mövzu rəngarəngliyi, fəlsəfi-ictimai düşüncə tərzilə seçilir və böyük uğurlar qazanır.

«POEZİYA HƏYATIN ÖZ NƏFƏSİDİR»

Adil Cəmilin poeziyasından danışarkən böyük rus tənqidçisi V. Belinskinin bu sözlərini xatırladım: «Poeziya həyatı yaradıcı surətdə yenidən yaratmaqdır. Buna görə də, o şey ki, həyatda ola bilməz, o, poeziyada da yalandır; başqa sözlə, həyatda ola bilməyən şey poetik ola bilməz. Həyatı əks etdirə bilmək üçün hətta yaradıcılıq istedadı da azdır: həyatı anlamaq üçün gərək ağıl da olsun. Kim istəsə ki, kağız üzərində də, yazdığı şeirlərdə də şairliyi görünsün, o gərək əvvəlcə qəlbən şair olsun və öz təbiətinə uyğun olaraq, həyatın poetik tərəfini görsün. Poeziya təkcə kitablardan oxunan deyil. O, həyatın

öz nəfəsidir».

Hər bir şeir şair ürəyindən gələn səsdir. Biz bu səsi eşidərək şairin mənəvi dünyası ilə tanış oluruq, onun hansı duyğularla, hansı düşüncələrlə yaşadığını hiss edirik. Bu mənada şairin şeirlərini onun tərcümeyi-halının bəzi məqamları kimi də qəbul etmək mümkündür.

Hər şeirdə şairin özü görünür. Adil Cəmilin yüzlərlə şeiri var ki, bu şeirlərində onun yaşadığı ömrün müxtəlif anlarından xəbər tutmaq olar.

Bir çox şeirlərində şair ömrünün müxtəlif anları ilə tanışlıq oxucu qəlbinə təsirsiz ötüşmür. Şairin yaşantıları əslində milyonların yaşantısıdır

...Gedən keçmiş üçün döydüm dizimə,
Gələn gələcəyin düşdüm izinə.
Birisi dərd tapdı, biri xəzinə,
Heç kəsin payını düz vermədilər.

«Üzü dönüklərə»

Görəsən, günümüzün həqiqətini bundan poetik necə təsvir etmək olar? Bilmirəm. Ancaq onu bilirəm ki, Adil Cəmilin hər bir misrası onun özünün təsdiqidir, hər bir şeiri ürəyinin bir parçasıdır. Bu şeirlər təbiətin özündən, həyatdan gəlir. Böyük rus tənqidçisi V. Belinski Puşkinin şeirlərini təhlil edərkən yazırdı: «Puşkinin şair qəlbində hər şeydən əvvəl o poeziya yer tutur ki, o kitabdan yox, təbiətin özündən, həyatdan gəlir, onun bədii sənətkarlıq möhürü «tam yara-

dıcılıq ləyaqəti və şöhrəti» ilə vurulmuşdur. Ağıl - həyatın ruhudur, canıdır; poeziya isə - həyatın təbəssümü, onun nurlu baxışıdır ki, surətlə dəyişən duyğuların rəngarəng çalarlarında bərq vurub oynayır».

«Yaman qocalmısınız» şeirini oxuduqca şairin mənəvi dünyası ilə daha yaxından tanış olur, eyni zamanda onun mənəvi dünyasında anaya, ataya olan məhəbbətin qoxusunu hiss edirik:

...Ay ana, üzünə baxa bilmirəm,
Ay ata, gözündə donur gözlərim.
İllər çəpər çəkib, qoymayıb görəm-
Gizlicə-gizlicə, ay əzizlərim,
Yaman qocalmısınız.

Zamanın çarxını hara çevirim?
Neyləyim illərin acığına mən?
Kaş bütün ömrümü nura çevirim,
Səpim gözünüzün işığına mən-
Yaman qocalmısınız.

Bu tanışlığın özü belə Adil dünyasına gedən yolun göstəricisi sayıla bilər. Bir damla suyun tamı ilə bütöv bir gölün tamını müəyyən etmək mümkün olduğu kimi, bir şeirlə də şairin mənəvi aləmini hiss etmək mümkündür. Bu, həqiqətdir. O da həqiqətdir ki, onun şeirlərinin təsir gücü, gözəlliyi, məna dərinliyi doğulduğu ata ocağından, havasını udduğu Kəlbəcər dağlarından gəlir. Şairin yaradıcılığında ana, ata, yurd yeri, Vətən, torpaq məhəbbəti, insanlara

sevgi mühüm yer tutur və bu barədə söhbət açmağa çalışacağıq.

Mərhum tənqidçi-ədəbiyyatşünas Aydın Məmmədovun «Sözümüz eşidilənədək» kitabına bir də nəzər yetirək. O, həmin kitabda yer almış «Zamanla səsləşən şeirlər sorağında» məqaləsində yazırdı: «Ayrı-ayrı nəsillərə mənsub müəlliflərin eyni mövzulu şeirlərində vətənimiz insan üçün qiymətli olan hər şeyə - çörəyə, suya, ürəyə, beyinə və s. bənzədilir, heç bir bənzətmə də «El bilir ki, sən mənimsən» ifadəsinin verdiyi doğmalığa, təbiiliyə, saflığa, poetikliyə yaxınlaşa bilmir. Onlarla şeirdə 30-cu illər Azərbaycan şeirinin ictimai-siyasi platformasını, partiyalılığını, mübariz əqidəsini əks etdirən poetik vasitələr təkrarlanaraq «istismar olunmuş» boş hay-küyə, ritorikaya çevrilmişlər. «Yaşa!», «alqış», «Gözəlsən», «mərd atalar», «igid oğullar», «vüqar», «şan-şöhrət», «şərəf», «günəşli diyar», «vətən eşqi», «Odlar diyarı» və s. kimi söz və ifadələr bu qəbildəndir: müxtəlif müəlliflərin şeirlərində bu sözlər tipik, ənənəvi qəliblərdə işlədilir və hər dəfə də adama elə gəlir ki, onlar «tükürpərdici səslə qışqırıb» imdad diləyirlər».

Adil Cəmil də vətəndən, yurd yerindən, ana təbiətdən, igid oğullardan az söz açmayıb, ancaq onun şeirlərində işlədilən bu kimi söz və ifadələr ənənəvi qəliblərdə işlədilməyib. Şair özünəməxsus bir tərzdə həmin söz və ifadələrə yeni məna, yeni rəng, yeni nəfəs və ruh verib. Onun dərin müşahidə - görmək, seçmək, bədii şəklə salmaq məharəti var: onda həm də Füzuli həssaslığı, Vaqif nikbinliyi, Mirzə Cəlil

yanğısı, Müşfiq coşqunluğu, Vurğun məhəbbəti var.

Müasir poeziyada yaradıcılığı böyük vətəndaşlıq duyğuları ilə fərqlənən Adil Cəmil öz doğma yurduna olan sonsuz məhəbbətini xüsusi novatorluqla poetikləşdirə bilir.

Professor Kamran Əliyevin şairin «Yurd yerim-dərd yerim» kitabına yazdığı ön sözdə dediyi kimi: « Adil Cəmilin xitab etdiyi ünvanlar dağ, daş, ağac, su deyil. Onun müraciətinin əsas ünvanları yurd yeri, ata sözü və Tanrıdır».

İlahi, yurd yerim dərd yerim oldu,
Torpaqla sınağa çəkilməyəydim.
Dağlara baxıram dağlanır sinəm,
Bu dağla sınağa çəkilməyəydim.

...Adiləm, özümdən bəzən küsdüm də,
Yansam «Vətən» deyər göydə tüstüm də
Döyüşdə öləydim ayaq üstündə,
Yataqla sınağa çəkilməyəydim.

Həmişə və hər zaman ənənəvi qəliblərdən qaçmağa çalışan və buna müvəffəq olan şair ifadə gözlənilməzliyi nümayiş etdirməklə hansı istedad sahibi olduğunu dəfələrlə açıb göstərə bilmişdir.

PORTRET SƏCİYYƏLİ ŞEİRLƏR

Adil Cəmilin bir şair olaraq sevdiyi, xalqın tanıdığı və böyük ehtiramla xatırladığı işıqlı ziyalılara, söz adamlarına, doğmalarına həyatda silinməz iz qo-

yanlara həsr etdiyi şeirlər də xüsusi maraqla oxunur. Sadəcə olaraq bunları ithaf şeirləri adlandırsaq, səhv etmiş olarıq, çünki o, heç kimi tərifləmir, heç kimə lazım olduğundan yuxarı qiymət vermir. Şair bir rəssam kimi onların portret cizgilərini çəkir, necə deyərlər, bu şeirlər portret səciyyəli şeirlərdir. Məhz ona görə də ürəyə xoş gəlir, gözəl əhval-ruhiyyə yaradır.

Bəli, şair də rəssamdır. Rəssam rənglərlə işləyir, şair isə qələmilə. Duyğular, hiss və həyəcanlar, müşahidələr isə eyniyyət təşkil edir.

Rəssam rəngləri qarışdırıb fırçası ilə portret, yaxud təbiət mənzərəsi yaratdığı kimi, şair də sözlə hər hansı bir şəxsiyyətin portretini yaradır, yaxud gözlərimiz önündə gözəl bir mənzərə canlandırır.

Mənə elə gəlir ki, şairin sözlə çəkdiyi tablolar, rəssamın fırça ilə çəkdiyi tablolardan daha uğurlu sənət əsəri kimi qəbul edilir. Rəssam gördüklərini, şair isə daha çox duyduqlarını yaradır.

«Bir dünyan var-türk dünyası» şeirinə diqqət yetirək. Şeir türkün böyük alimi, akademik Nizami Cəfərova həsr edilib:

Tarixinə işıq salıb
Tanıdırsan türkü türkə
Dildə gəzir, sözdə gəzir
Səs-sorağın ölkə-ölkə.

...Axtarırsan, arayırsan
Sən Altaydan Çinə kimi.
Türkün ilkin əcdadından
Lap elə bu günə kimi.

Keçir sənin qələmindən
Ər Atilla, Bilgə Xaqan.
Vəsiyyət də qoyub gedib
Əbədilik türkə Xaqan.

Bu misralarda assosiasiya qüvvətli, müqayisə təbii və rəvan, poetik obrazlılıq ürəyə yatandır. Şeiri oxuduqca gözlərimiz önündə kitabxanalarda, qədim arxiv sənədlərində türklərin tarixini, mədəniyyətini araşdıran, Altaydan Çinə kimi məskunlaşan türklərin əcdadlarından, şərəfli keçmişindən bizə soraq verən böyük bir türkoloq alimin fəaliyyəti canlanır

Bu şeir dahi şair Məhəmməd Füzuliyə yazılıb. Sanki şeir oxumuruq, şairin özünü görürük:

Hər yanı al-əlvan çiçək çələngi,
Füzuli düşünür daş paltarında.
Qürbətdə o qədər üşüyübdü ki,
Doğma vətəndə də qış paltarında.

...Ayrılıb o gündən, gəlib bu günə-
Dönük dövranıyla küsülü babam.
Dalıb xəyallara düşünür yenə
Görən nə düşünür Füzuli babam?..

Bəlkə düşünür ki, aradan əsrlər keçməsinə baxmayaraq yenə də «salam verdim, rüşvət deyildir deyə almadılar». Bəlkə düşünür ki, doğma vətəndə də isinə bilmir. Dövran yenə də dönükdü. Dünya düzəlmir ki, düzəlmir... Füzulinin nəinki xarici görkəmini,

daxili dünyasını da poetik detallarla ifadə edən şair onun canlı obrazını da yaratmağa müvəffəq ola bilib.

Şairin «Divar çatdağından süzülən işıq» şeiri də təsirlidir. Bu şeirdə türk dünyasının unudulmaz şairi Nazim Hikmətin portret cizgilərilə tanış oluruq:

...Titrəyir Nazimin əlində qələm-
Qonşu kamerada kimsə çığırır
Diksinib qorxudan geri çəkilir
Günəşdən ayrılan işıq cığırı.
Şair gözlərinin mavi həsrəti
O ürkək işığı geri çağırır-
Divar çatdağından süzülən işıq
Oynayır gözündə Nazim Hikmətin,
Nə yaxşı xəbəri yox hökumətin

Adil Cəmil «Şair gözlərinin mavi həsrəti» misrasıyla Nazim Hikmətin zindan həyatını ürəkağrısı ilə təsvir edir, onun gerçək yaşamını göz önünə gətirir.

Bədii fikir və təsvirlərdən yerli-yerində istifadə edən şairin «Bəhmən Vətənoğluna» adlı şeirinə diqqət yetirək. Bu şeirdə Adil Cəmil unudulmaz el şairi Bəhmən Vətən oğluna həm böyük dəyər verir, həm də onun köçkünlük həyatını gözlərimiz önündə canlandırır:

Taleyin səni də çəkdi sınağa-
Yuvasız qalmısan, ay Vətənoğlu.
Göyərməz misrası qərib şairin,
Havasız qalmısan, ay Vətənoğlu.

Bu nə imtahandır ömrün bu çağı,
Qəmin qılıncı var, dərdin bıçağı.
İsitməz canını özgə ocağı,
Sobasız qalmısan, ay Vətənoğlu.

Bu misralar el şairi Bəhmən Vətənoğlunun qaçqınlıq, didərginlik həyatını güzgü kimi əks etdirir. Şeiri oxuduqca Bəhmən Vətənoğlunun Kəlbəcər həsrətini, yurd nisgilini dərindən hiss edirik, elə oxucular da el şairinin həsrətinə, köçkünlük dərdinə şərik olub için-için yanır.

Şair tanınmışların cizgilərini elə ustalıqla açıb-göstərir ki, düzü, heyrətlənməyə bilmirsən. Məhz ona görə də Adil Cəmilə şair-rəssam, rəssam-şair demək daha doğru olardı. Hər halda, bu, mənim fikrimdir və mən öz fikrimdə yanılmadığımı düşünürəm. Həm də düşünürəm ki, Adil Cəmilin şeirləri öz ideya-məzmununa, poetik gözəlliyinə görə çağdaş Azərbaycan poeziyasında ən gözəl və əbədiyaşar nümunələrdir.

Bəli, o, sözlə portret yaratmaq ustasıdır. O, bədii sözlə, poetik cizgilərlə Azərbaycanın görkəmli adamlarının obrazını elə məharətlə yaradır ki, şair sözünün qüdrətinə heyran qalmaya bilmirsən.

Adil bir söz adamı kimi Azərbaycanı tanıdan, Azərbaycana şöhrət gətirən bir çox görkəmli şəxsiyyətlərə sözlə abidə ucaldıb. «Cavidin məqbərəsi önündə» adlı şeirində isə şair ürəyindən gələn səsləri Cavid əfəndi ilə «bölüşür», onunla söhbət edir. Şair Cavid Əfəndiyə müraciətlə belə deyir:

O illərdə əfəndim,
Sən hardaydın, biz harda?
Necə duruş gətirdin
Sibir adlı məzarda?
...Vətənin həsrətilə
Sümüklərin üşüdü.
Bir gün döndün Vətənə-
Bu, Tanrının işidi.
...Ağ mərmərdən yapılan
Nur biçimli odan var,
Darıxmazsan, əfəndim,
Yanında el-oban var.

Bu şeirin hər misrasına ümumbəşəri duyğular hakimdir. Şeiri oxuyan hər kəs Cavid Əfəndinin - Hüseyn Cavidin əbədiyaşarlığına inanır.

Və yaxud şairin «Xalq şairi Qabilə» yazdığı şeirə nəzər salaq:

...Bir sözü keçibsə yeddi qatından,
Bir sözü qalmayıb zarafatından.
İllərlə düşməyib ilham atından,
Sevildi, oxşandı, öpüldü Qabil.

Şeiri oxuduqca unudulmaz Qabilin şirin zarafatları, məzəli söhbətləri yada düşür. Onun sevilən bir şair olduğu bir daha diqqətə çatdırılır.

Bu şeirləri həyəcansız oxumaq olmur, bu şeirlər adamı özünə, şərəfli keçmişə qaytarır. Özümüzə qayıtdıqca, şanlı tariximizi vərəqlədikcə daha güclü,

daha böyük olduğumuzu hiss edirik, daha inamlı oluruq. Bu hissi, bu inamı şairin «Manas» poemasından da alırıq.

«Manas» dastan-poeması Adil Cəmilin yaradıcılığında, həm də manasşünaslıqda əhəmiyyətli yerlərdən birini tutur. Qırğız xalqının, eləcə də türk dünyasının ən möhtəşəm abidəsi sayılan bu dastanı əbəs yerə «qırğız xalqının bibliyası» adlandırmırlar.

Manas əfsanəvi qəhrəman olsa da, Adil Cəmilin yazdığı kimi «əfsanə qəhrəmanı deyil, IX əsrdə yaşamış Ajo adlı qırğız sərkərdəsinin prototipidir. O, 850-ci ildə hakimiyyətə gələrək parçalanmış qırğız xanlıqlarından xaqanlıq yaradan xanlar xanı, yenilməz bahadır və dövlət qurucusudur. Qırğız xalqının tarixində ilk dövlət quruculuğu məhz Manasın adıyla bağlıdır».

«Manası» ilk dəfə Azərbaycan oxucularına Adil Cəmil tanıdıb və o, «Manası»ı ərsəyə gətirməklə qırğız xalqının bu möhtəşəm abidəsini «Azərbaycan ədəbiyyatına, mədəniyyətinə qazandırılmasında» (N. Cəfərov) misilsiz xidmət göstərib. O, «Manas» dastan-poemasını qələmə almaqla yaradıcılığında ən böyük uğura imza atmış, Manasa Azərbaycanda yeni bir poetik abidə ucaltmışdır.

Poemada Manasın doğulmasından ölümünə qədər böyük bir tarixi yolu gözlərimiz önündə canlandıran Adil Cəmil bu əsərilə həm Manasa, həm də özünə möhtəşəm bir abidə ucalda bilib. Ər Manasın- məğlubolmaz qəhrəmanın, cəsur igidin portretini sözlə çəkərək oxuculara təqdim edən şair, həm də Mana-

sın şəxsiyyətinin yenilməzliyini nümayiş etdirib.

Akademik Nizami Cəfərovun «Manas» dastan-poemasına yazmış olduğu «Son söz»də oxuyuruq: « Dastan-poemada Manas qırğız igidlərini başına yığıb yadelli işğalçıları - Çin, əfqan xanlarını Türküstandan qovaraq yalnız qırğızların deyil, ümumən türklərin asayişini təmin edir. Lakin qəhrəmanın öz dostları ilə hər gün məclis quraraq bədxərclik eləməsi atası Cakibi - qoca taciri qəzəbləndirir. Və bu münasibətdən inciyən Manasın öz yurdunu tərk edərək Əndicanda əkin-biçin işinə qoşulması dastan-poemada çox maraqlı detal və təfərrüatlarla əks etdirilir.

Əlbəttə, qırğız elinin möhtəşəm oğlu əkin-biçinə biganə olmasa da, onun ədəbi (və tarixi!) funksiyası bu deyildi. Odur ki, mübarizə yoldaşları incimiş qəhrəmanın könlünü almalı olurlar:

...Aldığımız torpaqlar
Birbəbir əldən gedər.
Millət yenə alçalar,
Nə gedər eldən gedər

Bu sözlər Manasa təsir edir, o, yenidən öz missiyasını davam etdirməyə qərar verir. Və yenə də tamamilə təbiidir ki,apardığı mübarizədə çox böyük çətinliklərlə rastlaşmalı, həm daxili, həm də xarici düşmənlərin iradəsini qırmalı olur...».

Manasın ölümü ilə başa çatan poemada oxuyuruq:

Min il keçdi üstündən
Məzar sirri qorundu.
Gəlib-getdi o vaxtdan
Neçə payız, neçə yaz.
Hələ də bilmir heç kəs
Harda yatır Ər Manas.

Manas ürəklərə köçüb yaşayır, türk xalqlarının qan yaddaşında yaşayır. Adil Cəmilin qələmə aldığı bu möhtəşəm poemasında Manasın həm mənəvi dünyası, həm də xarici görkəmi o qədər ustalıqla təsvir edilib ki, istənilən rəssam onun portretini çox asanlıqla çəkə bilər ki, bu da Adil qələminin qüdrətindən xəbər verir.

Dastan-poemada real təbii lövhələr söz rəssamlığı, söz rəngkarlığıdır. Və bu da Adilin rəssam-şair, şair- rəssam olmağının bariz nümunəsidir.

LİRİK DUYĞULARIN ƏLVANLIĞI

Adil Cəmilin şeirlərinin, eləcə də poemalarının dili səlis və rəvandır, canlı xalq danışığı əsasında qələmə alınıb, hikmətli və müdrik ifadələrdən yerli-yerində istifadə etməklə həmişə poeziyasevərlərin diqqət mərkəzində olub, yenə də diqqət mərkəzində olmaqdadır.

O, bir vətəndaş-şair olaraq, ziyalı olaraq dövrün ictimai-siyasi hadisələrinə, dünyada gedən proseslərə, cəmiyyətə, yaşadığı mühitə heç bir zaman biganə qalmamış, şeirlərində hiss və duyğularını, fikir və

düşüncələrini əks etdirmişdir. O, dərin müşahidə qabiliyyətinə malikdir. Dünyanı cənginə alan zəlzələlər, meşə yanğınları, torpaq sürüşmələri, sel daşqınları onun da ürəyini göynədir. Bu və ya bu kimi hadisələrə heç vaxt biganə qala bilməyən şair bu təzadlar dünyasında öz fikir və düşüncələrini kəskin və tünd boyalarla qələmə almağa çalışır. «Tanrı qəzəbinə gəldi yer üzü» şeirində olduğu kimi:

Qaldı su altında kiçik adalar,
Tufanda boğuldu səslər, sədalar.
Elə çoxaldı ki, haramzadalar
Tanrı qəzəbinə gəldi yer üzü.

Xeyir öz yerini şərə verəndə,
İblisin əkdiyi bəhrə verəndə,
Avropa oğlunu ərə verəndə
Tanrı qəzəbinə gəldi yer üzü.

Şairin bu şeiri günümüzlə necə də gözəl səsləşir. Şeytanın Mələkdən gözəl göründüyü, pulun Tanrıya döndüyü bu zəmanədə zalım dünyaya öz sözünü deməyəsən, neyləyəsən?!

Rüşvətin, oğurluğun, qəddarlığın, yaltaqlığın, köləliyin mahiyyətini açıb göstərən şair hansı mövzuda yazırsa yazsın, çağdaş siyasi-ictimai lirikamızın ən gözəl nümunələrini yaratmış olur:

...Bulaqlar saf idi, çaylar dupduru,
Cana məlhəm idi günəşin nuru

Yenilməz dağ idi kişi qüruru-
Kişilik deyilən ad yerindəydi.

«Kəlbəcəri xatırlarkən»

..Deyəsən qorxmursan aqibət üçün-
Hər dəfə bir yalan uydurmağın var.
Özün ac qalsan da həqiqət üçün,
Hamını yalanla doydurmağın var.

«Yalançı yanında»

O, bir şair olaraq alçaqları, nadanları, vəzifəpərəstləri, cilddən-cildə girən, rəngdən-rəngə düşən buqələmunları söz qamçısı ilə elə döyəcləyir ki Bu, həm də poetik ittihamnamədir. Şair onları ittiham edir, onların mənən saflaşmasını, ruhən təmizlənməsini istəyir.

Adil Cəmil zamanın nəbzini tutan, ictimai-siyasi hadisələrə düzgün qiymət verən, zamanla səsləşən, nəsillərdən nəsillərə keçib yaşayacaq şeirlər müəlifidir və bu şeirlər cəmiyyətdə baş verən prosesləri özündə əks etdirir.

Müxtəlif bədii üsullardan, maneralardan istifadə edən şair yeri gələndə qələmini süngüyə çevirir; qorxaqlığı, namərdliyi, acizliyi, ruh düşkünlüyünü, iradəsizliyi, dözümsüzlüyü və bu kimi mənfi halları tənqid edir, insanları daha mətin, daha mübariz olmağa səsləyir.

Həyat çətinliklərlə doludur və nə qədər çətin olsa da, həyat davam edir. Gərək heç bir çətinlikdən qorx-

mayasan, çəkinməyəsən, ruhdan düşməyəsən, mübariz olasan və hər bir çətinliyə qalib gəlməyi bacarasan. Şair həmişə gələcəyə ümidlə, inamla baxıb, yaşamaq üçün mübarizə aparıb, öz haqqını tələb edib, haqq yolundan dönməyib.

Səbr elə, darıxma, əzizim insan,
Sən dərdi ömürlük daşımalısan.
Çəkməyə qəmin var-deməli varsan,
Vuruşa-vuruşa yaşamalısan.

«Əzizim insan»

Və yaxud:

Düşmüşəm yolların ağına yenə,
Çiynimdə bir ağır xurcun-gedirəm.
Mənə borc verilən bu ömrə, günə
Hələ çox qalıbdır borcum, gedirəm

«Borc»

Adil Cəmil özünü təsdiq edən şəxsiyyətdir. O, elə bir şəxsiyyətdir ki, ona həmişə inanmaq, pənah aprarmaq, o yaxşı adama, imanlı adama, xeyirxah adama dağ kimi söykənmək olar. Bu deyilənlər onun şeirlərində də öz ifadəsini tapıb:

Məni sevməyənə sevgimi verdim,
İsti ürəyimi ev kimi verdim.

Üşüyən dostuma kürkümü verdim,
Yazın həvəsiylə qış da bitirdim.

«Bitirdim»

Bu sətirlərin müəllifinə necə inanmayasan, necə pənah aparmayasan, ümid qapısını necə açmayasan?

Adil Cəmilin şeirlərini oxumaq kifayətdir ki, ruh düşkünlüyündən azad olasan, həyatın şirinliyini, yaşamağın gözəlliyini bir də dərk edəsən, sevib-sevilməyə, qurub-yaratmağa can atasan.

Adil şeirinin gücü, qüdrəti, sehri, ovsunu və ən başlıcası isə fəlsəfi yükü, məna dərinliyi insanı həyata yenidən qaytarır, həyata möhkəm tellərlə yenidən bağlayır. Ümumiyyətlə, onun poeziyasında həm də bir çağırış var; bu çağırış insanları doğru yola istiqamətləndirir, insanları şər qüvvələrə qarşı birləşməyə səsləyir. İnsanları şeirlərilə haqqa doğru yönləndirən Adil Cəmil həmişə və hər zaman hədəfi düz nişan alır, onun hədəfindən heç nə yayınmır.

Şairin yaradıcılığında yumor səciyyəli şeirlər də az deyildir. Məsələn, aşağıdakı misralara nəzər salaq:

Neçə-neçə adam gördüm,
Paltarı özündən baha.

«Bu yoxuşu çıxasıyam»

Boğazı kəndirdən çıxsa da,
Ölüsü «qəbirdən çıxsa da»,

Kükrəyib səbirdən çıxsa da,
İnanmaq olmur.

Üzündə insanlıq nuru yox,
Odu var, közü var, qoru yox.
Tam deyil - yarı var, yarı yox
İnanmaq olmur.

«İnanmaq olmur»

Şeirdəki ironiya, sarkazm ilk misralardan hiss edilir. Hədəf də məlumdur. Duyumlu oxucu söhbətin nədən getdiyini, satira oxunun hara tuşlandığını dərhal anlayır və dərindən nəfəs alıb təskinlik tapan kimi olur.

Adilin bu səpkili şeirlərində satira elementlərinə az təsadüf olunsa da, yaxud olunmasa da, şairin ironiyası satiradan da güclüdür, islahedicidir. Bu şeirlərdə gülüş də, təbəssüm də var. Gülə-gülə düşünürsən, düşünə-düşünə gülürsən.

İstəsə qəzəblənər,
İstəsə həlim olar.
İstəsə şəhərə gəlib
alim olar-
Çobanın nəyi çatmayır?

«Çobanın nəyi çatmayır?»

«Çobanın nəyi çatmayır» misrası ilə ən ağrılı yerimizə toxunan, cəmiyyətdə gedən proseslərə, eləcə

də az qala hamının alimlik iddiasına düşməsinə etirazını bildirən şair çobanın timsalında günümüzün reallığını əks etdirə bilib. İndi az qala hamı fəlsəfə doktorudur. Tərcümeyi-halını yaza bilməyənlər belə hansı yollarlasa da müdafiə edib, alimlik dərəcəsi alırlar Onların sayı yüzlərlə yox, minlərlədir

***

Adil Cəmil insanlara, təbiətə qayğı ilə yanaşdığı kimi, sözə də qayğı ilə yanaşır, təsvir və ifadə vasitələrindən çox həssaslıqla istifadə edir və hansı ifadəni harada, necə işlədəcəyini yaxşı bilir. Onun üçün söz şeirdə fikir, məna daşıyıcısıdır...

Sözə yaradıcı yanaşan, sözləri zərgər dəqiqliyilə misralara düzən, təşbihlərin, ifadə və təsvir vasitələrinin orijinallığı ilə tanınan Adil Cəmil «Barışmazlıq» şeirində yazır:

Ruhum yaz qoxuyur göy meşə kimi,
İlhamım şığıyır günəşə kimi
Sinib kol dibinə bənövşə kimi
Hər yerdə nəzərə çarpan deyiləm.

Və yaxud:

Göyərçintək qonursunuz
Siz hərəniz bir qoluma.
İki qolum - iki budaq
Həm qızıma, həm oğluma

«Əzizlərim, əkizlərim»

Bu kimi çoxsaylı şeirlərində ifadə və təsvir vasitələrində təzəlik, orijinallıq hiss olunur. Adil Cəmil hansı mövzudan söhbət açırsa, fərqi yoxdur, o, yenə də oxucunun zövqünə uyğun şeirlər yazır. Hər bir şeirinə müasirlik mövqeyindən yanaşır, artıq detallardan, lövhələrdən, necə deyərlər, bəzəkdən, xəyala gəlməyən romantikadan istifadə etmir, fikir və düşüncələrini konkret və orijinal bir şəkildə ifadə edir, daha oynaq, tələffüzə daha asan yatan sözlərdən yararlanır. Şairin dili «dolaşdıran», yaddaşa ağırlıq gətirən bircə şeirinə belə rast gəlmək mümkün deyil. Doğrudan da Adil Cəmilin şeirləri zərif hisslərdən, səmimi duyğulardan «yoğrulub».

Bu əriyən qış deyil ha,
Axı ürək daş deyil ha.
Gözümüzdən yaş deyil ha,
Qandır sızan, Dədə Şəmşir.

Yurdun varı, yoxu sənsən,
Gerçək olan yuxu sənsən.
Kəlbəcərin ruhu sənsən,
Ulu ozan-Dədə Şəmşir.

«Dədə Şəmşir»

Sanki dilimizdə şeir yox, şirin bir bayatı «gül açır». Bu şeirdə bir poema məzmunu var. Poema məzmununu şeirə sığışdırmaq hər şairin işi deyil və hər şair də sözdən qənaətlə istifadə edə bilmir.

Adil Cəmilin yaradıcılığında insan amili öndə da-

yanır. İnsan onun əsərlərində «yaradılmışların ən şərəflisidir» (Nizami Gəncəvi). İnsanların humanizm və vətənpərvərliyini, təmiz mənəvi-əxlaqi keyfiyyətlərini tərənnüm edən şairin yaratdığı surətlər canlı təsir bağışlayır, bitkin və dolğun olur, lirik obraz oxucuda aydın və real təsəvvür yaradır.

Adil Cəmil vətəndaş-şair kimi dünyamızın narahat taleyilə yaşayan söz adamlarından biridir. Müasir dövrümüzün aktual problemlərinə fəal münasibət bəsləyən, müasir həyatın tipik və səciyyəvi hadisələrini dərindən duyan şair bir çox şeirlərində «şeytan adamları» gözlərimiz önündə canlandırır:

Gözü göydür, dişi seyrək-
Beləsini görməmişəm.
Sinəsində vurmur ürək,
Beləsini görməmişəm.

...Hay verib harayçı olur,
Pay bölsələr payçı olur.
Dost arası qayçı olur-
Beləsini görməmişəm.

«Beləsini görməmişəm»

Onun vətənə və xalqa həsr olunan şeirləri də müasirlik baxımından diqqətçəkəndir. Şair bu mövzuda yazdığı şeirlərdə də özünəməxsus orijinal tərənnüm yolu ilə seçilir, yenə də üstünlüyü məzmun və forma ahəngdarlığına verməklə, oxucunu düşündürür. Bəli, Adil Cəmilin poeziyası düşündürücü poeziyadır. Ha-

mının gördüyü və bildiyi hadisələrə, məlum olaylara yaradıcı, novator sənətkar kimi yanaşan, poetik deyimlərlə mənalandıran şair fəlsəfi və bədii ümumiləşdirmələrə üstünlük verərək yeni fikir və ideya ortaya qoyur. Güclü poetik detallardan, zərif və əlvan rənglərdən məharətlə istifadə edən şair şeirlərinin ilk misralarından açıq və səmimi danışır, obrazı da, ictimai-siyasi hadisəni də real və təbii canlandırır.

Özünə və yaradıcılığına qarşı son dərəcə tələbkar olan Adil Cəmil duymadığı, yaşamadığı, ictimai mənasını yaxşı dərk etmədiyi, ürəyində iz salmadığı hadisələri qələmə almır, özünü zorla, məcburən yazmağa vadar etmir. Bunu şeirlərindən, məqalələrindən, hekayələrindən də duymaq mümkündür. Hər misra, hər sətir ürəyindən bal kimi süzülüb gəlir. Şeirlərindəki ahəng və musiqilik, fikir və düşüncələr bir daha deməyə əsas verir ki, şair daxilən yaşamadığı mövzulardan söhbət açmır, ürəyinin sarı siminə toxunmayan mövzulardan yazmaq onun təbiətinə yaddır. İstər vətəndən, təbiətdən, istərsə də sevgidən, məhəbbətdən yazsın, şair eyni fikri ikinci dəfə təkrarlamır.

Mövzularını həyatın müxtəlif sahələrindən alan, bədii yaradıcılığında hər hansı sədd və çərçivə tanımayan, özünə, orijinal yazı manerasına sadiq olan Adil Cəmilin yaradıcılığının ciddi maraq doğurmasının bir sirri də şairin gözəlliyə biganə qalmamasıdır. Lirik duyğularının əlvanlığı, şeirlərinin bədii təsiri, idraki-tərbiyəvi əhəmiyyəti və s. kimi məziyyətlər poeziyasevərləri daha çox cəlb edir, o, daha çox

oxunur, müxtəlif dillərə tərcümə olunur, bir çox ölkələrdə novator şair kimi tanınır və sevilir.

Çağdaş ədəbiyyatımızda öz müstəsna mövqeyi olan, klassik və dünya ədəbiyyatının ənənələrini dərindən mənimsəyən, mövzu ilə yaşamadan yazmayan Adil Cəmil müasir gerçəkliyi, gəncliyin duyğu və düşüncələrini, eləcə də sevginin bəşəriliyini, vətənin müqəddəsliyini elə canlı, elə gözəl təsvir edir ki, həyəcanlanmaya bilmirsən. Həm də heyrətlənirsən ki, poeziyadan, şeirdən heyrətamiz bir abidə ucaldan şair bu qüdrəti, bu gücü haradan almışdır? Amma heyrətlənməyə əsas yoxdur. Şairlik ona süddən, sümükdən keçib; şairlik ona ilahi bir pay kimi verilib.

Şeirlərinin konkretliyi və yığcamlığı ilə seçilən şairin ürəyi elə bil sinəsində yox, şeirlərində çırpınır. Şeirlərindəki güclü daxili ritm, ahəngdarlıq, rənglərin əlvanlığı, məna dərinliyi ürək çırpıntılarının səmimiliyindən xəbər verir. Real və canlı müşahidəni qələmə alan şair gözlərimiz önündə unudulması mümkün olmayan lövhələr canlandırmağı çox yaxşı bacarır.

Adil Cəmilin sənətkarlıq bacarığı onun bütün şeirlərində, poemalarında özünü büruzə verir. Şairin sənətkarlıq bacarığı həm də onunla ölçülür ki, o, hər şeirin məna tutumuna, rəng çalarlarına görə bədii vasitələrdən istifadə edir və həssas oxucu sözün daxili mənası ilə zahiri gözəlliyi arasındakı uyğunluğu dərhal görə bilir.

Onun bədii təsvir vasitələrinin rəngarəngliyi hər şeirində üzə çıxır, poetik lövhələrdən məharətlə istifadə etməsi diqqəti cəlb edir, həm də xəyalən şairin sənət-

karlıq dünyasına baş vurur, bu dünyanın «fəlsəfəsi» ilə tanış oluruq:

Bu zülmətdə,
zinirikdə
adam adamı tapmaz.
Bir çıraq gərəkdir-
Diogen çırağı.
Günün günorta çağı
əlində çıraq
Adamlar içində
insan axtaran
Diogen!

«Qış gecəsinin trilogiyası»

Və yaxud «Bölgü» şeirindən bu misralara diqqət yetirək:

Gözlərimin önündə
Ağac kökündən quruyur,
Dəniz dibindən quruyur,
Kasıb cibindən quruyur

Şairin sənətkarlığını üzə çıxaran bir sıra təsvir vasitələri özünün bütün çılpaqlığı ilə görünməkdədir.

...Gərək küçələri qurutmaq üçün
Şəhəri günəşin telindən asaq.

«Ağ yağış»

...Ev gülü beləcə çəkər dərdini;
Açar sevincini gah qönçə-qönçə,
Gah da yarpaq-yarpaq tökər dərdini.

«Ev gülləri»

Bal damar çökənin yarpaqlarından,
Nərgiz sırğa taxar qulaqlarından.

«Misram daşdan su içə»

...Dağdan bir atlı gəldi-
Qayalar qorxudan paralandılar,
Zirvələr yol verib aralandılar,
Dağları yuxudan oyatdı gəldi.

«Dağdan bir atlı gəldi»

Vətən, təbiət mövzusunda yazılan şeirlər öz dərin lirizmi, yüksək vətəndaşlıq pafosu ilə onun yaradıcılığında mühüm yerlərdən birini tutur. Onun təbiət peyzajları bizi həyəcanlandırır, bizi canlı təbiətə qovuşdurur.

Qovuşduğum bu yaşıllıq
Kəndimizin meşəsidir.
Qayaları oyub çıxan
Palıdların rişəsidir.

...Gədikləri daşdan aşmaq,
Zirvələri başdan aşmaq,

Bu dağlarda başqalaşmaq
Dağ oğlunun peşəsidir.

«Dağ havalı düşüncələr»

Bu misralardan da aydın olur ki, təbiət onun fikir və hisslərindən, əhval-ruhiyyəsindən ayrı deyildir. Doğma vətən duyğuları, təbiət duyğuları şairin yaradıcılığında diqqəti çəkən cəhətlərdən biridir. «Kişmiş armud, kişmiş bulaq», « Baharda», «Çiçəklər üşüyür» və s. kimi sənətkarlıqla yazılan şeirlər buna ən yaxşı sübutdur.

...Adil Cəmilin təzadlardan, bənzətmələrdən, bədii təsvir vasitələrindən ustalıqla istifadə etməsi onun yaradıcılığına mənsub olan gözəl xüsusiyyətdir. Bu xüsusiyyətlər şeirin məna yükünü daha da zənginləşdirir, dilin oynaq və ahəngdar olmasına xidmət edir.

Poetik sözün əsl məna dəyərini üzə çıxarmaq üçün, epitetlərdən yerli-yerində istifadə edən şair şeirlərinə yeni rəng gətirir, gözəllik gətirir, necə deyərlər, sözün əsl mənəvi əhəmiyyətini açıb göstərir ki, bu da oxucunu özünə cəlb etməyə bilmir.

Onun poeziyasında təbiətin, yaxud hər hansı bir əşyanın insaniləşdirilməsi, danışdırılması əsərin məna dəyərinin daha da qüvvətlənməsinə, zənginləşməsinə gətirib çıxardır. Bu yaradıcılıq xüsusiyyətlərini, priyomları şairin metaforalardan (istiarələrdən) istifadəsi zamanı öz təsdiqini bir daha tapır.

Adilin könül dünyasından gələn bədii fikirlərin poetik qüdrətinə heyrətlənməmək olmur. Şairin yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən amillərdən

biri də fikrin mübaliğələrlə poetik ifadə edilməsidir, bədii təsvir vasitələrinin oxucuda heyrət doğurması, onun iç dünyasını yaxşı mənada «silkələməsidir». Bədii dilin zənginliyindən, rəngarəng təsvirlərin ifadə vasitələrindən istifadə edən, şeirin harmoniyasını, emosionallığını gücləndirən, sözün semantik qüdrətinə xidmət etməklə sözdə məna dərinliyi yaradan şair şeirlərinin təsir gücünü daha da artırmağa çalışır. O, həm də poetik vasitələrin daha romantik və canlı çıxması üçün istedadının gücündən məharətlə istifadə edir.

Adil Cəmilin yaradıcılığına üstünlük və gözəllik verən daha bir cəhət onun yazdığı mövzuların mahiyyətini dərindən bilməsi, nədən və necə yazmaq olduğunu dərk etməsidir. Bir çox əsərlərində qaldırdığı problemlərin səbəbini araşdıran və hiss edən şair milli ağrılarımızı dərin təəssüf hissilə qələmə alır:

Dərd-bəla görəndə ürək aşınır,
Qan - qada görəndə günəş yaşınır.
Cənubdan şimala meyvə-tərəvəz,
Şimaldan Cənuba meyid daşınır.

«Dördlüklər»

Adil Cəmil yaradıcılığında mənəvi, əxlaqi dəyərlər geniş yer tutur. Gənclərin dünyagörüşünün formalaşmasında, bədii-estetik idealının müəyyənləşməsində onun şeirlərinin əhəmiyyəti daha böyükdür. Məhz ona görə də bu mövzuda yazılan əsərlər istər oxucular, istərsə də ədəbi ictimaiyyət tərəfindən həmişə

yüksək qiymətləndirilmişdir.

Onun poeziyası insanı daha çox düşündürən mövzulardan, problemlərdən «danışır», eləcə də insan və zaman haqqında fəlsəfi ümumiləşdirmələri əks etdirir. Düşündürücülük keyfiyyətlərilə diqqəti daha çox cəlb edən şeirlərin özündən də görünür ki, şair cəmiyyətdə və dünyada baş verən ictimai əhəmiyyətli hadisələri poeziya üçün mövzuya çevirməyi ustalıqla bacarır. O, müasir məzmunlu poetik nümunələri şeirə gətirməklə təkcə vətənin deyil, həm də dünyanın taleyi üçün narahatlıq hissləri keçirdiyini ifadə edir.

Adil Cəmilin poetik fəaliyyəti ötən əsrin 90-cı illərində özünü daha parlaq şəkildə göstərməyə başladı. Şairin poetik axtarışlarında milli kökə, milli mənşəyə qayıdış, milli vətənpərvərlik ruhu, azadlıq və müstəqillik istəyi önəmli yer tuturdu. Onun poetik kredosuna çevrilən bu mövzulu əsərlər milli müstəqillik uğrunda qələmilə döyüşən bir sənətkarın vətənpərvərliklə milliliyin vəhdətindən yoğrulmuş yaradıcılığından xəbər verirdi. Yazdığı əsərlərlə şair vətəndaşlığını, vətənpərvərliyini bir daha təsdiq edən Adil Cəmili həmişə xalqın milli mənafeyi, müstəqilliyi düşündürmüş və bir şair kimi bütün istedadını bu istiqamətə yönəldərək dəyərli əsərlər yazmışdır.

Azadlıq! Mən səni başımın üstə
Günəşə çevrilib güləndə gördüm.
Azadlıq! Mən səni şirin yuxuma
Dəvətsiz qonaq tək gələndə gördüm.

Azadlıq! Mən səni öz torpağımda
Özümü məhbəsdə biləndə gördüm.
Azadlıq! Mən səni göz yaşlarımı
İşıqlı güllələr siləndə gördüm.

Bu misralar «Qan borcu» poemasındandır. «Qanlı Yanvarın azadlığa aparan mürəkkəb tarixi-fəlsəfi mahiyyətini, emosional-mənəvi paradokslarını açıb göstərən bu misralar (və ümumiyyətlə poema) yalnız vətənpərvər şairin poetik reflekslərini ifadə etmirdi, həm də (və daha çox) aydın milli-etnoqrafik mövqe nümayiş etdirirdi» (N. Cəfərov).

Akademik Nizami Cəfərov onu da qeyd edir ki, keçən əsrin 70-ci illərində heç bir süni hay-küy qoparmadan, özünü modernist və ya novatorçu göstərmək üçün müxtəlif «izm»lərə qoşulmadan, bununla belə poetik istedadının təbiiliyinə, halallığına heç kəsdə şübhə yeri qoymadan gəldi. Və elə ilk təcrübələrindən görünürdü ki, Adil ürəyindəki odu, alovu (və işığı) öz taleyindən, doğulduğu mənəvi dünyanın tərcümeyi-halından alıb

Xalq poeziyası, epos təfəkkürü, türk dastançılıq ənənələri həmin poeziyanın, təfəkkürün və ənənələrin beşiklərindən biri olan Kəlbəcərdə doğulmuş kənd uşağı hansı mövzuda yazırdısa yazsın özünü sıxmır, hisslərini cilovlamır, könlünü bütün genişliyi, miqyası ilə açır, nə deyirdisə, sinə dolusu, mütəvaze bir cəsarətlə, mərd-mərdanə, heç bir tərəddüdsüz, inamla deyirdi».

Mən səni sevirdim bu dünya qədər,
Körpə varlığıma od ələyirdin.
Əriyib gedirdi gündüzüm hədər,
Gecələr gözümdə gecələyirdin.

Akademik Nizami Cəfərovun dediyi kimi, Adil Cəmil keçən əsrin 70-ci illərindən həm Azərbaycan poeziyasının tarixinə daxil olub, həm də bu günə kimi öz poetik nəfəsini qoruyub saxlaya bilib. Və «Adil yalnız gənclik şeirlərində səmimi olaraq qalmadı, həmin səmimiliyi, ürək açıqlığını bir uşaq sadəlövhlüyü, təmizliyi ilə yaradıcılığı boyu qoruyub saxlamağı bacardığına görə çox keçmədi ki, kifayət qədər böyük (və halal) ədəbi nüfuz qazandı» (N. Cəfərov). - Adil Cəmil həm də bir şair-vətəndaş olaraq həmişə ucalıqda dayanmağı bacardı. Ucalıqdan enmədi. Ucalıqdan enən deyil. Çünki onun yeri ucalıqdadır. Və mən şairi həmişə ucalıqda görmüşəm. Fikrimin təsdiqi kimi şairin yazmış olduğu bu misraları yada salmaq istəyirəm:

..Durna qatarında heca görmüşəm,
Közərən şeirdir Günəş də, Ay da.
Mən səni həmişə uca görmüşəm
Nizami, Füzuli zirvəsi boyda.

Bir oxucu kimi mən həmişə Adili sözün üstündə yaz qarı kimi əriyərək şeiri söz libası ilə bəzədiyini gördüm və heyrətləndim.

...Büdrəmək bilməzdik dumanda, sisdə,
Quş kimi qonardıq dağın döşünə.

Yuxuya gedərdik göy otlar üstdə-
Döşəyə dönərdi yaşıl döşəmə

Helləyib dərəyə yıxardıq bəzən
Çobanın o qaya «gündəliyini».
Elə alaçıqdan yığardıq bəzən
Cincilim, qırxbuğum kətəliyini.

Vaxtsız «biçilərdi» biçənək yeri -
Qoyunlar qoruqda ot tıxardılar.
Biçməyə qoymayıb bir çərək yeri
Körpə quzular da otuxardılar

Haçan ki, gün batıb, şər qarışardı
İnəyin, buzovun mələrtisindən
Qoyunun, quzunun mələrtisindən
Elə bil göy ilə yer qarışardı

«Yaylaq xatirəsi»

Bu misralara necə heyrətlənməyə bilərsən? Bu misralara necə səcdə etməyə bilərsən? Bu misralardan yovşan ətri, nanə ətri, dağ çiçəklərinin ətri gəlir bu misralar şəhərdə qocalan «kənd uşaqları»nı öz «qanadları» üstündə ötən illərə qaytarır və kövrəlirsən.

Adil Cəmilin sözlərində kədərin, qəmin, dərdin ətrini, qoxusunu duydum, şair ürəyinin sevincini hiss elədim, sözün nə qədər böyük və ilahi bir funksiyanı yerinə yetirdiyini gördüm, bir romanlıq fikri bir neçə misraya yüklədiyini gördüm. Misralarının poetik çə-

kisi, təbii köklənməsi, fikir və məna tutumu, axıcılığ məni heyran elədi. Onun sözlərində hətta ifa olunmamış musiqini eşitdim və bu qənaətə gəldim ki, sözün təsvir edə bilmədiyi heç nə yoxdur. Axı sözün çəkisi var, rəngi var, ruhu var, nəfəsi var. Sözün nəyi yoxdu ki? Gərək sözü Adil Cəmil kimi duya biləsən və sözdə gizlənmiş mənanı, fikri tapmağı bacarasan. Onun şeirləri ilə daha yaxından tanış olandan sonra düşündüm ki, «könüllər fatehi»nin - Adil Cəmilin sözünün işığında ziyarətə getmək olar. Və mən onun söz sarayına ziyarət elədim və bu ziyarət zamanı özözümə pıçıldadım ki, onun poeziyası illər keçsə də heç vaxt əlvanlığını, gözəlliyini itirməyən gülüstana bənzəyəcək. Bu gülüstanda hər şeirin öz rəngini, öz ətrini, öz poetik tutumunu görəcəklər Həm də görəcəklər ki, Azərbaycan xalqının mənəvi sərvətinə çevrilən bu şeirlər min beş yüz illik poeziyamızın parlaq səhifələrindən birini təşkil edir.

VƏTƏN DUYĞULU, TƏBİƏT ƏTİRLİ ŞEİRLƏR

Azərbaycan poeziyasında Vətən və vətənpərvərlik mövzusunda, eləcə də təbiət haqqında çox şeirlər yazılıb və bu gün də yazılmaqdadır. Çünki poeziyamızda ən əsas mövzulardan biri olan vətənpərvərlik duyğusu insanın ən müqəddəs, ən doğma duyğularından biridir.

Yüksək vətənpərvərlik ruhunda şeirlər yazan Adil Cəmilin lirik qəhrəmanı üçün Vətən anlayışı çox geniş və əhatəlidir.

Şair üçün Vətən öncə anadır, şərəfli tarixdir, təbiətdir, təbiətin gözəllikləridir, yurd yeridir Bədii təsvir vasitələrilə, poetik deyimlərlə Vətən obrazını yüksək sənətkarlıqla yaradan, Azərbaycanın hər qarışına, hər qara daşına, quru yarpağına məhəbbətini ifadə edən şairin «Azərbaycan» adlı şeirindəki aşağıdakı misralar vətənə məhəbbətin ən parlaq ifadəsi deyilmi:

...Sən mənim gözümdə uludan ulu,
Mən səni od-alov yaşıdı billəm.
Dəysəm bir daşına gözüyumulu
Doğma diyarımın daşıdı, billəm

İnamla demək olar ki, Adil Cəmilin vətənlə bağlı poetik düşüncələri olduqca maraqlıdır, orijinaldır. Onun Vətən anlayışı təkcə Azərbaycanla məhdudlaşmır, o, həm də vətənin qıraqda qalan yurd yerlərini -

Dərbəndi, Borçalını, İrəvanı, Zəngəzuru düşünür, Azərbaycanın bütövlüyü və birliyi ilə bağlı fikir və düşüncələrini qələmə alır ki, bu da onun yüksək vətənpərvərlik mövqeyindən irəli gəlir.

Adilin vətənpərvərlik ruhunda yazdığı şeirlər ideya-məzmun və sənətkarlıq cəhətdən qüvvətli olması ilə seçilir. İkiyə parçalanmış bir vətənin, vətəndən qıraqda qalan yurd yerlərinin ağrı-acısı, həsrəti onun şeirlərində güzgü kimi əks olunur.

Şairin Vətən haqqında onlarla şeiri var. Vətən mövzusunu yeni bir zirvəyə qaldıran şair vətənin öncə ata ocağından başladığını göstərir:

Uzanar, uzanar o dağ yolları,
Uzaqda açılan səhərə sarı.
Yuxuma dolanar ana qolları-
Kəndimiz boylanar şəhərə sarı.

«Bir parça kəndəm»

Və yaxud «Yaylaq xatirəsi» adlı şeirdən bu misralara diqqət yetirək:

Büdrəmək bilməzdik dumanda, sisdə,
Quş kimi qonardıq dağın döşünə.
Yuxuya gedərdik göy otlar üstdə-
Döşəyə dönərdi yaşıl döşəmə...

Şair bu şeirdə ata yurdunu tərifləmir, vəsf eləmir, əksinə, ata yurdunu tərk edən şairin ürəyinin bir parçasının orada qaldığını görürük. Şairin lirik qəhrəmanı doğma kənd üçün darıxır, o, şəhərdən kəndə,

kənd də onun arxasınca şəhərə sarı «boylanır». Kəndlə lirik qəhrəman arasında olan bu ruhi doğmalıq sənətkarlıqla verilib.

Şairin bir sıra şeirlərində kənd mövzusu konkret detallarla göstərilib. Lirik qəhrəmanın kəndə getməsi, eləcə də tez-tez kəndi xatırlaması, kənd həsrətilə yaşaması onun kəndə, ata yurduna hörmət və ehtiramının ifadəsidir.

Kənd bir cazibə qüvvəsi kimi onu çəkir və şairin mənəvi iztirabları aşkar hiss edilir. Şəhərlə kənd arasında qalan lirik qəhrəmanın mənəvi, ruhi sıxıntısı kəndə gedəndə duman kimi çəkilib yox olur.

Şairin «Çoban, məni tanıdınmı?» adlı şeirindən bu misralara diqqət yetirək:

Bu dağların oğluyam mən,
Çoban, məni tanıdınmı?
Vallah əminoğluyam mən,
Çoban, məni tanıdınmı?

Gədikləri gəzişərdik,
Buz bulaqdan «buz» içərdik.
Şehdə, suda büzüşərdik,
Çoban, məni tanıdınmı?

Aradan illər keçib. Lirik qəhrəmanın saçına dən düşüb. O, kəndə gəlib. Çox şey dəyişib. Lirik qəhrəman ötən günləri xatırlayır. Kövrəlir. Bir vaxtlar yapıncıya bürünəndə də birgünlükdən tanındığı halda çoban indi onu tanımır. Çobana üz tutaraq «ötən günə qaytar məni», - deyən lirik qəhrəmanın «yurdun

ahı tutar məni» deməsi düşündürücüdür. Şair yurd yerini unutmamağı, torpağa, vətənə bağlı olmağı kövrək hisslərlə qələmə alaraq ürəyimizdə yurd sevgisini daha da alovlandırır.

Və yaxud bu misraları oxuyaq:

Evin kiçik oğlu-qardaşım İlham,
Nə vaxtdır şəhərə uyub gəlmişik.
Ata ocağını, ana yurdunu
Sənin umuduna qoyub gəlmişik.

«Evin kiçik oğlu»

Şəhərdə yaşasa da şair kənd üçün darıxır. Ürəyi ata ocağında qalıb. Ata ocağı üçün narahatlıq hissləri keçirir. Qardaşı İlhama ünvanladığı şeirdə bu narahatçılıq açıq-aydın hiss olunur. Elə bu narahatçılığın özü də yurd yerinə, ata ocağına məhəbbətdən irəli gəlmirmi?

Şairin vətənpərvərlik ruhunda yazdığı şeirlərdə daha çox dərdin, kədərin rəngini görürük, ayrılığın, həsrətin qoxusunu hiss edirik. Onun poetik dünyasında Araz dərdi var, Araz bəlası var, Qarabağ ağrısı var. Çəkiləsi mümkün olmayan bu dərdləri, ağrıları poetik obrazlarla şeirə gətirən Adil Cəmilin vətəni qanıyla, canıyla sevdiyinə bir daha şahidlik edirik.

...Cadarlı çöllərə su əvəzinə
Tikanlı məftildən sərhəd çəkiblər.

«Dünyanın xəritəsi»

Sənsiz olsam - bədənim yox,
Sənsiz ölsəm-kəfənim yox
Məni səntək sevənim yox-
Anam, bacım, yarım vətən

«Vətən»

Qaradağ, Qarabağ - qədim mahalım,
Al sınıq könlümü, qoyma yuxalım.
Yetər Savalana, yetər bu halım-
Yurdumun niskilli Kəpəziyəm mən.

«Könlümün sevinci, qəmi bu torpaq»

Ötən əsrin 90-cı illərinin hadisələri də Adil Cəmil poeziyasından yan keçməyib. Bir anlığa ötən illərə qayıdaq: - Azərbaycanın başı üstünü qara buludlar bürüyüb. Düşmən məlumdur. «Arxalı köpək qurd basar», - deyiblər. Moskvaya «söykənən» ermənilər qorxunc olduğu qədər də qorxaq və riyakardır. Xalqın başının üstünü alan təhlükə, hakimiyyət davası, köç-künlərin faciəsi, Kəlbəcərin əldən getməsi, daha sonra Qarabağın işğalı... Həmin o illərdə Adil Cəmil də müsəlləh əsgər oldu. Qələmilə döyüşə-döyüşə Vətənin harayından, yaralı torpaqların iniltisindən yazmağa başladı. Yaza-yaza Azərbaycanı ayağa qal-dırmağa, xalqın mənəvi ruhunu oyandırmağa çalışdı.

Bəli, o illərdə Təbriz dərdinin üstünə əlavə bir dərd də gəldi. Bu dərd Qarabağ dərdidir. Bu dərd Vətən dərdidir. Bu dərd dərdlərin ən ağırıdır.

O ağrılı-acılı illərdə Vətən dərdi, Qarabağ həsrəti, talan olan yurd yerləri şairin yaradıcılığında mühüm

yerlərdən birini tutmağa başladı. Şairin qələmi süngüyə döndü, sözlə vətənin ağrılarına məlhəm qoydu, bir vətəndaş kimi vətənin yad daşı yox, qara daşı oldu. Bu dünyanın «qara daşı göyərməsə də» o, vətənin «qara daşı» olaraq göyərdi, tumurcuqladı, çiçək açdı, sözüylə, qələmiylə vətənə arxa oldu. Vətən də onun kimi ziyalı oğullarına daha çox arxalandı.

Adil Cəmil vətənsiz bir gün də yaşaya bilməz. Vətən onun damarlarında axan qandır O, vətənə xidməti Allaha xidmətə bərabər tutur.

Şairin sevgi şeirlərində də vətənpərvərlik ruhu var. Vətənpərvərlik o demək deyil ki, şeirlərində Azərbaycanın adını çəkəsən, Xəzəri, Göygölü tərif eləyəsən, yer adlarını şeirə gətirmədən də vətənpərvərlik ruhunda şeir yazmaq mümkündür. Bir daha deyirəm ki, Azərbaycanın adının çəkilməsi mütləq deyildir. Fikrimin təsdiqi kimi bu şeiri nəzərinizə çatdırıram:

...Yad eldə səadət gəzənlərimiz
Niyə ətəyindən bu daşı tökmür?
Qürbət qəriblərə ögey anadır,
Ölsən ölümünə göz yaşı tökmür.

Aldadıb, bal dadıb çəkəndə yad el
Yurdunda öz behin, bazarın ola.
Qürbətdə qızıldan qəsrin olunca
Vətəndə torpaqdan məzarın ola.

«Qürbət qiyaməti»

Atalar da yaxşı deyib: Gəzməyə qürbət ölkə, ölməyə Vətən yaxşı». Bəli, qürbət ögey anadır; dərdini bilməz, halına yanmaz. Xoşbəxtlik də, səadət də ancaq vətəndədir. Vətən anadır, ana qədər doğmadır, əzizdir, müqəddəsdir Müqəddəs yer olduğu üçün də qürbətin qızıl qəsrindən vətənin bir ovuc torpağı qiymətlidir.

Bu şeirdə Azərbaycanın adı, heç şairin dünyaya göz açdığı Kəlbəcər elinin Kilsəli (Günəşli) kəndinin də adı çəkilmir, amma buna baxmayaraq şeir vətənpərvərlik ruhu ilə yoğrulub.

O yol da, o çay da yaxındır, nə qəm-
Axşam də mənimdir, səhər də mənim.
O kənddən ayrılan bir parça kəndəm-
Ömrümün davamı şəhərdə mənim

«Bir parça kəndəm»

Yaxud bu misralara diqqət yetirək:

Ulduz yağar gecəsinə,
Layla axar küçəsinə
Bir beşikdir neçəsinə
Ata-baba rəddim mənim-
Kəndim mənim.

«Kəndim mənim»

Şairin Vətən duyğusu ilə köklənən şeirlərini oxuduqca təbii olaraq düşünürsən ki, görəsən, şeirdə bu

boyda Vətən sevgisi, Vətən məhəbbəti hardandır? Görəsən, vətəni bu qədər də dəlicəsinə sevmək olarmı? Bu sualların cavabını şairin ata ocağında, ana məhəbbətində axtarmaq lazımdır. Şairlik də, vətənpərvərlik də südlə-sümüklə gəlir.

...Zirvəsən, dərəsən, çaysan, dənizsən,
Genişsən sahilsiz düzlərin kimi.
Sən necə büllursan, necə təmizsən
Sevdiyim gözəlin gözləri kimi.

Hər kəsi qəlbində bir övlad bilib
Hamıya bir gözlə baxmısan, Vətən.
Anamın müqəddəs südüylə gəlib
Qəlbimə, qanıma axmısan, Vətən!

«Vətən»

Adil Cəmilin vətənə məhəbbəti anaya olan məhəbbətdən başlayıb. Şairin anasına ünvanlanan şeirlər, elə vətənə yazılan şeirlərdir. Vətənə yazılan şeirlər isə anaya yazılan şeirlərdir. Bu, belədir. Hər halda mən belə düşünürəm.

Ana üçün darıxmaq, əslində ata ocağı üçün darıxmaq deməkdir. Ata ocağı vətənin bir parçasıdır.

Ocağını kim qalayır ay ana,
Odununu kim gətirir, ay ata.
Qismət atıb hərəmizi bir yana,
Həyata bax, həyata bax, həyata.

...Gül ətrinə, el xətrinə gələrəm,

Dağ kəndimiz dağ döşündə bir ada.
Atam-anam, bağlanıbsa bənd-bərəm
Həyata bax, həyata bax, həyata

«Həyata bax, həyata»

Yaxud:

Mənsiz o yerlərə gəlibdir bahar,
Tərtər məcrasına sığırmı, ana?
O saçaqlı buz, o gümüşü qar
Əriyib çöllərə axırmı, ana?

«Anama bahar gileyli məktub»

Şairin öz həzinliyi ilə yaddaşa köçən şeirlərini həyəcansız oxumaq mümkün deyil. Vətənpərvərlik ruhunda yazılan şeirlər, həm də gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə edən şeirlərdir. Bu şeirləri oxuduqca düşünürsən ki, nə yaxşı Azərbaycanın Adil Cəmili adlı bir şair də var. Balıq susuz yaşaya bilmədiyi kimi, şair də vətənsiz yaşaya bilməz. Onun ilham mənbəyi vətəndir. O, vətənlə ağlayıb, vətənlə gülür. O, vətənlə ağlayıb, vətənlə gülməsəydi, vətənpərvərlik ruhunda şeirlər də yaza bilməzdi.

Şair də əsgərdir. Silahı qələmidir. Azərbaycan əsgəri bu gün vətənin keşiyində ayıq-sayıq dayandığı kimi, Adil Cəmil də bir şair olaraq sözün keşiyində müsəlləh əsgər kimi dayanıb.

Buludlu göyümdə aya çevrilib
Qaranlıq gecəmə boylanmısan sən.

Havaya çevrilib, suya çevrilib
Ömrümə-günümə paylanmısan sən.

Köksündə kök atan bir ağacam mən,
Üzümə baxmasan quruya billəm.
Sən məni oğultək yetişdirmisən,
Mən səni Vətəntək qoruya biləm!..

«Azərbaycanım»

Şeirin poetik dinamizmini gücləndirən, bənzətmələrdən yerində istifadə edən, orijinal sənətkarlıq məharəti nümayiş etdirən bu şeirində onun vətənə olan tükənməz məhəbbəti ifadə olunmaqla yanaşı, həm də vətənlə həmsöhbət olması diqqətdən yayınmır. Şair vətənlə bir övlad kimi söhbətləşir və bu söhbətdən aydın olur ki, şairin lirik qəhrəmanını vətən oğul kimi yetişdirib, onu qoruyub, onun üçün hava olub, su olub, məhz bunun müqabilində o da vətənə oğulluq borcunu ödəmək istəyir. Ödəyə bilərmi? Vətən onu qoruduğu kimi, o da vətəni qorumaq arzusu ilə yaşayır.

Şeirdə verilmiş ifadələr dəqiqdir, ahəngdar və poetikdir. Həm də buna görə oxucu ilə şair arasında ünsiyyət yaranır, şeirləri ürəyəyatımlı olur.

Adil Cəmil poeziyasının döyüşkən ruhu onun vətənpərvərlik mövzusunda yazdığı şeirlərdə daha çox hiss edilməkdədir. Bu, təbiidir. Axı torpaq barından, insan arından tanındığı kimi, mübariz şair də döyüşkən ruhundan tanınar.

O, xalqa, vətənə, zamana xidmət edən şeirlərilə

bir daha açıb göstərdi ki, şair öz vəzifəsini, məsuliyyətini əlinə qələm almazdan öncə düşünüb və qələmilə xalqa, vətənə xidmət etmək missiyasını öhdəsinə götürüb və bu işi şərəflə, vicdanla yerinə yetirir.

Dünya şöhrətli yazıçı Uilyam Folknerin dediyi kimi, «Yazıçının vəzifəsi insan qəlbini möhkəmləndirmək, bəşəriyyətin əbədi şöhrətini təşkil edən kişilik, şərəf, ümid, qürur, fədakarlıq kimi keyfiyyətləri insana xatırlatmaqla ona hər işdə axıracan dözə, duruş gətirə bilməkdə kömək etməkdir. Şairin səsi, sadəcə əks-səda olaraq qalmamalı, insana axıracan dözməkdə və zəfər çalmaqda kömək etməlidir». Həqiqətən də Adil Cəmil bir şair kimi insanlara, insanlığa xidmət edir, öz şeirlərilə ürəklərdə sönməkdə olan sonuncu ümidi alovlandırır, insanları xoşbəxt gələcəyə səsləyir, yeni-yeni uğurlar, nailiyyətlər qazanmağa, zəfər çalmağa ruhlandırır. Qarabağ dərdlərinin keçici olduğunu bildirir, qarabağlıların da, kəlbəcərlilərin də bir gün öz yurd yerlərinə qayıdacaqlarına özünə və sözünə inandığı kimi inanır.

Oxucunu yurd uğrunda səfərbər edir, milli yaddaşı köməyə çağırır:

Kəlbəcər deməkdən dilimiz qabar,
Nəyi dəyişir ki, bu qəm, bu qübar?
Yolumu gözləyən bir səltənət var-
Yurda qayıtmağa, yaddaşım, qayıt.

«Qayıt»

Döyüş gərək, ağlamağın yeri yox-
Dərd əlindən, vallah, dilə gəlmişəm.

«Gəlmişəm»

Bu misralarda bir hayqırtı var. Türk atlarının kişnərtisi, qılıncların toqquşması var. Bu kişnərtini eşitməmək mümkün deyil.

Bu misralarda artıq rəng və boyalara rast gəlmək mümkün deyil. O, hər bir şeirində yeni poetik ifadələr işlədir, dəfələrlə qələmə alınmış mövzulardan yazanda da öz orijinallığı, deyim tərzi , obrazlı ifadələrilə seçilir və qələmə alınan mövzulara çox həssaslıqla yanaşır, fikirlərin, rənglərin təzəliyinə xüsusi fikir verir.

...Qışda torpağına qarışdır məni,
Baharda göyərib çıxım, ey Vətən

«Vətən»

...Bulud məni yağışına çağırır,
Zirvə məni yoxuşuna çağırır.

«Dağlara qayıtmışam»

Buzla ütülənib burda çöl, bayır-
Tərtər qına girmiş qılınc kimidir.

...Qayalar Şəmşirin qıfılbəndidir-
Sirrini açmağa oğul gəzirəm.

«Dəlidağda qış görmüşəm»

Müxtəlif şeirlərdən misal gətirdiyimiz bu misralar da spesifik xüsusiyyətlərinə görə diqqətəlayiqdir. Obrazlı ifadələr, misralardakı səmimilik şeirin bədii uğurunu şərtləndirməklə yanaşı, həm də təbiəti poetikləşdirməkdə əhəmiyyətli rol oynayır. «Qayalar Şəmşirin qıfılbəndidir», - deyən şair əslində Qarabağ düyününə işarə edir.

Mövzularını həyatın tipik və səciyyəvi hadisələrindən alan, yaratdığı obrazların fikir və düşüncə aləmini, hiss və həyəcanlarını, duyğularını real boyalarla açan Adil Cəmil onların timsalında ictimai-siyasi hadisələrə öz münasibətini bildirir, fikrini oxucu ilə bölüşür, niyyət və əməlilə torpağa, vətənə, xalqa bağlılığını açıb göstərir.

Təbiət, Vətən və sevgi şeirlərində də belədir; bu şeirlərdə də ürəkdən gəlməyən ifadə, söz, poetik fikir yoxdur. Məhz ona görə də şeirləri yaddaqalan və inandırıcıdır.

Bir ovuc torpağın olsam ölmərəm,
Qəriblər pay umar səadətimdən.
Sonun harda bitir deyə bilmərəm,
Əvvəlin başlayır məhəbbətimdən.

«Vətən»

Yaxud:

...Yaraladı yad qılıncı-
Qəfil oldun xıncım-xıncım.
Sönər bir gün bu qığılcım,
Ağlama, ana torpağım.

...Sən bilirsən - mayam səndən,
Rəngim səndən, boyam səndən.
Səngərimsən - qayam səndən,
Ağlama, ana torpağım.

«Ağlama, ana torpağım»

Şairin lirik qəhrəmanı torpaqla «danışır», sanki işğal olunmuş torpaqların yarasına sözlə məlhəm qoymaq istəyir. Göz yaşlaprını ürəyinə axıdan şairin «ağlama, ana torpağım» deməsi onun torpağa bağlılığından, Dədə Qorqud müdrikliyindən, yurda sədaqətindən xəbər verir. Həm də o, «ağlama, ana torpağım» deməklə göz yaşlarımızın tezliklə quruyacağına, yurd yerlərimizin işğaldan azad ediləcəyinə işarə edir.

Vətənə, təbiətə bağlılıq və vurğunluqdan doğan bu şeirdən hiss olunur ki, Adil Cəmil bir şair kimi, ancaq özünə və istedadına arxalanır, onun ürəyi həm də müasir həyatla döyünür, insanı narahat edən problemləri, onların arzu və düşüncələrini də qələmə alır, necə deyərlər, xalqın ürəyindən keçənləri duyur və duyduqlarını nəzmə çəkir.

Adilin şeirlərində kökə bağlılıq, yurda bağlılıq daha güclüdür. Ata ocağını bir an da unutmayan, yurd yerinə olan sevgisi ildən-ilə daha güclənən şair atasına yazırdı:

Yazıram gülündən, bənövşəsindən,

Yaşıl yamacından, göy meşəsindən.
Ayrılıb şəhərin bu gur səsindən
Görəsən çatırmı səsim dağlara?

Yaxud bu misralara diqqət yetirək:

Boy atdım Tərtərin doğma səsində,
Quş oldum dağların göy zirvəsində.
Harda vətən seçsə, son nəfəsində
Adilin qibləsi Kəlbəcərdədir.

«Kəlbəcərdədir»

Adilin bu qəbilli şeirlərində ifadə tərzindəki çalar zənginliyii, fikir və məna dərinliyi oxucunu uzun müddət poetik təsir altında saxlaya bilir.

Məzmunlu və düşündürücü şeirlər yazan Adil Cəmil həm də gözlərimiz önündə bütöv bir mənzərə canlandıra bilir. Fikrimizin təsdiqi kimi bu şeirə müraciət edək və bu şeirdə kənd uşaqları ilə birlikdə kənd mənzərəsi də diqqəti cəlb edir.

Buz bulaqdan su gətirir qız-gəlin,
Sənəklərdə su yerinə buz gəlir
Xəyalımda bu yerlərə yaz gəlir-
Kotan əkir, xış özünü göstərir

«Özünü göstərir»

Bu misralarda gözlərimiz önündə dağ kəndi canlanır. Qız-gəlinlər səhənglə bulaqdan su gətirir. Bu-

laqdan su gətirən qızlara həsrətlə baxan subay oğlanlar yada düşür.

Həm də kəndə yazın gəlişini düşünürsən. Torpaq oyanır. Hər yanda iş bulaq kimi qaynayır

Bir sözlə, şair bir neçə misrada bir gözəl təbiət mənzərəsi canlandıra bilir ki, bu da onun tablolar ustası olduğunun göstəricisidir.

***

Axıcılıq, rəvanlıq, ahəngdarlıq, səmimilik Adil Cəmil yaradıcılığının məziyyətidir. Hər şeirində yeni formalar işlədən şairin şeirləri də özü kimi sadə, səmimi və kövrəkdir.

Adil Cəmil duymadan, təsirlənmədən, gerçəkliyi hərtərəfli yaşamadan yazı masasının arxasında oturmur. Bədii sözə laqeyd münasibət bəsləməyən, sözdən sərrast istifadə edən, dərin müşahidə bacarığına malik olan, adi daşı belə mənalandıran, onun mahiyyətini poetik sözlə ifadə edən şair söz üstündə «gilə-gilə» əriyərək sanballı əsərlər ortaya qoyur. Onun yaradıcılığında məzmunsuz, rəngsiz, boyasız şeirlərə rast gəlmək çox çətindir, olsa da dəryadan bir damla qədərindədir.

Şairin vətən sevgisi Araz çayını keçib Cənubi Azərbaycanı da əhatə eləyir. Bu sevgi Dərbənddə, Borçalıda da özünü hiss etdirir.

...Bu dünyanın hər yolu var,
Araz yolu, Kür yolu var.
Bir olmağın bir yolu var-
Gəlin tapaq həmin yolu

«Dədə-baba yolu»

Yaxud:

...Gözlərim yol çəkir qulağım səsdə,
Hər gün yol gedirəm düz Təbrizəcən.
Uçmaq çətin imiş bir qanad üstə,
Yollar uzun imiş bizdən bizəcən!..

«Gözlərim yol çəkir»

Şair haqlıdır. Quş bir qanadı üstə uça bilməz. İkiyə bölünmüş Azərbaycan da qanadı qırılmış quşa bənzəyir. Ürək parçalayan dərddi. Bu dərdi şair Söhrab Tahir dərindən duyaraq yazırdı ki, «iki bölünməkdən elə qorxmuşam, çöpü də ikiyə bölmərəm daha».

Adil Cəmil də bütöv Azərbaycan həsrətini «yollar uzun imiş bizdən bizəcən» deməklə, həm də qəlbinin dərinliklərində Azərbaycanın nə vaxtsa birləşəcəyinə olan ümidini qoruyub saxlayır və inamla bildirir ki:

Marağa üzündən, Təbriz gözündən
Hələ öpməmişəm, öpəsiyəm mən.
Ayağım dəyməyən o torpaqları
Həsrətli gözümə təpəsiyəm mən.

«Könlümün sevinci, qəmi bu torpaq»

Adil Cəmilin Vətən sevgisi o qədər ülvi, o qədər təmiz və müqəddəsdir ki, sanki damarlarında qırmızı qan deyil, quştək çırpınan Araz çayı axır. Vətən sözünü qanı ilə üfüqlərə yazan şairin bu şeirini onun

əsərlərinin epiqrafı kimi də qəbul etmək olar. Bu şeirdə şair həm də xalqın ruhunu əks etdirir. Şeirdə ifadə olunan «Bir olmağın bir yolu var», eləcə də «Hər gün yol gedirəm düz Təbrizəcən» misralarında ikiyə bölünmüş Azərbaycanın bir gün birləşəcəyinə inam ifadə olunur.

Ata ocağına, doğma kəndə məhəbbət, oğul sevgisi onun şeirlərində qırmızı xətlə gəlib keçir.

Dağın döşündəki balaca kəndi
Dünyanın ən böyük kəndi bilmişəm.
Elsiz-obasızın mayası kəmdi,
El - oba nə imiş indi bilmişəm,
elimə qurban olum.

...Dağların qarı tək əriyər ahım,
Xalqımın qədrini bilərəmsə mən.
Bu yerlər ömürlük ziyarətgahım-
Belə bir obada ölərəmsə mən,
ölümə qurban olum!..

«Qurban olum»

Yaxud bu misraları oxuyaq:

Payızında meşələri
Ağac-ağac bar gətirən,
Baharında Dəlidağı
Çiçək-çiçək bal gətirən
Kəlbəcərim

«Kəlbəcərim»

Kəlbəcərin kəndlərini də, dağlarını da, necə deyərlər, Azərbaycanın bütöv kənd və dağlarını, meşələrini, bulaqlarını, çaylarını da şair eyni rəngdə görür, onları bir-birindən fərqləndirmir, hər şeyi bütöv şəkildə qəbul edir. Çünki Kəlbəcərin bir daşı da, Qazağın, Tovuzun, Şəmkirin, Lənkəranın bir quru çöpü də müqəddəsdir, çünki qara bir daş da, quru bir çöp də vətənin bir «parçasıdır».

Tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayevin 1979-cu ildə «Yazıçı» nəşriyyatı tərəfindən çap olunmuş «Poeziya və nəsr» kitabını vərəqləyirəm: «Müasir şeirdə vətən təbiətinin taleyi məsələsini bütünlükdə təbiətin fauna və florasının taleyi fonundan da ayrılıqda irəli sürmək olmaz. Təbiət şeirlərində nəinki belə vəziyyətə rast gəlirik, bəzən hətta daha qəribə «mikrobölgünün» şahidi oluruq. Belə şeirlərdə Vətən tərənnümü, Vətən coğrafiyasının sadalanmasından irəli getmir. Şeirdə «vətən məfhumunda» nə qədər ayrı-ayrı şəhər, kənd adları olar? Vətəni şəhərlərə, kəndlərə, obalara, məhəllələrə parçalayıb, hisslər şəklində tərənnüm etmək nə dərəcədə müasir səslənir?

Vətəni tərənnüm adı ilə yazılan, lakin predmeti belə məhdud olan şeirlər oxucunun da Vətən anlayışını məhdudlaşdıra bilər. Bədii-fəlsəfi yox, coğrafi idrak əhəmiyyəti daşıyan şeir kənar oxucuda heç bir maraq oyatmır, etnoqrafik maraqdan başqa. Biz Qarayazını (və ya Ceyrançölü, Kəpəzi, Qoşqarı) yalnız qarayazılılar üçün tərənnüm etmiriksə, Qarayazını mütləq ümumbəşəri bir bədii-əxlaqi sərvət və ümum-

bəşəri estetik gözəllik, meyar səviyyəsinə qaldırmalıyıq. Daha doğrusu, təbii Qarayazını poeziya Qarayazısına çevirməliyik! Əks təqdirdə, şair yeni estetik sərvət-poeziya sərvəti yaratmır, mövcud təbii-fitri sərvəti hazır, olduğu şəkildə təbiətdən poeziyaya köçürməklə məşğul olur». - Adil Cəmil bir şair kimi təbii Kəlbəcəri poeziya Kəlbəcərinə ustalıqla çevirir.

Dumanlı-çisəkli, güllü-çiçəkli,
Dəlidağ zirvəsi Kəlbəcərdədir.
Dağların loğmanı İstisuyun da
Şəfalı zərrəsi Kəlbəcərdədir.
Ceyrantək nazlanır «Ceyran bulağı»,
İçsən donduracaq dili-dodağı.
Yaman əziz olur dağlar qonağı-
Qardaşlıq süfrəsi Kəlbəcərdədir.

«Kəlbəcərdədir»

***

1988-ci ildən başlayaraq Vətən mövzusu, Vətən dərdi, torpaq dərdi, millət dərdi Adil Cəmil yaradıcılığında üstünlük təşkil etməyə başlayır və bu mövzu onun əsərlərinin ideya pafosunu təşkil edir. Bu günkü və gələcək nəsillərə ünvanlanan şeir və məqalələrdə o, erməni vəhşiliyini, erməni qəddarlığını, onların işğalçılıq niyyətlərini qabarıq şəkildə əks etdirməklə onların hər zaman türklərin qanına susadığını bir daha xatırladır. Və bir daha xatırladır ki, türkün türkdən başqa dostu yoxdur.

Bəli, erməni zülmləri, vəhşilikləri dünyanın heç bir yerində görünməyib, ancaq Qarabağda görünüb, Azərbaycanın ayrı-ayrı bölgələrində görünüb.

Erməni millətinin vəhşiliyi, azğınlığı, işğalçılıq siyasəti dünyada hamıya bəlli olsa da, dünya ictimaiyyəti susmağa üstünlük verirdi.

Başımıza gələn faciələrin bütöv mənzərəsini ustalıqla yaradan, bir rəssam kimi ağrılı-acılı illərin sözlə şəklini çəkən Adil Cəmil yaşadığımız dövrün problemlərini bədii boyalarla vətəndaşlıq və sənətkarlıq mövqeyindən çıxış edərək qələmə alır:

Qaçqın olduq - arzuları sovrulan-
Qış gəlməmiş qar içində qovrulan
Çadır sənin, çətən sənin deyilmi?
Vətən oğlu, vətən sənin deyilmi?

«Vətən oğlu, vətən sənin deyilmi?»

Bir milyondan çox soydaşımızın yurd həsrəti, şəhər və kəndlərimizin xarabazarlığa çevrilməsi şairi hər gün, hər an düşündürüdü. Ürəyini göynədən ağrıları şeirə çevirməklə, Vətən mövzusunda dəyərli əsərlər yazmaqla sanki təsəlli tapmış kimi olur, necə deyərlər, sözlə ürək ağrılarına məlhəm qoymağa çalışırdı.

Çiçəkli çöllərim, güllü çəmənim,
Zümrüd meşələrim viranə qalıb.
Murovun qaşında buz-heykəl olub
Körpəsi köksündə bir ana qalıb

«Qarlı qış gecəsi»

Və yaxud bu misralara diqqət yetirək:

Ağır ellər ağır gündə obasından köç elədi,
Ruzigarın sərt tufanı varlığımı heç elədi.
Bu torpağın oğlu-qızı çadırlarda gecələdi
Gərək çoxdan qaralaydı günahkarın od-ocağı,
Ağ günlərdə görməmişik qara günlü Qarabağı.

«Unutmuşuq Qarabağı»

Adilin qələmi silahıdır və o, öz «silahı» ilə düzüdüz, əyrini-əyri yazır. Torpaqlarımızın iyirmi faiz işğalı, doğma Kəlbəcərin ermənilər tərəfindən zəbt edilməsi şairi bir an belə rahat buraxmır. Haqq səsini ucaltmaqdan, yazmaqdan savayı əlindən heç nə gəlmir, amma yaradıcı silahı ilə - qələmilə döyüşür, vətənə vurulan yaralara o da məlhəm olmaq istəyir və bununla da Vətən yolunda hər şeyə hazır olduğunu, həm də ürəyində doğma yurda qayıtmaq inamını yaşadır, ümidini itirmir.

Gəlin «Bir gün Kəlbəcərə qayıtmaq üçün» şeirinə diqqət yetirək:

Dağlara boylanan sonam var mənim,
Gözləri yol çəkən anam var mənim.
Dərdli ürəyimdə inam var mənim,
Bir gün Kəlbəcərə qayıtmaq üçün.

Və yaxud:

Dağların dağ boyda dərdi, yası var,
Gülü açılmamış solan yazı var.
Yurd oğlu, hazır ol, yurd davası var
Bir gün Kəlbəcərə qayıtmaq üçün.

Şairin Vətən sevgisini əks etdirən şeirləri ilk yaradıcılıq yolundan bu günə kimi ruhumuzu oxşayır, gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Adil Cəmili vətənsiz, vətəni də Adil Cəmilsiz təsəvvür eləmək çətindir. Şairin anasına ünvanladığı hər bir şeirində də Vətən var; özünü anasına borclu bilən şair, həm də vətənə borclu olduğunu bildirir, nə ananın, nə ana vətənin borcundan çıxmaq mümkün olmayan işdir.

Şair üçün anadan və vətəndən gözəl heç nə yoxdur. O, parçalanmış gözəl vətənin birləşəcəyinə də inanır. Azərbaycanı ikiyə bölmüş Araz dərdi şairin şeirlərində diqqəti çəkir və biz onun ürək ağrısını, göynərtisini duyuruq.

Açan gülün solmayaydı,
Gülən gözün dolmayaydı,
Ürəyində olmayaydı
Araz boyda «şırım» vətən

«Vətən»

Parçalanmış Azərbaycan obrazı şairin şeirlərində nəzərdən yayınmır. Araz çayına bayatı deyən və bu

bayatılarla oxucunu daha çox düşündürən şairin içindən boylanan Vətən dərdinin göyərib tumurcuqladığını görürük.

Şairin ürəyində dərd bitir və bu dərd böyüyür. Bu dərd şəxsi dərd deyil, həm də vətənin dərdidir, damarlarında türk qanı axanların dərdidir.

Adil Cəmil şeirlərində Vətən şərəfli keçmişimizdir, qədim tariximizdir, dünya yarananda yaşadığımız yerdir... Vətən qeyrətdir, namusdur.

Şair üçün Vətən həm də vətəndaşlarıyla, insanlarıyla vətəndir. Vətən vətənə şöhrət gətirən, vətənin haqq səsini dünyaya yayan, vətəni ən uzaq ölkələrdə tanıdan insanlarıyla vətəndir. Vətən Nizamilə, Füzuli ilə, Nəsimi ilə, Hüseyn Cavidlə vətəndir. Vətən həm də Adil Cəmil kimi ziyalıyla, şairlə vətəndir.

Adil Cəmil bir şair kimi nəinki Qarabağ torpaqlarının harayını, eləcə də haqsızlıq və ədalətsizlik nəticəsində ikiyə bölünmüş Azərbaycanın birləşəcəyinə öz müqəddəs inamını poetik şəkildə ifadə etmiş, vətənsizlik və yurdsuzluq dərdini, ayrılıq dərdini qələmə alaraq mənalı və yaddaqalan şəkildə oxuculara təqdim etmişdir.

...Bu hansı nifrindi, bu hansı qarğış-
Yurdun yollarını kəsibdi qar, qış?
Dağılan yuvamda ulayır bayquş,
Orda zəhər çəkir indi bal arım-
Səni Kəlbəcərə necə aparım?

Dədəmdən, babamdan qalanım getdi,
Neçə gül yanağı solanım getdi,
Həsrətdən gözləri dolanım getdi,
Talandı sərvətim, yox oldu varım,
Səni Kəlbəcərə necə aparım?

«Səni Kəlbəcərə necə aparım?»

Vətənin azadlığı yolunda bir şair kimi əzablı yollardan keçən Adil Cəmilin Vətən sevgisi, torpaq sevgisi çox güclüdür, həm də çox səmimidir. Bu şeirləri oxuduqca vətənpərvərlik hisslərimizin alovlandığını, döyüş meydanına atılmağa hər an hazır olduğumuzu hiss edirik.

Qələmilə vətənə ləyaqətlə, şərəflə xidmət edən şairin Vətən qoxulu şeirlərində qəhrəmanlıq duyğuları da qabarıq şəkildə əks olunur. Bəli, şair vətənin gözəlliyindən ilham aldığı kimi, vətənin ağrılarını da ürəyində gəzdirir, vətənin harayını eşidib və həmişə də vətənin səsinə səs verib, onun gücünü, qüdrətini artırmaq üçün bacarığını əsirgəməyib.

Yurd yerlərimizin işğalından bəhs edən şeirlərindən birini nəzərdən keçirək:

Zəncirindən bağlı qalan itirmiz,
Quruyan meyvə ağacları.
Boğucu barıt havası,
Uçuq evin eyvanında
Yellənən qaranquş yuvası.
Xoruz banıyla açılmayan
səhər.

«İşğal»

Bu misralar talan edilmiş, yağmalanmış yurd yerlərimizin acı mənzərəsini gözlərimiz önündə canlandırır. Şair bir rəssam kimi sözlə işğal edilmiş yurdun miskin görkəmini çəkərək bir evin, bir həyətin timsalında bütöv Kəlbəcəri göstərə bilmişdir... Şeirdən də hiss olunur ki, hər şey kənddə qalıb, heç kim özüylə heç nə götürə bilməyib. Adamlar imkan tapıb iti də zəncirdən açıb buraxa bilməyiblər... Qaranquş yuvasına kimi əl uzadan erməni faşistlərinin talan etdikləri, yandırdıqları, xarabazarlığa çevirdəkləri yerlərdə ara-sıra bayquş səsləri eşidilir. Ürəkparçalayan mənzərədir...

İndi də bu misralara diqqət yetirək:

Vətən - nalə, yurd-nalə,
Ərşə çıxıb dərd, nalə.
Öz atını dördnala
Çapa bilən dünyadı.

«Dünyadı»

Bu misralarda Adil Cəmil dünyadakı haqsızlığı, ədalətsizliyi, adamların yolundan sapmasını göstərir və dünyaya öz sözünü deyir, dərdini, qəmini bəyan edir. Bu misralarda üsyankarlıq da var.

Sakit və səbirli, son dərəcə səmimi, mehriban olan şairin birdən-birə iç dünyasında qəzəb vulkanı qaynamağa başladı. Vətənə vurulmuş yaralara, xalqın başına gələn bəlalara biganə qalmayan şair 1828-ci ildə ikiyə bölünmüş Azərbaycanın dərdini ürəyində

gəzdirirdi. Yazdığı şeirlərlə ikiyə bölünmüş Azərbaycanın ürək yaralarına məlhəm qoymaq istəyirdi.

...Həsrət yol gəlibdi neçə qərinə,
Bir gün bu yolları ölçən tapılar
Xuda kömək olsun Xudafərinə-
Nə vaxtsa üstündən keçən tapılar!

«Gözlərim yol çəkir»

İkiyə bölünmüş vətənin dərdini ürəyində gəzdirən şair hətta yanıqlı-yanıqlı bayatı da deyir:

Ara bir,
Axtar məni, ara bir.
Aramızda ayrılıq-
Sərhəd birdir, ara bir.

Hasarı, Araz hicran hasarı.
Yaram sağalan deyil-
Nə məlhəm qoy, nə sarı.

Adil Cəmil vətəndaş kimi, şair kimi vətənə vurulan yaralara göz yuma bilməzdi. Biganəlik, laqeydlik ona yad olan duyğulardı. Vaxtsız solmuş bir çiçəyi belə ürəyinə dərd eləyən şair, xalqın taleyinə, vətənin dərdlərinə biganə qala bilərdimi?

Qarabağ problemləri, faciələri ilə bağlı yazdığı şeir və «Qan borcu» poemasında şairin aşıb-daşan qəzəbini görürüksə, bəzi əsərlərində müqəddəs hüzn, Vətən məhəbbəti, qələbəyə inam, Xeyirin Şərə qalib

gəlməsi, ədalətin zəfər çalması hissləri hakimdir.

***

Vətən duyğulu, Qarabağ ağrılı əsərlərində şairin yeni-yeni duyğuları, poetik düşüncələri üzə çıxır və biz bu duyğularda, düşüncələrdə işğal olunmuş torpaqların azad ediləcəyinə, qaçqın və köçkünlərin öz doğma yurdlarına qayıdacaqlarına böyük inamını görürük. Bu əsərlərdə qələbəyə inam hissi daha güclüdür, daha inandırıcıdır.

...Atam ata yuvasından,
Öz suyundan, havasından
Bir gün didərgin düşəndə
Ev damının dirəyində
Çırağı yanılı qoyub
O sənsənmi, sarı işıq?
Öləzimə, barı, işıq.

«Uzaqda bir işıq yanır»

Adil Cəmilin ürəyinin qanına batırıb yazdığı Vətən qoxulu, Qarabağ ağrılı şeirlərini oxuduqca bir daha əmin olursan ki, o, xalqının, vətəninin şairidir. Ürəyilə, ruhuyla xalqına, vətəninə bağlı olan şairin qəlbində vətənə qarşı sonsuz bir məhəbbət var. Bu məhəbbət, bu sevgi onun bu mövzuda qələmə alınmış hər şeirində hiss olunur.

Hələ körpəliyindən ana laylasının işığında böyümüş, ana məhəbbətilə, ana nəvazişilə dil açmış şairin anaya olan məhəbbəti, yuxarıda da dediyim

kimi, Vətənə olan məhəbbəti deməkdir. Saflığın, təmizliyin, halallığın, düzlüyün mayasını ana südündən, ana laylasından götürən şair ayağı yer tutandan bu günə kimi bu saflığı, təmizliyi, halallığı qoruyub saxlaya bilmişdir. Məhz ona görə də şeirləri məhəbbət ruhunda köklənmişdir.

Vətənə, xalqa xidmət etmək xoşbəxtlikdir. Bu mənada Adil Cəmil daha xoşbəxtdir, çünki o, öz sevgisini, məhəbbətini şeir dililə, özü də ən gözəl poetik obrazlarla ifadə edə bilir.

Şair üçün dünyada Qarabağ dərdindən böyük dərd yoxdur. Millətin, xalqın, vətənin dərdi dərdlərin ən ağırıdır. Çəkiləsi mümkün olmayan bu dərdlər Adilin şeirlərində öz inikasını tapa bilmişdir.

Qarabağda baş verən faciəli hadisələr, günahsız insanların, dinc əhalinin qətlə yetirilməsi, əsir götürülən qız və gəlinlərin harayı, erməni faşistlərinin vəhşilikləri...dünyanın çəkiləsi mümkün olmayan dərdlərindən deyilmi? Bu faciələrə, bu ağrı-acılara, bəlalara şair ürəyi dözə bilərmi? Bu dərdlə yaşamaq olarmı?

Erməni vəhşiliklərinə, erməni talanlarına nifrət və qəzəb, sülhsevər və günahsız bir xalqın - Azərbaycan türklərinin, əliyalın əhalinin üstünə toplar, tanklar, bomba yağdıran təyyarələr yeridən arxalı köpəklərin - erməni barbarlarının törətdiyi cinayətlər, qətllər dünya ictimaiyyəti tərəfindən susqunluqa qarşılandıqca şairin nifrəti alova çevrilir, bu «alovun istiliyini» şeirlərində də hiss edirik.

Xalqı öz isti ev-eşiyindən didərgin salan, anaları,

uşaqları mələr qoyan kafirlərin iç üzünü şair hələ 90-cı ilin yanvarında görmüş, bu vəhşi, murdar işğalçıların, sovet (rus) qoşunlarının dinc əhalini güllələrən etməsini, Bakı küçələrini qanla suvarmasının, azadlıq istəyən bir milləti qan gölündə boğmasının şahidi olmuşdur. Azərbaycan xalqının milli-azadlıq duyğularını boğmaq istəyən rus-erməni əsgərlərinə qarşı yumruğunu nifrətlə düyünləmiş və qələmilə onların murdar simasını qamçılamışdır. Bəli, rus tanklarının tırtılları altında əzilən, zəhərli güllələrdən həyatını itirən, şikəst olan yüzlərlə vətənpərvər oğul və qızların, körpə uşaqların ölümünə ağlayan şairin misralarından qan dammağa başladı. Şairin misralarından düşən hər damla qandan bir igid boy göstərdi. Bu igidlər daha sıx cərgədə birləşərək «biz qırılsaq da, bitib-tükənmədik», - dedilər. Həm də dedilər ki, bir olalım, birgə olalım. Və həmin o qanlı Yanvar günündə xalqımız bir daha anladı ki, Azadlıq vətənin verdiyi şəhidlərlə alınır. Şəhid varsa, Vətən də var. Vətən varsa, şəhid olmağa hazır olan oğullar da var. Vətənin var olması üçün, həm də güclü ordu lazımdır.

Adil Cəmil bir şair kimi, ziyalı kimi, vətəndaş kimi ayağa qalxdı və Azərbaycan həqiqətlərini yazıb dünyaya çatdırmaq üçün dinclik nə olduğunu bilmədi.

Rus imperialist qüvvələrinin xarakterinə, onların işğalçılıq siyasətinə yaxşı bələd olan, xalqın mədəniyyətini, tarixini saxlaşdırmağa çalışan mənfur qüvvələrin kim olduğunu dərindən anlayan Adil Cəmil xalqın azadlıq istəyinə qənim kəsilənlərə qarşı qələmilə döyüşürdü. Əyninə dava paltarı geyinib silahlan-

masa da qələmilə bir ordudan da artıq iş görə bildi. Onun şeirlərini barıt qoxulu, qan qoxulu səngərlərdə oxuyurdular. Bu şeirlər döyüşçüləri qələbəyə ruhlandırırdı. Şairin şeirlərini oxuyaraq düşmən üstünə atılan igid oğullar əsl qəhrəmanlıq nümayiş etdirirdilər. Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə igidlər canından keçərək vətənə olan sevgilərini təsdiq edirdilər. Onların ürəyində vətənə olan bu sevgi həm də Adil Cəmilin şeirlərinin, eləcə də «Vətən bayatıları»nın təsir gücündən yaranmışdı.

Gedər gənclik, gəlməz daha,
Vaxt üzünə gülməz daha.
Bir qəribə son nəfəsdə
Vətən versən ölməz daha.

Çəmən gördüm, borc istədim,
Qala gördüm, bürc istədim.
Bu torpağı qorumağa
Bu torpaqdan güc istədim.

Bu şeirdə də vətənə bəslənən kövrək duyğuların, tükənməz məhəbbətin, yüksək şair-vətəndaşlıq hissinin ifadəsini görürük:

Bu misralara dərindən diqqət yetirsək, görərik ki, şair həm də Azərbaycanın başı üzərində dolaşan qara buludları, eləcə də Azərbaycanın ərazi bütövlüyünə edilən qəsdi nəzərdə tutur. Azərbaycanın ərazi bütövlüyünə hələ XIX əsrdə qəsd edilmişdi. Bir tərəfdən rus imperiyası, bir tərəfdən İran

dövləti Azərbaycanı canavar kimi iki yerə «parçalamışdılar». Bu azmış kimi indi də XIX əsrdə İrandan, Suriyadan, Livandan və başqa yerlərdən Qarabağa köçürülən ermənilər Qarabağa qənim kəsilmişdi. 400 mindən çox soydaşımızı öz dədə-baba yurdlarından - İrəvan torpaqlarından qovub çıxaran kafirlərin iştahası daha da artmışdı. Onlar Qarabağı işğal etməyə başladılar və Qarabağın 20 faiz torpaqlarını zəbt etdilər.

Şair qaçqın və köçkülərin dərdini öz dərdi bildi, Azərbaycanlı kimi, kəlbəcərli kimi onların dərdi-sərini ürəkdən duyaraq, özü də qaçqınlıq həyatının nə olduğunu yaxşı bilərək gördüklərini, yaşadıqlarını ürək ağrısıyla qələmə aldı.

Tərtərim, Qarqarım, Həkərim-deyə,
Murova boylanıb hönkürüm deyə,
Mənə görk olanı mən görüm deyə
Təkcə gözlərimi oymadı illər.

«İllər»

Kəlbəcərsiz ötüşən illər lirik qəhrəmanın təkcə gözlərini oymadı, həm də bu illər onu qayalara çırpdı, qanadını qırdı, ərmağan etdiyi ağrı-acıdan usanmadı, doymadı.

Ocaq yerinə ürək yandıran şair yazır:

Gəldim bu dünyaya qonaq yerinə,
Döndüm dönüklərin qınaq yerinə.
Mən ürək yandırdım ocaq yerinə,

Duyğulu könlümü duymadı illər.

«İllər»

Görəsən, qaçqınlıq dərdini, yurd həsrətini bundan ağrılı necə ifadə etmək olar? Bilmirəm. Ancaq onu bilirəm ki, didərginlik, qaçqınlıq böyük dərddi. Bu dərd şairin ürəyində «yaşayır» və onu bir günün içində qocaldır

***

20 Yanvar faciəsi Adil Cəmil poeziyasında da öz təcəssümünü tapmışdır. O da bir vətəndaş-şair kimi xalqın köləliyə, imperiya zülmünə qarşı etirazını bildirmiş, azadlıq aşiqi olduğunu bir daha bəyan eləmiş, bu qanlı qırğınla bağlı dəhşətli həqiqətləri «Qan borcu» poemasında əks etdirə bilmişdir.

Azərbaycanda milli-azadlıq hərəkatının gücləndiyi bir dövrdə həyata keçirilən 20 Yanvar faciəsi russovet müstəmləkəçilik rejiminin iç üzünü bir daha açdı və Adil Cəmil təkcə yaratdığı poetik örnəklərlə deyil, həmçinin istiqlal mübarizəsinin ön sıralarında gedən şairlərdən biri kimi tanındı.

Yanvar faciəsinin Azərbaycan xalqına gətirmiş olduğu hüzn və kədəri şair «Qan borcu» poemasında daha təsirli , daha dərindən əks etdirə bilmiş, faciəyə ictimai məzmun vermişdir ki, bu da əsərin oxucular arasında geniş əks-səda doğurmasına səbəb olmuşdur.

Onu da qeyd etmək yerinə düşərdi ki, 20 Yanvar faciəsi və şəhidlik mövzusunun Azərbaycan poezi-

yasında vətəndaşlıq qazanmasında xalq şairi Bəxtiyar Vahabzadənin «Şəhidlər» poeması ilə yanaşı, Adil Cəmilin «Qan borcu» poeması da mühüm rol oynamışdır.

«Qan borcu» poeması təkcə ideya baxımından deyil, eyni zamanda bədii-estetik tutumu ilə diqqəti cəlb etməklə yanaşı, həm də xalqın matəmi, anaların fəryadı, rus ordusunun vəhşilikləri, törətdiyi cinayətlər də öz poetik əksini tapmışdır.

...Fəryad qopur gecəyarı,
Qaranlıqda qan tökülür.
Ağacdan yarpaqsayağı
Torpağa insan tökülür.

Güllələyib söndürürlər,
İşıq saçan qəndilləri.
Sönmüş ocaq yerlərində
Ləpələnir qan gölləri.

Süngülərə keçirirlər
Qocaları, körpələri.
Xalqımın yol çəkən gözü
Görməliymiş gör nələri

Azadlıq uğrunda canından keçən soydaşlarımızın qəhrəmanlığını poetik bir dillə ifadə edən şairin poemanın hər misrasında vətəndaş narahatlığı diqqəti çəkməklə yanaşı, həm də onun üsyankar səsi eşidilir:

Daha bəsdir bu göz yaşı,
«Ayağa qalx, Azərbaycan!».
Səni belə yandıranı
Yandırıb yax, Azərbaycan!

Unut «dostun» vəfasını,
Dağıt ilan yuvasını
Döy haqqının davasını-
Haqqa bayraq Azərbaycan!

Şəhidlik mövzusunda qələmə alınmış poetik örnəklər içərisində «Qan borcu» əsərinin xüsusi yeri var və bu poemada şair diqqəti təkcə xalqın yaşadığı faciələrə deyil, həm də Azərbaycanın azadlığa qovuşmaq istəyini dilə gətirmiş, axıdılan qanların yerdə qalmayacağını, haqqın öz yerini tutacağını, xalqın azadlıq arzusunun həyata keçəcəyini bildirmişdir.

Adil Cəmilin «Qan borcu» poeması vətəndaş yanğısı ilə yazılmış bir əsər olmaqla yanaşı, həm də məzmun və forma bənzərsizliyilə seçilir. Əsərdə ifadə olunan fikir və düşüncələr oxucunu düşündürür, azadlıq istəyini daha da gücləndirir.

***

Bəli, Qarabağ mövzusu, eləcə də işğal edilmiş Kəlbəcər, düşmən tapdağı altında qalan yurd yerlərimiz Adil Cəmili də daim düşündürmüş, onu yeni yaradıcılıq axtarışlarına sövq etmişdir. Ermənilərin vəhşiliyi, qaniçənliyi, işğalçılıq niyyəti, millətimizin başına gələn faciələr, haqsızlıq və ədalətsizliklər onun da

ürəyində poetik bir təpər oyatdı və qələmə sarılaraq xalqı mübarizəyə səslədi, bir-birindən təsirli şeirlərilə yatmış duyğuları oyatmağa çalışdı, xalqı birliyə, səfərbərliyə çağırdı. Şairin qələmə aldığı zəngin, dəyərli sənət nümunələrində yüksək vətəndaşlıq qayəsi, yurd sevgisi, dərin mübarizlik əhvali-ruhiyyəsi diqqətdən yayınmadı.

Azərbaycan torpaqlarının mənfur və qaniçən ermənilər tərəfindən işğal olunması, maddi və mənəvi dəyərlərimizin itirilməsi, Qarabağın unudulması qorxusu şairi bir vətəndaş kimi daha kəskin yazmağa, xalqın dərdlərini, ağrılarını poetik dillə canlandırmağa məcbur etdi və o, canlı və emosional tərzdə öz etiraz ruhunu şeirlərində əks etdirdi.

«Anam həsrət qalıb ana yurduna» şeirindən bu misraları həyəcansız oxumaq mümkün deyil:

Yağıya qalıbdır yağı-pendiri,
İndi şor satanı gedib dindirir
Alışmır ocağı, yanmır təndiri-
Yanır, bu hicranın yanır oduna-
Anam həsrət qalıb ana yurduna.

Xalqımızın yaşadığı qaçqınlıq, köçkünlük, didərginlik, yurd həsrəti Adil Cəmil poeziyasının başlıca mövzularından biri kimi də diqqətdən yayınmır.

Vətən dərdi, yurd həsrəti şairin yaradıcılığında özünün dərin poetik əksini tapmışdır.

Şairin «Murovun bu üzündə», «Başımıza gələnlər», «Ağlaram», «Dədə Şəmşir», Kəlbəcəri xatırla-

yarkən» və başqa şeirlərinin əhvali-ruhiyyəsi Vətən ağrılarını əks etdirməkdədir.

Adil Cəmil qaçqınlığın acı, kədərlli mənzərəsini doğma anasının timsalında canlandıra bilmiş, bu dərdin siyasi və mənəvi aspektlərini göstərə bilmişdir:

Onun şeirlərində ana obrazının verilməsi heç də təsadüfi deyildir. Çünki Ana vətənin simvoludur. Ana doğma yurddan kənarda - Bakıda sığınacaq tapıb. O, Kəlbəcərsiz darıxır, o yerlərə qayıtmq istəyir. Amma öz doğma yurduna, doğma evinə gedən yollar bağlıdır.

«Keçənə güzəşt» şeirində də Vətən həsrətinin, qaçqınlıq dərdinin bədii ifadəsi diqqətdən yayınmır:

Köçkünümə, qaçqınıma nə deyim,
Boş yuvalar mənim torpaq itiyim
Kimə qalır dağım, dərəm, gədiyim,
Əvəzində nə verirlər köçənə?..

Adilin dərin humanizm və vətənpərvərlik hissi ilə yazılmış şeirlərində həm erməni cəlladlarının vəhşiliyi, amansızlığı göstərilir, həm də yurd həsrəti, Qarabağ dərdi ürək ağrıları ilə ifadə olunur.

Kəlbəcərdə düşmən əlinə keçməmək üçün özünü qayadan atan qızların faciəsi, düşmənə qəzəb və nifrəti, həm də millətin şərəf və namusu, Azərbaycan qızlarının ləyaqəti «Özünü qayadan atan qızlara» şeirində öz bədii ifadəsini tapmışdır:

O gün sinəmizi düşmən dağladı,
Zamanın özü də ayaq saxladı

Dəlidağ yas tutub, Tərtər ağladı,
Özünü qayadan atan qızlara.

Mənim el qızlarım saflıq aynası,
Namusdan yoğrulub əzəl mayası.
O gün qanad verdi yurdun qayası,
Özünü qayadan atan qızlara.

Yurd itkisi, Vətən həsrəti, qaçqınlıq dərdi Adil Cəmilin «Çadır şəhərciyi qış günlərində» şeirində də öz əksini tapmış, ürək parçalayan misralarla ifadə olunmuşdur.

Üzür qar içində Mil düzəngahı,
Soyuq çadırların sobası yoxdur.
Donur dodağında didərgin ahı,
Köçkün ellərimin obası yoxdur.

Qartopu oynamır qaçqın uşağı,
Demir buz üstünə çıxım sürüşüm.
Qar yağır qurşaqdan, dizdən aşağı,
Qarda qarsalanır körpə gülüşü

Kəlbəcərin işğalını acı təəssüflə, yana-yana qeyd edən müəllif bu itkinin, bu fəlakətin poetik mənzərəsini rəssam kimi çəkərək gözlərimiz önündə canlandırır:

Bu ummanda tək adayam,
El haraylı səs-sədayam.
Mən bir nahaq dünyadayam,
Kəlbəcər - haqq dünyam mənim.

«Dünyam mənim»

Və yaxud «Bir gün Kəlbəcərə qayıtmaq üçün» adlı şeirindən bu misralara diqqət yetirək:

Dağların dağ boyda dərdi, yası var,
Gülü açılmamış solan yazı var.
Yurd oğlu, hazır ol, yurd davası var,
Bir gün Kəlbəcərə qayıtmaq üçün.

Bu şeirdə həm də şairin mübarizlik əhvali-ruhiyyəsi özünü göstərməkdədir. Şeir kədər və qüssə çalarları üzərində qurulsa da Kəlbəcərin azad olunacağı günə bəslənən ümidlər hələ tükənməyib, bu inam hələ sönməyib... Və nə yaxşı ümidlər tükənməyib. Yaxşı ki, şair üzləşdiyimiz faciələrdən, fəlakətlərdən sarsılmayıb, əyilməyib, ruhdan düşməyib və xalqı da ümidsiz olmamağa, itirilən torpaqlarımızın qaytarılması uğrunda mübarizəyə qoşulmağa çağırır.

Adil Cəmilin Qarabağ müharibəsinə, xalqın üzləşdiyi ağrı-acılara, qaçqınlıq və didərginlik dərdinə həsr etdiyi şeirlər vətəndaşlıq yanğısı ilə qələmə alınıb. Bu şeirlər sözçülükdən, şüarçılıqdan, ritorikadan çox-çox uzaqdır, əsl bədii sənət nümunələridir.

***

Adil Cəmil torpaq, yurd itkisində həm də öz başbilənlərimizi günahlandırır. Günahsız millətin taleyilə oynayan, Bakıda vəzifə davası aparan, xalqı yox, özünü düşünənləri ittiham edir, onların iç üzünü açıb göstərir:

...Orda qan tökülür, evlər dağılır,
Xalqın yurdu gedir, yuvası gedir,
Burda kim deyər ki, keflər dağılır,
Bakıda vəzifə davası gedir.

...Kimsə hünərlidir, kimsə hünərsiz,
Kiminsə bu yurda vəfası gedir.
Vətən davasından xəbər-ətərsiz
Bakıda vəzifə davası gedir.

«Vəzifə davası»

Bakıda hökm sürən dərəbəylik və özbaşınalıq, yaranmış xaos, vəzifə davası şairin «Dədə ocağının odqoruyanı» poemasında da öz əksini tapmışdır. Poemada şair günahkar axtarmır, günahkarı birbaşa göstərir, o dövrün siyasi mənzərəsini güzgü kimi əks etdirir.

Əsl düşmən təkcə ermənilər deyil, içimizdəki başsız başçılar onlardan da qorxuludur. Ermənilər Kəlbəcərə sarı ilan kimi süründükləri bir vaxtda «bizimkilər» susqunluq nümayiş etdirirlər Niyə? Çünki vəzifə kreslosu vətəndən daha «doğmadır», daha «şirindir».

Bakıda yaşayan yurddaşlarımız,
Bu qandan, qadadan xəbərdar idi.
Ağlayıb-sızlarkən dağ-daşlarımız,
Hərbi nazirimiz sanki kar idi.

...Təzə dağ basıldı köhnə dağına
Bu sözdən qovruldu, ütüldü Cavid.
Saxta generalın çal papağına
Gözümün önündə tüpürdü Cavid.

Poemada Dədə Şəmşirin nəvəsi Cavid Qurbanovdan söhbət açılır. Kəlbəcərin qara günlərində elinobanın qayğısına qalan, kəlbəcərlilərə kömək əlini uzadan qeyrətli, səxavətli bir oğuldan, dəyərli ziyalıdan, xalqın böyük hörmətini və məhəbbətini qazanan Cavid müəllimin vətənpərvərliyi, gördüyü işlər qabarıq şəkildə əks olunub, onun sözlə portreti yaradılıb. Poemanı oxuduqca gözlərimiz önündə əsl Azərbaycan kişisi canlanır. Aldığı nəfəs da «el» deyən, «yurd» deyən Cavid müəllimin xalqın yolunda fədakalığı, elin dərdi-səriylə yaşaması, yurdsuzlara yurd salması eləcə də Ağdaban faciəsi, Kəlbəcərin işğalı gözlərimiz önündə canlanır:

Zirvələr oğlunun el qabağında
Alnı açıq oldu, üzü ağ oldu.
Qaçqın obaların dərdli çağında
Kürəklər söykənən uca dağ oldu.

Vətənə qeyrətli vətəndaş oldu,
Qeyrət eldən gəlir, obadan gəlir.
Hünərvər insanlar ona qoşuldu,
Kəramət dədədən, babadan gəlir.

...Qarışıb elimin yası yasına,
Ayrılıq hər kəsin belini əyib.
Cavid məlhəm qoyub yurd yarasına,
Əlindən gələni əsirgəməyib.

20 Yanvar faciəsi, Xocalı soyqırımı, Qarabağın işğalı, bir milyona yaxın soydaşımızın qaçqın və köçkün həyatı yaşaması, bir sözlə, çəkiləsi mümkün olmayan dərdlər, başımıza gələn faciələr, bəlalar, torpaqlarımızın 20 faizinin işğal edilməsi, hər rayonda, hər kənddə durna qatarı kimi sıralanmış şəhid məzarları Adil Cəmilin yaradıcılığına təsirsiz ötüşməyə bilməzdi. Şairin iç dünyasını silkələyən bu hadisələr onun rahatlığını əlindən aldı, qələmini süngüyə çevirdi. Yurd yerlərinin harayına hay verən, igidlərin qan daman yaralarına sözüylə məlhəm olan Adil Cəmil ermənilərin iç üzünü açmaqla, vətənə vurulmuş yaraları öz ürəyində hiss etməyə başladı.

...Yollarımız dolanbacdır - düz gəlmir,
Silahlanıb gələnlərə söz gəlmir
Üzülürük üz vurmağa üz gəlmir-
Qanımızı şərab kimi içənə.

«Keçənə güzəşt»

Və yaxud:

Bu şəhər hələ də həyəcanında -
Qəlpələr qalıbdır torpaq canında.
Bir azdan şəhidlər xiyabanında
Sinələr göynədən əzan vaxtıdır

«Nəğməsiz qalan nəğməkar»

...Zirvələrdə qara rəngli qara bax,
Dağlarımın ağ çalması - qara bağ.
Əldən getdi, eldən getdi Qarabağ,
Ağı deyib mən özümə ağlaram.

Qarabağın işğalı, doğma yurd yerlərinin yandırılması, talan edilməsi şairin sinəsinə dağ çəkib, o, göz yaşlarını saxlaya bilmir və «Ağı deyib mən özümə ağlaram» deyərək əldən gedən Qarabağın həsrətilə alışıb-yanır

***

Adil Cəmilin yaradıcılığında rast gəldiyimiz bir çox şeirləri göstərə bilər və deyərəm ki, həmin şeirin hər bir anı ovqatdan, ani duyğudan yaranıb. Təbiətin gözəlliyi önündə özünü saxlaya bilməyən, güclə dayanan şairin gücü, ancaq qələminə çata bilərdi.

Yarpaqlar gözümün yaşıl eynəyi,
Bu yaşıl baxışda bir dünya heyrət.
Töküldü üstümə durna lələyi-
Torpaqda vətən var, səmada qürbət.

«Novxanı bağları»

Onun hələ ötən əsrin 70-80-ci illərində qələmə aldığı Vətən və təbiət şeirlərində təbiət təkcə təbii gözəllik mənbəyi kimi deyil, həm də insan hisslərinin tərcümanı olaraq mənalandırılmışdır. Ədəbiyyatşünas Yaşar Qarayevin yazdığı kimi «mütərəqqi bəşəri fikir təbiətdəki harmoniyanı həmişə cəmiyyətdə də axtarıb, tapmayanda isə onu özü yaratmağa cəhd edib».

Adil Cəmilin Vətən və təbiət lirikası da əbədiəzəli harmoniya funksiyasına xidmət etməklə yanaşı, həm də təbiətdəki gözəlliklərə heyranlığını bildirməklə yanaşı, könüloxşayan bu gözəllikləri nəzmə çəkərək, bir rəssam təəssüratı bağışlayır. Onun təbiət lirikasında həm rəsm cizgilərini, həm də insan duyğularını, insanla təbiət arasında yaranmış harmoniyanı duymaq mümkündür.

Gəlin «Bir payız günü» adlı şeirindən bu misralara fikir verək və qızıl saçlı zümrüd meşəni misilsiz bir gözələ bənzədən şair qələminin qüdrətinə bir daha heyran kəsilək:

Meşələrdə payız gördüm-
Göy yarpaqlar xəzəl idi.
Altun «saçlı» zümrüd meşə
Bir misilsiz gözəl idi.

Payız fəslində də insana məxsus həzinlik, kövrək duyğular var.

Bəli, İnsan-təbiət münasibətləri şairin yaradıcılığında ön planda durur:

Gəlin «Talıstan» şeirindən bu bəndlərə nəzər salaq:

Meşə quş səslidir, quş nəfəslidir,
Turacın nəğməsi təzədir burda.
Qayalar dağların dəbilqəsidir,
Ağaclar ovxarlı nizədir burda.

...Meşənin bəyitək dayanıb palıd,
Dağ çayı gəlintək dillənib gedir.
Bağrı şimşək ilə yarılan bulud
Ayağım altında sellənib gedir.

Meşənin bəyi tək dayanan palıdı insaniləşdirən, təbiətlə insanı həmişə vəhdətdə görən Adilin bu şeirini oxuduqca həmin o tək ağac gözlərimiz önündə canlanır və şairin gördüyü meşəni biz də görürük, yaşadığı duyğuları biz də yaşamalı oluruq.

Bu şeirdə şair təbiəti sadəcə olaraq tərənnüm etmir, bir rəssam kimi sözlə təbiətin poetik rəsmini çəkir, təbiəti poeziya həqiqətinə çevirməklə insan-təbiət münasibətlərini açıb-göstərir.

Vətəni sevmək həm də təbiəti sevmək anlamına gəlir. Şairin yaradıcılığı ilə yaxından tanış olan hər kəs dərhal anlayır ki, onun poeziyasını təbiət mövzusu olmadan təsəvvür etmək mümkün deyildir.

Bəli, təbiət mövzusu onun poeziyasında Vətən mövzusu ilə yanaşı «addımlayır». Onları bir-birindən ayırmaq, ananı baladan ayırmaq demək olardı. Belə ki, Vətən həm də təbiətin özü olduğu kimi, təbiətin özü də elə vətənin özüdür.

Təbiəti tərənnüm edən, həm də ekoloji problemlərə toxunan Adil Cəmil bir çox poetik nümunələr yaratmışdır. Onun təbiət şeirlərini oxuyanda gözlərimiz önündə gözəl bir mənzərə canlanır. Şairin yaratdığı bədii lövhə təbiətin həm rəngini, həm relyefini, həm xoş havasını, həm də güllərin, çiçəklərin ətrini özündə əks etdirir. Oxucu istər-istəməz özünü təbiətin qoynunda görür, həm də özünü Böyükçöldə, İssıkulda, Talıstan meşələrində, Kəlbəcər dağlarında hiss edir, o yerlərin ətrini duyur, havasını udur.

Təbiət lövhələrini tərənnüm edən, gözlərimiz önündə canlandıran Adil Cəmilin poeziyasında şairliklə rəssamlığın doğmalığı özünü büruzə verir. Sözlə təbiətin şəklini çəkən şairin şeirlərində Xəzər dənizi, Kür, Araz çayları, çinar ağacı, bulaq və s. canlı kimi görünür.

Adil Cəmil sevgi şeirlərində olduğu kimi Vətən və təbiətlə bağlı şeirlərində də ən ali hiss və duyğularını misralara hopdurur. Vətən-təbiət-məhəbbət üçbucağında əsas amil insandır - şairin lirik qəhrəmanıdır. Lirik qəhrəmanın vətənə və təbiətə məhəbbəti eynidir.

Təbiəti dərindən duyan, anlayan, torpağın səsini eşidən şair orijinal təşbihlərdən, poetik obrazlardan, mübaliğədən istifadə edərək təbiəti daha da canlandırmağa nail olmuşdur. Hava, təbiət, göz oxşayan mənzərələr onun şeirlərində sanki xoş ətir saçır və şair öz sevincini, kədərini təbiət vasitəsilə çatdırmağa çalışır.

Təbiət də canlı insan kimidir; onun da sevinci var, kədəri var, qayğıları var. Bu, həqiqətən belədir. Təbiət yazda «gülür», qışda «kədərə bürünür». İnsan kimi təbiət də ağlaya bilir. Məgər Səttar Bəhlulzadə «Kəpəzin göz yaşlarını» gözlərimiz önündə canlandırmayıbmı? Adil Cəmil də sözlə təbiətin şəklini çəkir, onun ağrı-acılarını, hiss və həyəcanlarını ustalıqla şeirlərində əks etdirə bilir. Bəli, təbiətdə insan hissini, insan duyğusunu arayan şair, təbiətə qarşı zorakılığa göz yuma bilmir. Təbiətin mühafizəsi problemi onu da dərindən düşündürür. O, həm də düşünür ki, təbiətə qəsd insanlığa qəsd deməkdir. Tənqidçi Mürşüd Məmmədovun yazdığı kimi « Təbiətə qarşı zorakılıq insanlığın bu gününə və sabahına sui-qəsd demək deyilmi? Təbiətin mühafizəsi probleminin şeirimizdə ön plana çəkilməsi də bununla əlaqədardır. Müasir poeziyada təbiət insaniləşmiş şəkildə təsvir olunur. Bənövşə - utancaqlıq, kövrəklik rəmzi, dənizlər - insan kamalının və qəlbinin dərinlik və böyüklük, dağlar - ucalıq və əzəmət, palıd məğrurluq, yenilməzlik, meşələr - əbədi gənclik, tufan və şimşək - qəzəb və nifrət, şəlalə - sevinc, çiçəklər - zəriflik, incəlik, ceyranlar, cüyürlər - məsumluq, səma - ağlın genişlik simvolları kimi tərənnüm edilir».

Adil Cəmilin təbiət şeirləri böyük təsir gücünə malik olmaqla yanaşı, həm də təbiət vurğunu olan bir şair kimi onu oxuculara daha çox sevdirir.

Bir çox şeirlərində təbiəti tərənnüm edən şair bir söz ustası kimi diqqəti cəlb edir. Şairin «Dağlara qayıtmışam», «Dəlidağda qış görmüşəm», «Korbulaq», «Yaylaq» və s. şeirləri Azərbaycan təbiətini əks etdirməklə ya-naşı, həm də göstərir ki, poeziya və təbiət bir-birin-dən ayrılmazdır. Bəli, təbiətin özü bir poeziyadır. Belə olan halda təbiətlə poeziya bir yerdə dərk olunmalı-dır, çünki təbiət gözəllikləri poetik hissin yaranma-sında, poetik duyğuların dilə gəlməsində əvəzsiz rol oynayır.

Təbiət şeirlərindəki bədii təsvir vasitələrinin zəng-inliyi, metafora, epitet və s. bədii vasitələr ürəyəya-tımlıdır, xoşagələndir.

Bu qoca çinarın polad gövdəsi
Poladın üzünə qayıda bilər.
Bu uca çinarın bulud kölgəsi
Günəşin özünü soyuda bilər.

«Göyçayda bir çinar gördüm»

Şairin Göyçayda gördüyü çinar həm də Vətən ob-razıdır. Bu şeirdə də elə, yurda bağlılıq və vətən duyğuları diqqəti çəkir.

Və yaxud:

Alça çiçəyitək ağappaq yağış
Mənim pəncərəmdə puçurlayıbdır.
İldırım çırpdıqca boz buludları
Torpağın «dodağı» uçuqlayıbdır.

«Ağ yağış»

Adilin şeirlərindəki səmimilik, şirinlik, axıcılıq onun lirikasının özünəməxsusluğudur. Təbiəti poeziyadan, poeziyanı təbiətdən ayırmaq mümkün olmadığı kimi, şairin ictimai-siyasi, qlobal məsələlərə göz yumması da mümkün deyil. Ekoloji problemləri qələmə almaq ən qlobal məsələlərdən biridir. Ekoloji tarazlığın pozulması bütün bəşəriyyətə mənfi təsir göstərən hadisədir. Baş verə biləcək bu hadisənin - fəlakətin qarşısı alınmasa dünya məhvə doğru sürətlə gedəcək. Bu, həqiqətdir.

Ümman olsa gəmisiz,
Torpaq olsa zəmisiz,
Ağac görsən kölgəsiz,
Ay doğulsa ləkəsiz
Heç şübhəsiz, bəlkəsiz
Dünya dağılır demək

«Vahimə»

Yaxud:

Gözəlim, göyçəyim Xəzər,
Uğrunda başımı verrəm.
Suyun azalmasın deyə
Gözümün yaşını verrəm

«Gözəlim, göyçəyim Xəzər».

...Çiçəklər açmağa qorxur,
Kəpənək uçmağa qorxur,
Quzular qaçmağa qorxur-
Bu dağlar o dağlar deyil.

Bu şeirlərdə də şairin ruhi həyəcanlarını, təbiətə məhəbbətini tam şəkildə ifadə etmək qüdrətini görürük. Həm də görürük ki, şair təbiət lövhəsini poeziya lövhəsinə ustalıqla çevirə bilir. Və bu lövhələrdə bədii vasitələr fırça işini görür, məhz ona görə də təsirlidir, emosionaldır.

Şair həyəcan təbili çalaraq insanları təbiətin qorunmasına çağırır. Bir ağacın kəsilməsi, bir budağın qırılması, bir bulağın quruması şairi düşündürür, həyəcana gətirir, eləcə də Xəzərdə suyun azalması onu «qorxudur».

Şairin lirik qəhrəmanı ilə təbiət arasında bir doğmalıq, yaxınlıq olduğunu görürük. Həm də görürük ki, o, təbiəti sevir, təbiətə biganə deyil. O, təbiəti qorumağa çağırır. Bəli, təbiəti qorumaq üçün onu sevmək lazımdır. Ərz etdiyim kimi, Adil təbiəti sevir və bu sevgi onun canındadır, qanındadır. Bu sevgi onun ruhuna hopub.

Adil Cəmil Azərbaycanı qarış-qarış gəzmiş, hər yola, hər cığıra bələd olmuş, vətənin gündüşməz meşələrini, dişgöynədən bulaqlarını, yayda da zirvəsində qarı əriməyən dağlarını, şehli çəmənlərini sevərək, bu sevgi hisslərini, duyğularını qələmə almışdır.

Şair təbiəti sevməsəydi, onun gözəlliklərindən

ilham almasaydı, aşağıdakı səmimi, həzin misraları necə yaza bilərdi?

...Yaz gəlib, gül açıb qışımın üstdən,
Burda yaş çıxıram yaşımın üstdən,
İldırım şığıdı başımın üstdən,
Dumanın ətəyi dizimə dəydi.

Zirvənin başından aşır çəməni,
Yel vurur, göllənib daşır çəməni.
Əyilib qoxladım yaşıl çəməni
Çiçəyin nəfəsi üzümə dəydi.

«Qoşma»

Şeirdə çəmən çay kimi verilib. Çəmən də çay kimi coşub-daşır. Bu bənzətmə, bu poetik obraz oxucunun ruhunu oxşayır, qəlbini duyğulandırır.

Göründüyü kimi Adil Cəmil təbiəti bədii şəkildə, lövhələr vasitəsilə əks etdirməyi bacaran şairdir. O, bir sənətkar kimi həm də sözlərin musiqisinə, tələffüz gözəlliyinə, ahəngdarlığına xüsusi fikir verir. Musiqi və ahəngdarlıq şeirin təsir gücünü daha da artırır.

«Qoşma» adlı şeirdə də bədii təsvir vasitələrindən bacarıqla istifadə edən şair «dumanın ətəyi dizimə dəydi» deyərək poetik bir obraz yaratmışdır. Bir-birini tamamlayan misralar, bəndlər arasında daxili, məntiqi əlaqələr, hər sözün, hər misranın yerində olması, eləcə də poetik ifadələr diqqətdən yayınmır.

Azərbaycan təbiəti sanki şairin ürəyinə «köçüb». O, təbiətlə nəfəs alır. Təbiətlə nəfəs almaq vətənlə

nəfəs almaq, vətənlə ağlayıb, vətənlə gülmək deməkdir.

Şairin ürəyində vətənin təbiətinə, gözəlliklərinə qarşı doğmalıq və səmimiyyət o qədər güclüdür ki, onun sözlə təsvir etdiyi təbiət lövhəsi sanki mahir bir rəssamın fırçası ilə yaradılıb.

Ətəyi yaşıl dağın
Zirvəsi çal kimidir.
Yamacda qara qaya
Yanaqda xal kimidir.
Burda halım, əhvalım
Bir özgə hal kimidir.
Torpaq elə şirindir
Bulaqlar bal kimidir

«Səkkizliklər»

Şeirdə təsvir-təqdim o qədər həyati və canlı verilib ki, təbiət lövhəsi bir andaca kino lenti kimi gözlərimiz önündən gəlib keçir.

Hər söz, hər misra poetik sərrastlıqla seçilib. Həm də buna görə şeirdəki bədii nüfuzetmə güclüdür.

***

Adil Cəmil Azərbaycanın hər qarış torpağını, hər mamırlı daşını, hər mənzərəsini özünəməxsusluğu ilə duyur, ruhuna sığal çəkən hər gözəlliyi təzə rənglərlə ifadə edir, vətənə, təbiətə, insanlara bəslədiyi böyük məhəbbətin səadətilə yaşayır, yazıb-yaradır.

Öz istedadından, yaradıcılıq imkanlarından bacarıqla istifadə edən, adi bir hadisəni belə mənalandı-

ran, söz və rəngləri həssaslıqla seçən Adil Cəmil şeirlərində rənglərin fikir tutumunun genişliyinə, sözün düzümünə və ifadəliliyinə həssaslıqla yanaşdığına görə şeirləri oynaqlığı ilə diqqəti çəkir və bu da onu göstərir ki, o heç vaxt şeir xatirinə şeir yazmır.

Təbiətə münasibət Adil Cəmil poeziyasının yeni humanist məzmunla zənginləşməsindən xəbər verir. Onun şeirlərində təbiət də insan kimidir; düşünür, xəyala dalır, fikrə gedir, sevinir, gülür. Şairin təbiət lirikasında söz və detal çox zaman rəmzi məna daşısa da, müəyyən bir fikrin daha kəskin, daha sərrast bədii icrasına xidmət edir.

Vaxtilə Səməd Vurğun yazırdı:

«Bizdə təbiətə zülm edənlərin
Nə insan duyğusu, nə də haqqı var».

Şair «Muğan» poemasında da təbiətin gözəlliyini qorumağa, insanları mərhəmətli olmağa çağırırdı.

Təbiətə Səməd Vurğun münasibəti Adilin yaradıcılığında da hiss olunur və o, təbiəti sevmək, qorumaq hər kəsin mənəvi borcu olmalıdır, - deyir. Şair təbiətə qənim kəsilənlərə qarşı çıxır və «Qoşma» adlı şeirində yazır:

Hər gülün boyası günəş nurudu,
Bu dağlar, bu daşlar necə uludu;
Çiçəyə əl atdım əlim qurudu,
Buluda daş atdım özümə dəydi.

Şair təbiət üçün narahatçılıq hissləri keçirir. Təbiətə biganəliyi, təbiətə qarşı amansızlığı bəşəri faciə kimi dərk edir.

Pozulub nizamı, itib ülgüsü-
Yerimiz, göyümüz tanınmaz olub.
Dəyişib meşənin ağac düzgüsü-
Yaz qışa oxşayır, qışda yaz olub.

Quruyur bulaqlar, batır kəhrizlər,
İnsanlıq ayılmır fil yuxusundan.
Çoxalır günbəgün ölü dənizlər,
Balıqlar boğulur suda susundan.

«Yaşıl haray»

Təbiətə qəsd edilməsi, ekologiyanın pozulmas şairi haray çəkməyə vadar edib. Fəsillərin yerini dəyişməsi, meşələrin qırılması, insanların hələ də fil yuxusundan ayılmaması şairi narahat etməyə bilərdimi? Axı o, bir vətəndaş kimi, şair kimi Vətən gözəlliyinin keşiyində dayanıb. Bu onun vicdan saflığından, təmizliyindən, vətənə əsl oğul olmasından xəbər verir. Onun vətənlə, təbiətlə bağlı olan şeirləri zərif bədii naxışlarla bəzədilir, insana sevinc gətirir, qəlbini fərəh notları ilə doldurur.

Qışın qarı, baharın bənövşəsi, günəşin şəfəq saçması, dalğaların şahə qalxması, qayaların sükutu, çiçəklərin donmuş təbəssümü poetik bir dillə elə təsvir edilir ki, daş ürəkli insan belə xeyirxah olur, yaxşı işlər görməyə can atır.

Bəli, Adil poeziyasında çay, bulaq, dağ, zirvə, çinar, səma, bulud, yağış, şimşək və s. həm müstəqim mənada təsvir olunur, həm də şairanə məzmun ifadə edir.

Adil Cəmilin Vətən və təbiət şeirləri məhəbbət, səadət, gözəllik kimi əbədi mətləblərdən xəbər verir. O çox zaman təbiətdən insanların mənəvi cəhətdən saflaşması, zənginləşməsi üçün yararlanır, çünki o, təbiəti hiss edir, başa düşür, hər daşını, hər qarış torpağını, gülünü, çiçəyini «oxuya» bilir. Təbiəti dərindən duya bilən şair, insanların ürəyini də yaxşı duyur, çünki təbiət insandan, insan da təbiətdən ayrılmazdır.

Adil Cəmil təbiəti yalnız təsvir etmir, həm də təbiəti bütün əlvanlığı ilə duymaqda oxucunu heyrətləndirir. Yuxarıda ərz elədiyim kimi Adil Cəmil təbiətdən yazanda vətəndən, vətəndən yazanda təbiətdən yazır. Onun Vətən duyğulu şeirləri, elə təbiət ətirli şeirlərdir.

***

Adil yaradıcılığında Şuşa da, Cıdır düzü də, Kəlbəcər də, Murov dağı da, ata ocağı da, zirvəsi qarlı dağlar da, Xəzər dənizinin özü də, payız da, yaz da, aylı gecə də, qum da, durna da, sərçə də ayrı-ayrılıqda bir obrazdır. Və bu obrazlar onun qələminin qüdrətilə elə möhtəşəm yaradılıb ki

Aylı gecələrin ayrı rəngi var:
Belə gecələrdə salxım söyüdün
Yamyaşıl yarpağı gümüşü olar.

Gümüşü söyüdün ağ kölgəsində
İki sevgilinin görüşü olar.

«Aylı gecə nağılı»

Və yaxud bu misralara diqqət kəsilək:

...Çaylar sığmır yatağına-
Burdan vurub ordan çıxır.
Bir ilıqca nəfəs üçün
Novruzgülü qardan çıxır-
Gələndə yaz.

Təbiəti belə canlı lövhələrlə təsvir etmək hər şairə qismət olmur. Bu, həqiqətən belədir. Həqiqətən də Adil Cəmil təbiət vurğunu olan bir şair kimi həmişə öz məhəbbətini ifadə etməyə çalışır.

***

Sünilikdən, qeyri-təbiilikdən, pafosdan uzaq olan şair, ürəyindən süzülən hissləri poetik ideyaya çevirməklə gözəl sənət əsərləri yarada bilir.

Şairin şeirlərinin gözəlliyi daha çox milli olması ilə, kökə, soya, mənəvi mənşəyə bağlılığı ilə əlaqədardır. Onun şeirlərində təbiilik var, müdriklik var, doğmalıq, bağlılıq var; bu təbiilik, doğmalıq, bağlılıq şairin vətən və təbiət haqqında yazdığı şeirlərdə daha qabarıq şəkildə özünü göstərir. Şairin Vətən qoxulu, təbiət ətirli şeirlərində bütöv Azərbaycan görünür.

Vətən, təbiət, dünya və insan barədə öz poetik düşüncələri olan Adil Cəmil gözəllik vurğunudur. O,

gözəlliyi şeirlərində əbədiləşdirərək gözəllik qarşısında estetik həyəcanını misralara hopdurur. Dünyaya və gözəlliyə heyran kəsilən şair hərdən özü də təbiətin bir parçasına çevrilmək istəyir, çünki dağlar, meşələr, şehli çəmənlər, kol dibində bitən bənövşələr, nəğmə deyən bulaqlar onu buraxmaq istəmir, xalq şairi Zəlimxan Yaqubun təbirincə desək, şair «ölüb bu yerlərdə qalmaq» istəyir. Şairin təbiət şeirlərində təbii peysaj detalı olan obrazlar çoxluq təşkil edir. Bu obrazlar həm də ümid və inam ifadə edir, mənəvi məzmun ifadə edir. Bu obrazlar içində bulaq, dağ, meşə, ağac, çiçək və s. detallar daha çox seçilir. Bu obrazlar sanki «dil açıb» danışır, qayğılarından, problemlərindən söhbət açır.

Şair vətəni sevdiyi kimi, xalqı da sevir. Onun şeirlərində bulaq səsi, çiçək təravəti, bahar nəfəsi, payız havası əks-səda tapdığı kimi, vətən məhəbbəti, xalq məhəbbəti də öz əksini tapa bilir.

Ana təbiətin doğma qoynunda ana vətəndən yazmağın özü də xoşbəxtlikdir. Bu xoşbəxtliyi yaşayan Adil Cəmil vətən torpağında açan çiçəklə, buludla, palıd ağacı ilə, dağla, şimşəklə, çayla və yaxud bulaqla dost kimi həmsöhbət olur, təbiətin qoynunda təbiətin bir parçasına çevrilir:

Yamacda çağlayan bulaq,
çağla mənim əvəzimə,
ağla mənim əvəzimə-
Dönmüşəm dərd heykəlinə;
Ağlaya bilmirəm daha.

«Təbiətdə təbiətəm»

Bu şeiri oxuyanda istər-istəməz Dədə Qorqud dastanından «Salur Qazan xanın evinin yağmalanması» boyunu xatırladım. Kafirlər Salur Qazanın yurdunu talan etmiş, yağmalamış, qız-gəlinləri əsir aparmışdır. Salur Qazan çayla, ağacla danışır, dərdini bölüşür Adil Cəmil də öz dərdini təbiət cisimləri ilə bölüşmək istəyir, ürəyini onlara açır

Göy-varağa şəkil çəkən
qızıl şimşək,
Sən mənim də dərdimi çək

Səmanı göy varağa bənzədən şair qızıl şimşəkdən dərdinin şəklini çəkməsini istəyir. «Dərdin şəklini çəkmək» əsl tapıntıdır. Bu misra ilə şair öz şəxsi dərdini yox, vətən dərdini, Qərbi Azərbaycandan qovulan soydaşlarımızın fəlakətə düçar olduqlarını, doğma ata-baba torpaqlarının, yurd yerlərinin kafirlərə qalmasını poetik ifadələrlə şeirə gətirib.

Öz ruhu, öz nəfəsi ilə oxuculara doğma olan Adil Cəmil ən dəyərli şeirlərini anaya, vətənə, təbiətə, insana həsr edib. Onun Vətən, təbiət şeirləri, eləcə də anaya, insanlara vurğunluq duyğuları, hissləri, eləcə də doğulduğu kənd, o kənddə udduğu hava, içdiyi su, keçirdiyi uşaqlıq illəri, könlü doymadığı Kəlbəcər mənzərələri oxucunun qəlbində gözəl ovqat yaradır, ürəyini işıq selinə bürüyür.

Vətən və təbiət haqqında həm təbii, həm də poetik misralar yaradan, özünəməxsus poetik düşüncə dünyasına malik olan Adil Cəmilin ürəyi həm də işğal

olunmuş torpaqlarla döyünür, «Kəlbəcərdi daha mənim and yerim» deyərək dünyaya səslənir, kəlbəcərlilərə səslənir:

Qəriblikdə qan ağlayır yurd yerim,
Kəlbəcərdi daha mənim and yerim.
And içək ki, kimsə pozmaz bu andı,
Kəlbəcəri unutmayın, amandı

«Kəlbəcəri unutmayın»

Poetik portret yaratmaq Adil Cəmilin bədii yaradıcılığının ən diqqətəlayiq xüsusiyyətlərindən biridir. Şair sözlə təbiətin mənzərəsini elə hərarət və məhəbbətlə yaradır ki...

...Quşqonmaz zirvədən baxdım izimə-
Zirvənin qartalı dedim özümə.
Burda bir bulaq da dəydi gözümə,
Dağlar gülümsədi: «Təzə çıxıbdır ».

«Dağlara bahar gəlib»

Şair ürəyilə dağ arasında bir doğmalıq, bir ahəng, bir uyarlıq görür. Murov dağı oxuculara canlı, yüksək bir varlıq kimi təqdim olunur. Murov dağı Vətən qədər böyük və ülvidir, Vətən qədər doğmadır.

Əyilməz dağların əzmini Adilin şeirlərində görmək mümkündür. Çünki o, dağlar oğludur. Dağlar oğlu olduğuna görə dağları yaxşı duyur, yaxşı dərk eləyir. Dağların ucalığını, əzəmətini, «səxavətini» hamıdan

yaxşı görür.

Dağların zirvəsini şair «zirvələr vətənin ucalığıdır» adlandırır. Deməli, şair Murov dağını da vətənin simvolu kimi mənalandırır. «Əyilməz dağların əzmini görən» şairi Murovsuz, Murovu da Adil Cəmilsiz təsəvvür etmək mümkün deyil. Onlar bir-birindən ayrılmaz qütblərdir.

Şeirlərini təbii və inandırıcı bir şəkildə qələmə alan şairin müşahidə etdiklərini çox adam müşahidə edə bilməz, təbiətdə bəzən elə anlar olur ki, bu anı görmək və duymaq üçün gərək Adil Cəmil olasan, təbiətin bu anını poeziya dilinə çevirə biləsən.

Təbiətin sirrini duyan, təbiət hadisələrini dərindəni dərk edən, təbiətdə, dünyada baş verən hadisələrə öz münasibətini bildirən şairin hər şeirində maraqlı, diqqəti cəlb edəcək çox şey var:

...Qərib quşlar qürbət eldən
Dönüb gəlir yuvasına,
Gül-çiçək ətri qarışır
Bu dünyanın havasına
Gələndə yaz.

«Gələndə yaz»

Adil Cəmilin təbiət lirikasında bir çox obrazlar var; «dağ», «dərə», «çay», «çinar», «dəniz», «bulaq», «bulud», «yağış», «günəş», «göl», «payız», «yaz» Təbiət leksikasına məxsus olan bu sözlərlə şairin şeirlərində tez-tez qarşılaşırıq. Şeirlərin bədii-estetik məziyyətini, emosional təsir gücünü artıran bu obraz-

lar Adil Cəmilin yaradıcılığında fərdi poetik məna kəsb edir. Təbiəti sevən, onun gözəlliyini vəsf etməyi bacaran şairin ilham mənbəyi Azərbaycan təbiətidir. Və bir də dünyaya göz açdığı kəndin-yurd yerinin təbiətidir. O, kənddə dünyaya gəlib. Ruhuyla, canıyla kəndə bağlıdır. Şəhərdə yaşasa da kənd üçün darıxır, kənd adamlarını unutmur, doğma yurdla, doğma adamlarla təsəlli tapır. Yurd yerlərinin gözəlliyi, kənd adamlarının saflığı, təmizliyi onun qələminə güc verir. Və yurd həsrəti şairin qələmində poetik duyğulara çevrilir:

Bu qış mənim qışım, baharım gəlməz,
Bu qar mənim qarım-yağır beləcə.
Ayrılıq uzanır, ürək usanır,
Ömrün fəsilləri axır beləcə

«Qarlı qış gecəsi»

Və yaxud:

Murov dağım - məğrur boyum,
Dəlidağım - köküm, soyum.
Qəzəblənən İstisuyum
Qaynayıb, buğlanıb, dağlar.

«Bağlı yollar».

Yollar bağlıdır. Şairin lirik qəhrəmanı Dəlidağdan -öz kökündən, soyundan uzaq düşüb. Çəkiləsi mümkün olmayan dərddi. Amma şair ümidini itirmir; qoç Koroğlunun qıya gələcəyinə, Dədəm Qorqudun haya gələcəyinə inanır. Elə onu yaşadan da bu

inamdı:

Daş tökülər, qaya gələr,
Qoç Koroğlum qıya gələr,
Dədəm Qorqud haya gələr-
Biləndə oxlanıb dağlar.

Ömrün fəsilləri Kəlbəcərsiz axıb gedir. Həsrətin ömrü uzandıqca ürək də usanır. Ürək həm də üşüyür:

Yurda kəfən biçir düşmən arşını,
Susuruq-çox şeylər tutur qarşını.
Çörək kəsdiklərin kəsir başını-
Ürəyim üşüyür, yaman üşüyür.

«Ürəyim üşüyür»

Şairin ürəyini üşüdən, həm Kəlbəcərin işğalıdı, həm də Kəlbəcərin yeraltı, yerüstü sərvətinin ermənilər tərəfindən talan edilməsidi. Meşələr qırılır, bulaqlar quruyur, bir sözlə, doğma yurd yerlərinə «kəfən biçir düşmən arşını».

Həmişə özünü təbiətlə təmasda görən, təbiətin gözəlliyini, möcüzələrini müşahidə etməkdən zövq alan Adil Cəmilin ürəyi təbiətə can atır, təbiətə vurğunluğunu, heyranlığını, sevgisini şeirlərində əks etdirir. Fikrimizin təsdiqi kimi aşağıdakı misralara diqqət yetirək:

...Çiçəklərin gözündən
Al günəş boylanırdı.

...Hanı külək, yırğalaya cökəni?-
Budağından damcılaya bal indi

...Burda dağlar üfüqlərə dirənib,
Burda dünya gül ətrinə bələnib.

...Səhra qumluğunda səhra çiçəyi
Kişi paltarında qıza bənzəyir

...Ayın işığından gözümə çəkib
Çayın işığından içib getmişəm

Adilin lirikasında təbiət həm də simvoldur. Məsələn, Çinar ağacı torpağa bağlılığın təcəssümüdür. Murov dağı ucalıq, böyüklük, yenilməzlik, bulaq saflıq, təmizlik rəmzidir.

Dağ obrazı həm də qədimlilik mənasını, ulu nəsil mənasını ifadə edir. Bir sözlə, şair təbiəti əlvan, rəngarəng boyalarla əks etdirməklə, meşədən, dağdan, bulaqdan, dənizdən, çinardan, palıddan, bahardan yazmaqla vətənin lirik obrazını yaradır.

Hər bir təbiət şeiri vətənpərvərlik mötivləri ilə aşılanan şairin daxili varlığını, mənəvi həyatını yaxından məşğul edən kənddir, ata yurdudur, qoynunda böyüdüyü meşələr, dağlar, yamaclar, bulaqlardır bir sözlə, bütün təbiətdir.

***

Təbiətin möcüzələrini, gözəlliklərini müşahidə etməkdən zövq alan şair təbiətlə söhbət edir, onunla

ən yaxın, ən doğma bir insan kimi davranır, vaxtsız bir çiçəyin solması, yarpağın saralması, budağın qırılması onu həyəcanlandırır. Bu, səbəbsiz deyil, çünki şair təbiətin «dilini» yaxşı başa düşdüyünə görə quruyan ağacın, solan çiçəyin nə dediyini anlayır. Anlamaq dərdi böyük dərddi. Təbiətin də «dərdini» çəkən, təbiətə suallar verən, təbiətin özündən suallarına cavab alan, təbiətlə ünsiyyətdən xüsusi bir zövq alan Adil Cəmil harada olursa-olsun heç vaxt təbiətə biganə qalmayıb, təbiətin gözəlliyini qələmə almaqdan usanmayıb.

Şair Qırğıstanda olarkən (2015) Böyük çölü belə təsvir edir:

Alaçıqlar, yurtalar
Bitib köbələk kimi.
Gül-çiçəkli yamaclar
Dağlara bələk kimi.

Yaxud «Don çayı» şeirindən bu misraları oxuyaq; bu misralar da Adil Cəmilin şairlik məharətinin nümunələrindən biridir.

Sahilində bir söyüdə söykənib,
Ağ köpüklü göy ləpənə baxırdım.

...Meh əsdikcə yellənirdi qovaqlar,
Ləpələrin bir-birini kəsirdi.

Adil Cəmil həm təbiəti sevir, həm də şeirlərilə təbiəti sevdirməyi bacaran şairdir. Onun poeziyasının

aparıcı mövzusu təbiətin gözəlliyi, bənzərsizliyidir.

Göyərib gölmə-gölmə,
Allahın buz yolu da.
Fərəhdən çiçəkləyib
Qaratikan kolu da

...Yazın «əlində» gəlib
Qışın «qanlı köynəyi».
Sanki çıxır canından
Təbiətin göynəyi

«Çiçəkləmə»

Şeir təbii və inandırıcıdır. Şair təbiətin bir anını qələmə alıb ki, bu da onun dərin müşahidə qabiliyyətindən irəli gəlir. Həmin o anı görmək üçün Adil Cəmilin müşahidəsi lazımdır, Adil Cəmil kimi təbiətlə nəfəs almaq lazımdır.

Şairin təbiətlə bağlı şeirlərindən təbiət ətri gəlir, təbiətin təravəti, gözəlliyi hiss olunur, duyulur.

Adil Cəmil təbiətlə nəfəs alan, təbiətin rənglərini, bu rənglərin çalarlarını, gözəlliyini şeirlərində canlandıra bilən, təbiətin gözəlliyini poeziya dilinə çevirməyi bacaran şairdir.

O, təbiətə poetik don geyindirməyi ilə seçilən, təbiətdə sözün və nəfəsi olduğunu duyan, təbiətin «dilini» öyrənən şairdir və bir şair kimi təbiətlə könül söhbəti etməyə daha çox can atır.

Onun təbiət mövzusunda yazdığı şeirlərdən, təbiət barədə söhbətlərindən də təbiət ətri gəlir, təbiətin tə-

ravəti hiss olunur. Bəli, təbiətdəki rənglərin gözəlliyini poeziya dilinə çevirmək, təbiət haqqında həm təbii, həm də poetik misralar yaratmaq Adil Cəmilin bədii yaradıcılığının ən diqqətəlayiq xüsusiyyətlərindən biri olmaqla yanaşı, həm də onun bu səpkili şeirlərindən Azərbaycan təbiətinin ətrini, qoxusunu duymaq mümkündür.

«EŞQSİZ EY DÜNYA NƏDİR DƏYƏRİN?»

Adil Cəmil lirik şairdir. Onun poeziyasının özəlliyi, təkrarsızlığı, bənzərsizliyi sevgi nəfəsli, məhəbbət ətirli şeirlərində də qabarıq şəkildə əks olunur. Ülvi məhəbbəti, saf duyğuları qələmə alan şairin sevgi lirikası onun yaradıcılığında mühüm yerlərdən birini tutur.

Adilin lirik qəhrəmanı kamil bir insandır. Sevmədən yaşaya bilməyəcəyini yaxşı dərk edir. Məhəbbət yolunda hər cür əzaba qatlaşır, ayrılıq oduna yansa da, həsrət iç dünyasını qarsalasa da, ruhdan düşmür, əksinə qarşısına çıxan bütün maneləri dəf edir, məhəbbət yolunda canından keçməyə hazır olduğunu bildirir, bu yolda mübarizə aparır. Sevgi uğrunda mübarizə aparmaq insanın öz üzərində apardığı mübarizədir. Şair bu mübarizədə məğlub olmur. Məğlubiyyət böyük sevgilərlə yaşayan insana yaddır.

Sevgi həyatı, həyat da sevgini yaşadır.

Sevgi həm də haqqa çağırışdır. Sevən insan ruhən təmizlənir, saflaşır, haqqa söykənib haqq uğrunda mübarizə aparır. Adil Cəmil də ürəyi sevgilərlə dolu bir şair kimi insanları haqq uğrunda mübarizəyə çağırır; haqq uğrunda, həqiqət uğrunda mübarizədə qalib gəlmək, həyat uğrunda mübarizədə məğlub olmamaq deməkdir.

Hər iki mübarizənin ilham mənbəyi ilahi sevgidir. İnsan sevgidən güc alır, dəlicəsinə sevərək istəyinə nail olur.

Adil Cəmilin məhəbbət mövzusunda yazdığı lirik

şeirləri oxuduqca onun özünəməxsus duyumları, müşahidələri diqqətdən yayınmır. O, sevgi şeirlərində öz orijinallığı ilə ilə seçilir, yeni deyimləri, fikirlərilə ürəkləri fəth eləyir. Sevmədən yaşamaq yaşamaq deyil. Sevdiyindən ötrü hər an darıxan, ürəyi sinəsini yandlıran, özünə yer tapa bilməyən, yerə-göyə sığmayan lirik qəhrəmanın duyğuları dəniz kimi çağlayır. Bu duyğular əslində bir ürəyin sevgi dolu, həsrət dolu çırpıntılarıdır.

Lirik qəhrəmanın həsrət dolu ürəyini «dilləndirməsi», təmiz, ülvi məhəbbətdən danışması oxucunun yanar ürəyinə sanki su çiləyir, çünki lirik qəhrəmanın duyğuları, fikirlərilə oxucunun fikir və duyğuları üst-üstə düşür. Deməli, şair sevgi şeirlərində həm də oxucuların məhəbbətindən, sevgisindən söhbət açır. Adil qələminin qüdrəti də elə bundadır.

Şairin şeirlərində lirik qəhrəmanın duyğularından, hiss və həyəcanlarından da hiss edirik ki, o «darıxıb». Darıxmaq - sevginin kodudur. Adil Cəmil «darıxmaq» sözünü işlətməsə də, bunu onun şeirlərinə hopan duyğulardan görmək mümkündür. «İlk məhəbbət yarası»nı unutmayan şair illər keçsə də ilk sevgisi yenə də qanında dövr eləyir və o, həyacanla soruşur:

Soruşuram səni səndən xəbərsiz,
Bulud gözlüm, gün baxışlım, hardasan?
Sevgi böyük, tale dönük, mən fərsiz,
Ha üzsəm də əl çatmayan adasan.

Nə tez uçdu quş qanadlı bu illər,
Boynu bükük lal bənövşəm, hardasan?
Dəyişsə də aylar, illər, fəsillər,
Elə bilmə dəyişmişəm, hardasan?

«İlk məhəbbət yarası»

Şairin kövrək qəlbinin döyüntüləri, vurulduğu gözələ münasibətində gül kimi açılır və bu sevgi mənzərəsi oxucunun gözləri önündə canlanır.

Yer üz, göy üzü nə işıqlıdır,
Bu dünya sənlə yaraşıqlıdır.
Közərir köksümdə bir dəli həvəs-
Mən buna məhəbbət deməyimmi bəs?

Göyün qübbəsindən səda gəlirsə,
Ayrılıq yetişib, vida gəlirsə,
Alovsuz, ocaqsız yanırsa bir kəs,
Mən buna məhəbbət deməyimmi bəs?

«Udduğum havasan, aldığım nəfəs»

Alovsuz, ocaqsız yanan lirik qəhrəmanın vüsalının ulduzu göydən qopmur ki, qopmur. Vüsalın göydən ulduz kimi qopacağına aşiq də inanmır, elə oxucunun özü də. Çünki həsrətin naləsi ney kimi eşidilməkdədir.

Vüsalın ulduzu göydən qopdumu?
Həsrətin naləsi neydən qopdumu?
Sən ki and içmişdin küsən deyilsən
Küsmüsən, deməli, bu, sən deyilsən.

«Bu, sən deyilsən»

Şairin məhəbbət qoxulu şeirlərini oxuduqca misralara hopan sevinci, kədəri, həsrəti, qəmi görməmək olmur. Elə misralar var ki, ürəyə sevinc gətirir, elə misralar da var ki, ürəyi qəmə bürüyür, amma bu qəmin, kədərin, həsrətin özündə də bir ümid işığı var. Ümid olmasa sevgi də olmaz. Ümid həm də sevgi deməkdir, sevmək deməkdir.

Adil Cəmil ümidsizlərə ümid verən şairdir. Onun hər bir sevgi şeirində yeni fikirlər, yeni bənzətmələr, təzə-tər duyğular var. Bu fikirlər, deyimlər poetik kəşfdi, bənzərsiz tapıntıdı. İndi oxuyacağınız bu fikirləri kimi:

Baxışım utanır baxışlarından,
Sənin gözlərində gözlərim əsir
Qəfil zəlzələdən özüm bir yana,
Dağlarım titrəyir, düzlərim əsir.

«Uzaqdan uzağa»

Yaxud bu misralara diqqət yetirək:

Göz yaşımdan göl yaranıb,
Sən bu gölün sonasısan.
Hara uçsan gəlib yenə,
Ürəyimə qonasısan.

«Göz yaşımdan göl yaranıb»

Obrazlı söz və ifadə böyük yaradıcılıq səyləri tələb edir. Poetik mənalandırma bacarığına malik olan Adil Cəmilin aşağıdakı misralarına diqqət etsək görərik ki, şeir sənətinin özünəməxsusluğu onun obrazlılığındadır.

*Nə bilim, kim bilir-bəlkə də mənə
Bir heykəl qoymusan ürək ahından.

*Nəfəsinlə güllər açan dibçəkdə,
Elə mən də gül olmağa gəlmişəm.

*Hara uçsan gəlib yenə
Ürəyimə qonasısan.

Bu misralardan da göründüyü kimi, poeziya aləmində öz sözünü deyə bilən şair oxucularla poetik nəfəslə danışır, oxuculara ilahi zövq aşılayır.

Məhəbbət mövzusu Adil Cəmilin yaradıcılığında özünəməxsus bir yer tutmaqdadır. Şairin yaşı altmış yeddini haqlasa da onun lirik qəhrəmanı cavandır, sanki bığ yeri təzəcə tərləyib, təzəcə eşqə düşüb.

Adilin sevgi şeirləri solmayan çiçək kimidir. Bu şeirləri on beş yaşında da, iyirmi yaşıqnda da, altmış yaşında da, yüz yaşında da «qoxulamaq» olar. Axı, məhəbbət əbədidir, axı, hər yaşda sevmək mümkündür. Və bir də məhəbbət yaşa baxmır. Şairin lirik qəhrəmanı da altmış yeddi yaşında da, iyirmi yaşında olduğu kimi sevir, amma bu sevgi altmış yeddi yaşdakı sevgisindən fərqlənir.

Gəlin «Ürəyim» şeirindən bu misralara diqqət yetirək:

O qız gələn deyil haraya, haya-
Sevməyən sevəni salarmı saya?
Sığışa bilməyib bu gen dünyaya
Qurmusan özünə tələ, ürəyim.

Bu şeiri Adil Cəmil otuz dörd yaşında qələmə alıb. Aşağıdakı şeiri isə isə altmış dörd yaşın astanasında yazıb:

Sənə qovuşmağa yoxdur əlacım,
Ömür xərcləməkdə boldur xəracım
Adiləm, ağarıb o qara saçım,
Dumanlı sevdasan ağ başımda sən.

Hər iki şeirdə lirik qəhrəmanın ürəyi ilahi eşqlə çağlayır. Heç nə dəyişməyib, dəyişən qara saçların ağ saçlarla əvəz olunmasıdı. Ürək isə cavandır, eşqlə döyünür. Hisslər, duyğular da dəyişməyib, yenə də bulaq kimi qaynayır. Yenə də əvvəlki kimi lirik qəhrəmanın dəniz könlündə coşub-daşır.

Şair gözəlliyin vurğunudur. Elə ona görə də həmişə gözəllik axtarışındadır. Şairin lirik qəhrəmanı gözəllik yanından biganə ötüb-keçə bilmir, ayaq saxlayır, gözəllikdən mənəvi zövq alır.

Gözəlliyi görməmək, gözəlliyə vurulmamaq göydə günəşi danmaq deməkdir, günəşi görməmək demək-

dir.

Gözəlliyi duymaq, ülvi məhəbbətlə tərənnüm etmək, eşqə sədaqətli olmaq Adil Cəmil yaradıcılığına məxsus olan xüsusiyyətlərdən biridir.

«O eşqin sarayı uçmayıb gülüm» şeirində eşqə, məhəbbətə sədaqətindən, vəfalı olmasından danışan şair duyğularını belə tərənnüm edir:

Vaxt keçib - varımla yoxum dəyişib,
Elə düşünmə ki, ruhum dəyişib.
And olsun Allaha yuxum dəyişib
Sən mənim yuxumdan qaçandan bəri.

Adilin sevgi şeirlərinin sehrinə düşdükcə, böyük və həssas qəlbin səsini eşitdikcə Əkrəm Cəfərin bu sözlərini xatırlayırdım: «Həqiqi şeir insan qəlbinin canlı aynası, gözəl sənətlərin ən gözəlidir. Şeirdə həm musiqinin ahəngi, ritmi, həm rəsmin rəngarəng daxili cazibəsi, həm heykəltaraşlığın füsunkar hüsnü vardır. Şeir ən gözəl, ən incə fikirləri böyük və həssas qəlbin səsləri ilə canlandırır, hiss və fikir arasında bir körpü yaradır. Şeir insan ruhunun dilidir. Şeir gözəl, incə, dərin fikirlərdən hisslər, hisslərdən fikirlər doğuran sənət əsəridir. Gözəl şeir qəlbdə qanın cərəyanını arxasınca çəkib aparan, o cərəyanı ritmə, ahəngə, musiqiyə çevirən bir sənətdir». Görkəmli ədəbiyyatşünas-alim, akademik Əkrəm Gəfər sanki bu fikirləri Adil Cəmilin şeirləri haqqında söyləmişdir. Bu fikirləri bölüşərək mən də əlavə etmək istəyirəm ki, Adil Cəmil xalqa sevdirən bir cəhət də onun şeirlərinə hakim kəsilən saz ruhudur. Saz milli kökdən,

millilik isə şeirin mayasından qaynaqlanır.

Sazın ruhu türkün ruhudur. Əbəs yerə deməyiblər ki, harda saz var, orda türk var. Adilin damarlarında türk qanı axır. Məhz ona görə də şeirlərinə hopan sazın ruhunu öz ruhumuz hesab edirik. Məhz ona görə də bu şeirlər bizə doğmadır. Saz xalq mənəviyyatının ifaçısı olduğu kimi, Adilin şeirləri də iç dünyamızı əks etdirir. Sazın səsində qeyri-adi bir sehr olduğu kimi, Adilin məhəbbət şeirlərində də bir sehr var, bir cazibə var, milli ruh var

***

Darıxmaq - ərz elədiyim kimi sevginin kodudur. Hərə bir cürə darıxır. Hər aşiqin özünəməxsus darıxma duyğuları var, amma Adilin lirik qəhrəmanının darıxmağı bir özgə darıxmaqdır, başqa aşiqlərin darıxmağına bənzəməyən darıxmaqdır.

Gəl, qoyma sevincim qəmə boyana,
İntizar qəlbimə xal saldı, tez gəl.
O qədər gəzdim ki, o yan-bu yana
Ayağım yollara yol saldı, tez gəl.

«Səni gözləyirəm»

Və yaxud:

Pünhan eşqim gəlmir vecə,
Yeyir məni dərd gizlicə.
Sənsiz günüm qara gecə-
Bu gecəni səhər eylə.

«Bu ummanda mən bir ada»

Şair məhəbbət duyğularını bir rəssam kimi, heykəltaraş kimi gözlərimiz önündə canlandırmağa nail olur, oxucu sevənin də, sevilənin də yüksək mənəvi keyfiyyətlərə malik olduğunu hiss eləyir. Akademik Məmməd Arif yazırdı: «İnsanın necə işıqlandırılması nöqteyi-nəzərindən poeziyamıza yanaşanda fərəhli bir mənzərə ilə qarşılaşırıq. Fərəhli orasıdır ki, şeirimiz müasirlik pafosu ilə yaşayır, onun əsl qəhrəmanı bizim qabaqcıl, şüurlu, yüksək mənəvi və zehni keyfiyyətlərə malik müasirimizdir». - Lirik qəhrəmanın daxili əhval-ruhiyyəsini, onun yüksək keyfiyyətlərə malik olmasını əks etdirən şair gördüyü gözəllikdən, gözəldən ilhama gələrək duyğularını daha təsirli, daha obrazlı şəkildə ifadə edir. O, insani duyğularını, həyacanlarını hər şeirində əks etdirməklə bərabər, poetika, sənətkarlıq cəhətdən də ən dəyərli sevgi şeirləri yarada bilmişdir. Şair sevgi şeirlərində bir insan qəlbinin istək və arzsunu, hiss və həyəcanını, ayrılıqdan doğan əzab və iztirabları, narahatçılığı və s. bu kimi xüsusiyyətləri böyük məharətlə ifadə edir.

Adilin sevgi şeirlərində Məcnun sevgisinin müqəddəsliyi var. Şairin saf və müqəddəs duyğuları, Məcnunanə hissləri hər şeirin hər misrasına çöküb. Şairin hər şeirində coşub-daşan hisslərinə, həyəcanlarına şahidlik edirik.

Məcnun Leyliyə qovuşa bilərdi. Ona bu yolda kömək etmək istəyənlər də vardı. Amma Məcnun bununla razılaşmadı. Razılaşsaydı, insani hissləri, duyğuları «ölərdi», ürəyində şəhvani hisslər baş qal-

dırardı. Şəhvani hisslərin təmiz sevgi hisslərinə dəxli yoxdur. Məcnun sevgisinin ilahiliyi, ucalığı, paklığı onun ilahi hisslərilə bağlıdır.

Adil Cəmil sevgisi də Məcnun sevgisidir. Ona görə də belə yazır: «Nə yaxşı ki, sevən kəslər qovuşmur, Qovuşanın qiyməti nə, qədri nə!». Onun duyğuları ilahi və bəşəri duyğulardır. Bu duyğular, şair qəlbinin zənginliyi, təmizliyi onun hər şeirində hiss olunur. Və bu duyğular onun ilahi sevgisindən, xəbər verir, ülvi və təmiz hisslərindən xəbər verir.

Bu misralarda şair sevgi hisslərini belə təcəssüm etdirir:

Gözlərini gözlərimdə saxladım,
Üzdə gülüb ürəyimdə ağladım.
Bilmədim ki, göydəyəm, ya yerdə mən,
O gözlərə baxa biləm bir də mən.

«O, gözlərə baxa biləm»

Həsrətdən doğan kədərini, ayrılığın doğurduğu iztirabları, daxili sıxıntıları dilə gətirir. Lirik qəhrəmanın keçirdiyi hissləri, sarsıntıları, küskünlüyü qələmə alan şair qəhrəmanın daxili hiss və duyğularını təbiətin təsviri ilə qarşılıqlı şəkildə verir ki, bu da şeirin təsir qüvvəsini daha da artırır.

Adil Cəmilin sevgi şirlərində hər kəs özünü görə bilir, tapa bilir və həyatın şirinliyini, dünyanın gözəlliyini dərindən duyur, duyaraq mənalı bir həyat yaşamağa, eləcə də insanlığı yaşatmağa çalışır.

Şairin məhəbbətlə yoğrulmuş şeirlərində təkcə in-

sana sevgidən bəhs olunmur, həm də dünyaya, təbiətə, vətənə sevgidən danışılır. Vətənə, təbiətə olan sevgidən növbəti bölümdə az-çox danışmağa çalışacağıq. İndisə insana-qadına olan ilahi sevgidən, ülvi məhəbbətdən söz açır və onu da vurğulayıram ki, şairin özünəməxsus gözəllik meyarı, sevgi meyarı var. Axı, hamı eyni cürə sevə bilməz, gözəllikdən eyni cürə həzz ala bilməz. Hər kəs özünəməxsus bir şəkildə sevsə də, hər kəsi birləşdirən ümumi bir qüvvə var - sevgi. Adil Cəmil yaradıcılığında sevgi, məhəbbət qırmızı xətlə gəlib-keçir, necə deyərlər, şairin dünyası sevgi üzərində qurulub. Bəli, onun yaradıcılığı başdan-başa sevgi üzərində bərqərar olub. O, nədən və kimdən yazırsa-yazsın, hansı mövzunu qələmə alırsa-alsın, hər misrasında sevgi var, məhəbbət var.

Gözəldən ilham alan, gözəllik önündə qar kimi əriyən şairin şeirlərində yuxarıda ərz etdiyim kimi, vüsal da var, ayrılıq da, cəfa da, səfa da, sevinc də, acı göz yaşları da. Məhz ona görə də bu şeirlər oxucunu yormur, əksinə, oxunaqlıdır, maraqlıdır, təsirlidir, ürəyi ovsunlayandır.

Rus tənqidçisi V. Belinskinin bu fikirlərini xatırlamaya bilmirəm: «Məhəbbətin də güllər kimi, insanın həyatı kimi öz inkişaf qanunları var, öz yaşı var. Onun da zinətli baharı, öz isti yayı, nəhayət, bəziləri üçün ilıq, işıqlı və məhsuldar, başqaları üçün soyuq, çürüntülü və barsız payız vardır». Gözəl deyilib, haqlı deyilib.

Adil Cəmilin sevgi lirikasında həm sevən aşiqin

ülvi duyğuları əks olunur, həm də sevənin də, sevilənin də bir-birilərinə olan münasibətləri göstərilir. Bu münasibətlərdə təmiz və saf məhəbbətdən söhbət açılır, necə deyərlər, sevgidə olan müqəddəslik önə çəkilir, bu məhəbbətin ağrı-acıları onu incitmir, əksinə,aşiq öz sevdiyinə qovuşmasa da məhəbbətini ürəyində qoruyub-saxlayır, onun cəfasına dözür, məhəbbətindən şikayətlənmir, giley-güzar eləmir. Gəlin «Bir eşqi yaşadan» şeirinə diqqət yetirək:

Bir eşqi yaşadan xatirələrdə,
Ayları, illəri əyləyə billəm.
Bu da bəxt işidir, tale payıdır,
Sən məni sevmədin - neyləyə billəm?

Sinəmə o qədər dağ çəkmisən ki,
Mən kimə dərdimi söyləyə billəm.
Məhəbbət həmişə özxoşunadır,
Sən məni sevmədin - neyləyə billəm.

Bu misralarda sevən aşiqin duyğuları, həsrət yanğıları o qədər təsirli ifadə olunub ki, sanki şeir yox, Adil Cəmilin ürəyini oxuyursan.

Adil Cəmilin şeirləri bir-birindən mənalıdır, təsirlidir. Bu şeirlər bir-birinə oxşamır, bir-birini təkrarlamır. Hər şeirdə şair sevgisinin təmizliyi, ülviliyi əks olunur, lirik qəhrəmanın əsl sevgisi müxtəlif prizmalardan göstərilərək oxuculara təqdim olunur.

Şair qələmə aldığı məhəbbət şeirlərində hiss və həyəcanlarını, fikir və düşüncələrini, təəssüratlarını

aydın və sadə bir dildə elə ifadə edir ki, qaranlıq heç nə qalmır, hər fikrin mənası aydın olur, şeirdə şairin nə demək istədiyini oxucu dərhal anlayır. Məhəbbətin gücünü, qüdrətini oxucu öz ürəyində hiss eləyir, bu şeirlər onun qəlbini titrədir, can evini ağappaq işığa bələyir, onu bulaq suyu kimi duruldur, saflaşdırır.

Şeirin maraqlı, təsirli, inandırıcı və cazbədar alınması, şeirin təbii hisslərdən, təbii duyğulardan yaranması ilə bağlıdır. Axı təsirlənmədən, duyğulanmadan, məhəbbətin sevincindən, yaxud gətirdiyi qəm, kədərdən «ilham» almadan necə yazmaq olar? Adil Cəmil sünilikdən, qondarmaçılıqdan, yalançı pafosdan, yalançı sevgidən uzaq olduğuna görə, əsl məhəbbət hisslərini şeirlərinə hopdurduğuna görə sevgi lirikası oxucuları öz cazibəsində saxlayır. Və onun sevgi şeirlərinin cazibəsindən çıxmaq o qədər də asan olmur.

Öz təmiz, ülvi hisslərini ifadə edən şair, eyni zamanda sevdiyi gözəlin də hiss və duyğularını əks etdirir. O, bir aşiq olaraq məşuqun duyğularını da, fikir və düşüncələrini də dərindən-dərinə duyur və duyduqlarını dilə gətirir.

Məşuqun etinasızlığını hiss eləməmək çətin deyil. Oxucu onu da hiss eləyir ki, aşiq bu sevgidə günahkar axtarmır. Sadəcə olaraq ürəyində baş qaldıran duyğuları qələmə almaqla təskinlik tapır.

Şairin lirik qəhrəmanı öz sevgisini bir an da olsa unutmur. Yarın gözlərindən nə demək istədiyini, qəlbindən keçəni kitab kimi oxuyur və oxuduğunu unuda

bilmədiyi sevdiyinə söyləyir:

Bilirəm gözlərin nə deyir mənə,
Qəlbindən keçəni oxuyuram mən.

«Sən özgə, mən özgə»

Aşiqin sevdiyi gözəl sanki mələkdi. Şair mələyin adını çəkməsə də bunu duymamaq mümkün deyil:

Sənin ki uçmağa qanadların var,
Qanadı qırılan mənəm, incimə.

«İncimə»

Məhəbbətin gücü və qüdrəti, ayrılığın, həsrətin ömrüylə ölçülür. Bu ayrılığa, bu həsrətə sevginin əzab-əziyyətinə dözməyənlərdən əsl sevgi gözləmək də əbəsdir. Həsrət də, ayrılıq da bir məhəbbət sınağıdır, gərək bu sınaqdan çıxa biləsən. Bu sınaqdan çıxa bilməyənlər əsl sevgiyə layiq ola bilməzlər ayrılıq insana kədər, qəlb ağrısı gətirsə də, onun can evini dumana bürüsə də dəyanətli olmaq gərəkdir, ruhdan düşməmək gərəkdir. Axı həyat mübarizədir. Məhəbbət yolunda da mübarizə aparmaq lazım gəlir. Bu mübarizəni aparmaq üçün mübariz olmaq gərəkdir. Bu mənada lirik mənin apardığı sevgi mübarizəsinə heyrətlənməmək olmur. İlk sevgi qığılcımları ürəyinə düşən gündən bu günə kimi alışıb-yandığının şahidi oluruq. Amma o, yenə də sevgi uğrunda apardığı mübarizədən əl çəkmək istəmir.

Şairin lirik qəhrəmanı nə qədər həsrət çəksə də, bu cəfanın səfasına inanmasa da yenə öz eşqinə sadiqdir, öz sevdiyinə vəfalıdır.

Cəfa səfanın ayrılmaz hissəsidir. Cəfa olmayan yerdə səfa da olmaz. Cəfa aşiqin çəkdiyi iztirablardır; bu iztirablar aşiqi addım-addım vüsala yaxınlaşdırır, amma çox zaman aşiq vüsal duyğusunu yaşaya bilmir.

Bu şeiri yazanda Adil Cəmilin otuz beş yaşı vardı. Bu şeirdən də görünür ki, şairin lirik qəhrəmanı yenə də əvvəlki kimi dəlicəsinə sevir.

Səndən yaxını yox, səndən uzağı,
Can verən bir eşqin son nəfəsiyəm.
Sən özgə ocağın şamı, çırağı,
Mən özgə ocağın pərvanəsiyəm.

Sevgi həqiqətmiş, məhəbbət gerçək,
Eşqindən od alan odlu baxışam.
Sən özgə çəməndə açılan çiçək,
Mən özgə çəmənə yağan yağışam.

«Sən özgə, mən özgə»

Bu şeir isə 2011-ci ildə qələmə alınıb:

Axıb gedir aylar, illər, sənələr,
Həsrət məni bir nar kimi dənələr.
Bu ayrılıq saçlarıma dən ələr,
Qəlbdə ahım, saçda dənim hardasan?
Ömür keçir, ömrüm-günüm, hardasan?

«Hardasan»

Şeirdə cəfakeş aşiqin həsrətdən yanan ürəyini aydınca görürük. İllər keçib. Şair yaşa dolub. Saçlarına dən düşüb. Amma ilk sevgisini unuda bilmir. Bu sevgini ürəyində yaşadır və yenə də həsrət dolu şeirlər yazaraq sevgi uğrunda hansı cəfalara dözdüyünü, heç vaxt ümidsiz olmadığını dilə gətirir. Oxucuları da təmiz ürəklə sevməyə səsləyir. Və bəzən də ayrılığın vüsaldan «şirin» olduğu qənaətinə gəlir. Yara qovuşmaq ürək ağrılarının sağalması deməkdir. Ayrılıq isə bu yaraların ürəkdə göynəməsidir. Bu yaralar göynədikcə sevdiyin də yada düşür, unudulmur, hər gün xatırlanır. Deməli, bu sevgi yaşayır və sevəni də yaşadır.

Adil Cəmilin sevgi şeirlərini oxuduqca həm kövrəlir, həm həyacanlanır, həm də «sevgi nədir? məhəbbət nədir?» suallarına cavab tapmış olursan.

Məhəbbətin gözəlliyi onun yolunda çəkilən iztirabdadı. Sevgini daha da güclü eləyən, əbədi eləyən, daha da saflaşdıran, müqəddəsləşdirən onun insana çəkdirdiyi ayrılıqdadı, həsrətdədi. Şairin lirik qəhrəmanı çox zaman öz sevdiyinə qovuşmasa da, ondan ayrı düşsə də, o, ruhən, qəlbən sevdiyilə bir yerdədir, yenə də məhəbbətinə sadiqdir, əhdinə etibarlıdır, vəfalı bir aşiq kimi ümidsizliyə qapılmır və hər an sevgisilə görüşməyə can atır. Onun sevgilisinə olan məhəbbəti bütün məhəbbətlərin fövqündə dayanır. Bu, belə də olmalıdır. Axı bir gözəli sevmədən kəpənəyin uçuşunu, quşların nəğməsini necə sevmək olar? Təbiəti, dünyanı, insanları sevdirən məhəbbət hissləri deyilmi?

Adilin əsl sənət nümunəsi sayıla biləcək sevgi şeirlərindən birini «Görən olar eşqimi» nəzərdən keçirir və saf və təmiz məhəbbətin tərənnümünə heyrətlənməyə bilmirəm. Məni heyrətləndirən həm də odur ki, şair məhəbbət şeirləri yaza-yaza özündən də xəbərsiz içindəki ağrını əsl poeziyaya çevrir və bu poeziyanın mayasında ilahi eşq var. Mayasında ilahi eşq olan poeziya da ölümsüzdür. Elə sevgi ölümsüzdür. Nə qədər həyat var, sevgi də var.

Məhv eləsin qoy məni bu «zəlzələ»-
Dağlarımı, düzlərimi saxlama.
Ağ varağı kəfən bilib bükülən,
Boynu bükük sözlərimi saxlama.

...Axı ürək necə olsun daş kimi?..
Qınamıram, qınamıram heç kimi.
Yalvarıram görən olar eşqimi-
Gözlərində gözlərimi saxlama.

Və yaxud «Səni düşünərkən» şeirindən bu misraları nəzərdən keçirək.

...Həsrətin mən düşən qaranlıq quyu,
Vüsalın işıqdır üz tutmuşam mən.
Səni düşünəndə bu illər boyu
Unutmaq sözünü unutmuşam mən.

Görünür unutmaq deyilmiş asan,
O sevgi içimdə yanır gizlicə.

Sən mənim ruhuma yad olmamısan
Mən səni yadımdan çıxarım necə?

Bu şeirdə yarsız keçən günlərdən bəhs edir. Yarsız keçən günlər ağrılı-acılıdır, amma bu ağrı-acının özündə də bir şirinlik var. Adilin poetik sualları belə bu deyilənlərin təsdiqi kimi oxunur:

...Ayların sonu ildir,
Alovun sonu küldür.
Taleyim mənə güldü:
-Sevdanın sonu varmı?

Durnalar öz köçündə,
Qarışqa fil gücündə
Bu sonsuzluq içində
Sevdanın sonu varmı?

***

Adil Cəmilin zəngin sevgi şeirlərinin məna tutumu böyükdür, məcazi mənada işlədilən söz və ifadələrə bol-bol rast gəlmək mümkündür. Bəzən şairin sevgi şeirlərində qəm, kədər, həsrət, ayrılıq daha qabarıq şəkildə verilir. Gecikmiş məhəbbətin, əbədi ayrılığın doğurduğu qəm-qüssəni, kədəri, həsrəti özündə ümumiləşdirən misralardan da aydın olur ki,aradan uzun illər keçməsinə baxmayaraq sevgi yaraları qaysaq bağlamayıb. Bu yara sağala bilərmi? İnanmaq çətindir.

Amma aşiq yenə də məşuqa öz sevgisini bildirir. Hələ də onu ürəyində yaşatdığını etiraf eləyir. Bu etirafdan görünür ki, əsl məhəbbət unudulmur, sevən də, sevilən də evli olsalar da əsl sevgini, ancaq ölüm unutdura bilər.

«İlk məhəbbətimə» şeirində oxuyuruq:

Bir səhər «Vağzalı» tutdu əlindən,
Tutulan könlümü seçə bilmədin.
Köçdün ər evinə ata evindən,
Amma ürəyimdən köçə bilmədin.

Biz yenə üz-üzə gəlirik hərdən,
Sinəmdə həsrətdən ocaqların var.
Onda uşaq idim, lal olurdum mən,
İndisə nə deyim, uşaqların var.

Çox zaman şairin lirik qəhrəmanı qovuşa bilmədiyi məhəbbətini həsrətlə xatırlayır, çəkdiyi əzab-əziyyəti gizlədə bilmir, sevginin qəlbində qoyub-getdiyi xatirələri, əzabı, sinəsində göynəyən ağrıları oxucularla bölüşməyə can atır ki, bu da təbiidir. Axı, şair öz kədərini, qəmini, sevincini oxucularla bölüşməyib, kiminlə bölüşəcək? Axı o, oxucular üçün yazır, özü də həqiqəti olduğu kimi ərz eləyir.

Şeirlərində biz eyni zamanda şair təxəyyülünün sonsuzluğunu görürük. Bu bənzətmələr, metaforik ifadələr şeirin bədii təsir qüvvəsini daha da artırır.

*Yarpaqlamaz sənsiz sevgi puçurum.

*Boynunu bükərdin bənövşə kimi.

*Sən mənim bəxtimə biçilən nursan.

*Saçı şəlaləm, Yanağı laləm.

*Yol çəkən gözlərin «ləpələnirdi».

*Nəfəsinlə güllər açan dibçəkdə.

*Bənzəyirsən yaz buludlu göyə sən.

*Qara gözlər fikir-xəyal dənizi.

Bu misralarda da zərif hisslərin ifadəsini görürük, şairin daxili aləmindən xəbər tuturuq.

Mənə elə gəlir ki, Adil sevgi şeirlərini qələmi ürəyinə batırıb yazır. Bu da onu göstərir ki, şair insan qəlbinin və ruhunun bütün incəliklərinə yaxşı bələddir. Yaxşı bələd olmasaydı sevdiyi gözəlin daxili dünyasında səssiz-səmirsiz «yaşayan» duyğuları belə çılpaqlığı ilə əks etdirə bilməzdi.

Həyatla, insanla bağlı olan hadisələri şeirə gətirən Adil Cəmilin lirik qəhrəmanı adi insan deyil, insan sevgisinin işığına üz tutan, sözü duyan, hiss edən, sevgini ucalardan uca tutan bir aşiqdir və bu aşiq öz eşqində dönməzdir. Şairin lirik qəhrəmanının xoşbəxtliyi, səadəti, varlığı məhəbbətin əlindədir, onun üçün məhəbbətsiz həyatın qiyməti də yoxdur. Onun üçün dünyada insanı ürəkdən, qəlbən sevən insanın olması lazımdır. O insanın yerini kimsə verə bilməz.

Adil Cəmil məhəbbət mövzusunda yazdığı şeirlərdə sədaqət və fədakarlığı, vəfanı, etibarı yüksək

qiymətləndirir, qadın üçün daxili gözəlliyi - ağlı, mərifəti, nəcibliyi xarici gözəllikdən daha önəmli sayır və sevgi şeirlərində həm də bədii-estetik düşüncələrini əks etdirir.

Həsrətdə də, intizarda da bir gözəllik duyan şair, qəmə öyrəncəli olub, yarın ayrılığına «öyrəşib» və bu qəm, bu ayrılıq onu üzüb əldən salmır, çünki daha əzab-əziyyətlərə alışıb amma bununla ayrılıqdan doğan kədər, qüssə və təəssüf hissləri ona rahatlıq verməsə də o, taleyilə barışmağa məhkumdur. İllər ötsə də ayrılığın odu, alovu təkcə canını, ürəyini yox, həm də ruhunu yandırır:

Mənə dərd vermisən sən bilə-bilə,
İqbalım bu imiş, qismətim belə.
Ruhumu yandıran həsrətin ilə
Çarpaz dağlanıbdır sinəm, incimə.

«İncimə»

Və yaxud bu misralara diqqət yetirək:

Burda ağaclar da necə kövrəkdi,
Saralan yarpaqlar dərdli ürəkdi.
Hicran aramıza Çin səddi çəkdi,
Küskün taleyimlə barışan mənəm.

Elə şairin rahatlığı da ayrılığın verdiyi narahatçılıqdadır. Çünki məhəbbətin gözəliyi onun yolunda çəkilən iztirablarda, ürəkdə qaladığı ocaqdadı, gözdən süzülən yaş damlalarındadı sevgini daha güclü edən, daha da müqəddəsləşdirən, saflaşdıran onun insana verdiyi əzabdadı, ona çəkdirdiyi ayrılıqdadı,

həsrətdədi.

Şairin lirik qəhrəmanı sevdiyinə qovuşmasa da, eşq yolunda gilə-gilə ərisə də ruhən, qəlbən sevdiyilə bir yerdədir, sevdiyinə ruhən qovuşur və ruhən sevdiyinə qovuşmaqla dünyanın ən xoşbəxt adamlarından biri olur.

Özünəməxsus yaradıcılıq yolu, orijinal üslubu olan Adil Cəmilin şeirlərində insanı yüksəldən müqəddəs duyğular, gözəl hisslər səmimiyyətlə verilmiş, bir çox obrazlar, ifadələr yeni məzmunda işlədilmiş, onun poeziyasına xarakterik olan yeni təşbihlər, məcazlar, epitet və metaforalar diqqətdən kənarda qalmamışdır.

O, öz səsi, öz nəfəsi olan bir şair kimi sevgi şeirlərində də poetik imkanlarının nə qədər böyük və geniş olduğunu açıb göstərə bilmiş, həssas və düşüncəli, səmimi bir şair kimi tanınmışdır. Özü səmimi bir insan olduğu kimi şeirləri də səmimidir, insan haqqında fikirləri də incə və səmimidir. Bu səmimiyyət sevgi şeirlərində daha parlaq şəkildə özünü büruzə verir. O, qadını saf və büllur bir varlıq kimi qəbul edir, eyni zamanda sevgi şeirləri vasitəsilə yüksək əxlaqi keyfiyyətlər, gözəl bəşəri hisslər təbliğ edir.

Bəli, şairin sevgi şeirlərində qəm, qüssə, həsrət, ayrılıq, vəfa, etibar, sədaqət öz poetik-fəlsəfi inikasını tapmış, bu məfhumlar dərin mənası, zəngin rəngləri və çalarları ilə əks olunmuşdur.

Ərz elədiyim kimi Adil Cəmil yaradıcılığında diqqəti daha çox cəlb edən, daha çox hiss edilən səmi-

miyyətdir. Məhz ona görə də şairin fikirləri, hissləri bizə bu qədər səmimi görünür, səmimi təsir bağışlayır.

Sevgi şeirlərində lirik qəhrəman - Adil Cəmilin özüdür. O, özünü yazır, həm də minlərlə oxucunun duyğularını ifadə eləyir, məhz ona görə də şeirləri ürəklərə yol tapa bilir.

Şeirlərinin sətirləri arasından boylanan şairin sevincini də, qəmini də, kədərini də aydınca görmək mümkündür. Bunu aydınca görə biliriksə, deməli, şairin şeirləri də səmimi olmaya bilməz.

Onun düşüncələrilə hissləri, şeirlərilə şəxsiyyəti bir-birini tamamlayır, sözü ilə əməli üst-üstə düşür və ona görə də bu əsasda yazılmış şeirlər necə səmimi olmaya bilər?

Adil Cəmil eşq və səmimiyyət adamıdır. Onun sevgi şeirlərini könül nəğməsi də adlandırmaq olar. Bu könül nəğmələrinin özü də israrla deyir ki, Adil Cəmil ürəyində yaşamaq hüququ qazanmayan sevgi duyğularını qələmə almır, alsaydı bu şeirlər mənasız və bayağı olardı. Amma o sözü «bişirməmiş» qələmə almadığı kimi, ürəyini «işğal eləməyən», ürəyində korun-korun yanmayan sevgi duyğularını da şeirə gətirmir. Bu bir tərəfdən onun sözə məsuliyyət hissindən xəbər verirsə, bir tərəfdən də əsl sevginin möhtəşəmliyindən xəbər verir.

Hərdən mənə elə gəlir ki, adi insanlar əsl şairlər kimi sevə bilməzlər, əsl şairlərin sevgisi ilahi duyğularla bağlıdır. İlahi duyğu olmayan yerdə böyük sevgidən də söhbət gedə bilməz.

Sevgi fəlsəfəsini şairlər öz şeirlərində qismən də olsa açıqlaya bilirlər. Onlar özlərindən də xəbərsiz sevgi dəryasına baş vuraraq eşqin fəlsəfəsini axtarmaqla məşğuldurlar

Məgər bu misralarda təmiz bir eşqin fəlsəfəsini duymamaq olarmı?

Sən gəldin ömrümə-ömrüm dəyişdi,
Çıxdı məcrasından durğun illərim.
Özüm də bilmirəm, Allah, nə işdi-
Təzədən göyərdi solğun illərim.

«Sən gəldin»

Və yaxud bu bəndə diqqət yetirək:

Sənինlə birlikdə bir gün bir andır,
Zamanı dayandır, vaxtı dayandır
Sevən ürəyimi gəl elə yandır
Baxmaq sənə qalsın, alışmaq mənə.

«Məhəbbət günəşdir»

Bu misralardan da bir daha görünür ki, Adil Cəmilin iç dünyası dəryalar qədər dərindir. Bu dərinlikdən çıxan incilər - yəni sözlər insanı təsirləndirə bilər.

Bu misralardan da hiss olunur ki, şair fikrən və ruhən həm də gələcək nəsillərə məxsusdur. Çünki şairin şeirlərini oxuduqca içimdə doğan mənəviyyat günəşi qəlbimi isindirir.

***

Bəli, məhəbbətin gücü, qüdrəti böyükdür. Məhəbbət şeirləri həm də tərbiyəvi əhəmiyyət daşıyır.

Azərbaycan şairlərinin yaradıcılığında məhəbbət mövzusunda yazılmış şeirlər insanın ən ali duyğularını tərənnüm etmək baxımından çox təsirlidir. Ülvi məhəbbəti tərənnüm edən, onu ucalığa qaldıran, «eşqsiz ey dünya nədir dəyərin» fəlsəfəsinə söykənən şairlərdən biri də Adil Cəmildir. O, həyata, gözəlliyə, sevgiyə münasibətini ən ali məqama yüksəldərək, əsl sevginin saf duyğular üzərində bərqərar olduğunu, sevmək üçün təmiz qəlbə, saf ürəyə malik olmağın zəruriliyini açıb göstərir. O, həm də şeirlərində sevən insanın hiss və duyğularının müqəddəsliyini önə çəkərək sevməyin, sevilməyin xoşbəxtlik olduğunu, ürəyin ancaq məhəbbətlə döyünməli olduğunu bildirir. Şairin lirik qəhrəmanı öz eşqindən, məhəbbətindən gileylənmir, nə qədər dərd çəksə də, bu cəfanın səfasına inanır, məhz ona görə sevdiyindən şikayətçi olmur, sevdiyi gözəlin həsrətindən, bu həsrətin ağrısından ürəyi alışıb-yansa da, dərd və əzab çəksə də bu ayrılıq odunda yanan aşiq üçün təbii hal sayılmalıdır.

Adil Cəmil klassik şairlərimiz, aşıqlarımız kimi gözəlin xarici aləmini təsvir eləmir, necə deyərlər, siyah zülfü can alan, lalə zənəxdan, sərvi-xuraman, alma yanaqlı, büllur buxaqlı, gül dodaqlı gözəli yox, görüb vurulduğu, daxili dünyasına aşiq olduğu gözəldən yazır. Həm də yazır ki, aşiq yazda da, qışda da pərvanə ömrü yaşayır. Bəli, o, bir pərvanədi və onun aşiqlik borcu yarın başına dolanmaqdı. Gəlin «Ölümdən

çox ayrılıqdan qorxuram» şeirindən bu misralara diqqət yetirək:

Məhəbbətin yazı nədir, qışı nə?
Pərvanətək dolanıram başına.
Hey özümü yandırıram, yaxıram,
Ölümdən çox ayrılıqdan qorxuram.

Ölümdən çox ayrılıqdan qorxan aşiq haqlıdır. Ölüm qorxulu deyil, amma ayrılıq bəladır, çəkiləsi mümkün olmayan dərddi. Ancaq bununla belə o, ayrılığa dözür. Hər iztiraba dözür. Axı necə dözməsin? Axı o sevir. Axı sevməyin əzabı var, ağrı-acısı var. Bu əzaba, bu ağrı-acıya dözməyən aşiq, aşiq deyil ki...

Əsl aşiq isə belə deyir:

- Ürəyimə ələdiyin həsrəti
Gözlərimdən səpə-səpə gəzirəm.

Və yaxud:

Mən Fərhaddan dözümlüyəm dözümdə-
Əzabından öpə-öpə gəzirəm.

«Gəzirəm»

Adilin sevgi lirikası Azərbaycan poeziyasında özünəməxsus yer tutmaqdadır. Adil duyaraq yaşadığı, yaşayaraq duyduğu hisslərin, duyğuların, həyəcanların poetik ifadəsi onun şeirlərində o qədər gözəl ifadə olunur ki, heyrətlənməyə bilmirsən. Bəli, Adil Cəmilin şeirlərində çox zaman şəxsi, subyektiv duyğuları «kö-

lgədə» qalır, insanların könüllərini fəth edən sevgi şeirlərini qələmə alır və bədii uğur qazanır. Və bir də onun şeirlərindən hiss olunur ki, şairin döyüşən və güclü ruhu var. Amma onun bir şair kimi zəif yeri də var. Bu zəif yer də onun tək gözəlliyə, sevgiyə məğlub olmasıdır. O, gözəlliyə, sevgiyə məğlub olmasaydı, hər misrasında «işıq yanan» sevgi şeirlərini də qələmə ala bilməzdi. Bu, həqiqətdir. O da həqiqətdir ki, heç kimin qarşısında gözükölgəli olmayan şair sevdiyi gözəlin qarşısında da gözükölgəli deyil, əksinə hər şerində öz sevgisinin məsuliyyətini və böyüklüyünü ürəklə dilə gətirir, sevdiyi ilə səmimi danışır, sevgisində «günahsız» olduğunu vurğulayır.

Soruşmadı «ahım» nəymiş,
Umudum, pənahım nəymiş
İlahi, günahım nəymiş-
Sevdiyim qız zalım çıxdı?..

«Günahım nəymiş»

Şairin lirik qəhrəmanı rolunda hər kəs çıxış edə bilər, çünki o, hər kəsin lirik duyğularını ifadə edir.

Adilin sevgi şeirlərində Aşiq - kamil bir insandır, yetkin bir şəxsiyyətdir, sevgi onun həyatının mənasına çevrilib, niyə sevdiyini dərindən dərk edir, sevgi yolunda min cürə əzab-əziyyətin, məhrumiyyətin olduğunu yaxşı anlayır. Aşiqin çəkdiyi bu iztirablar onu həyata daha möhkəm tellərlə bağlayır, onun qəlbini daha da saflaşdırır, inamını artırır və güclü edir. Sevgidən güc alan aşiq külüng götürüb Fərhad kimi

Büsutun dağını belə yarmağa hazırdır.Çünki ürəyində böyük ümid var. Çünki öz sevgisinə inanır, bu sevgiyə böyük ümidlər bəsləyir. Bu sevgiyə qovuşacağına ürəyinə inandığı kimi inanır. Çünki ürəyində bir gözəlin «heykəli» ucalıb, bir gözələ olan yaz sevgisi tumurcuqlamağa başlayıb. Aşiq, həm də darıxır, çox darıxır. Amma darıxsa da çox ümidlidir.

Sənsiz darıxıram, şükürlər olsun,
Deməli ürəyim boş deyil hələ.
Bizim qarşımızda neçə bahar var,
Payız gəlməyibdi, qış deyil hələ.

«Bir dəli sevgidən göyərib dünya»

Tənqidçi, filosof Asif Əfəndiyev yazırdı ki, «Məhəbbət nədir? - sualı - «Həqiqət nədir?» sualı ilə həmahəng səslənir. Klassiklərimiz üçün məhəbbət dünyaya açılan pəncərə rolunu oynamışdır.

Məhəbbət əhli - əhli kamal olmaq mənasında işlənilmişdir. Məhəbbət - həqiqətə aparan yol kimi tərənnüm edilmişdir. Leyli, Məcnun, Şirin obrazlarında dünya, cəmiyyət əks olunmuşdur.

Məhəbbətdən yazmaq yalnız «məhəbbət gözəldir, vəfasızlıq böyük qəbahətdir» kəlamının təsdiqi ilə məhdudlaşmaq deyil.

Məhəbbətdən yazmaq - məhəbbət vasitəsilə dünyanı anlamaqdır» (Asif Ata, Müdiklik səlahiyyəti).

Adil Cəmilin «Göz yaşımdan göl yaranıb», «Bu ummanda mən bir ada», «Səni belə görməyəydim», «Ulduzlu gecəmiz» və başqa şeirləri onun sevgiyə,

məhəbbətə münasibətini müəyyən dərəcədə açıqlayır. Onun yaradıcılığında dəyişməyən bir mövzu var. Bu da məhəbbət mövzusudur. Bu məhəbbət həm də dünyaya, dünyanın insanlarınadır

Adil Cəmilin sevgi şeirlərini qruplara ayırmaq istədim, amma o dəqiqə də əl saxladım, fikrimdən yayındım, çünki insanın hisslərini, duyğularını qruplara necə bölmək olar? - deyə düşündüm.

Şairin sevgi şeirləri zənginliyi və rəngarəngliyi ilə seçilir ki, bu da onun hisslərinin saflığından, təmizliyindən irəli gəlir.

Sevən qəlbin sevincini, kədərini, qəmini şair elə məharətlə qələmə alır ki, sevincin də, kədərin də rəngini, ahəngini görə bilirik.

Bu misralarda şair sevgidən doğan ayrılığı, həsrəti belə ifadə edir:

İlahi, belə də sevgi olarmı-
Qoymadı daşımı daşımın üstdə.

...Alışıb yanıram, köz tuturam mən

«Bir belə gün üçün» şeirindən misal gətirdiyimiz bu misralar eləcə də:

Məni söndürməyə bil ki, gücün yox,
Həsrət alovuyam, dil-dil yanıram.

-misraları lirik qəhrəmanın həsrət yanğısının göstəricisidir.

Bəli, Adilin lirikasında sevgi duyğuları ən müqəd-

dəs duyğular kimi ifadə olunur. Bu müqəddəsliyi, bu ülviliyi sevgi şeirlərinin hər birində görmək mümkündür.

Şairlər ilk sevgidən, ilk məhəbbətdən, vüsal yanğısından, ayrılıq odundan, bu məhəbbətin ağrı-acılarından çox yazmışlar. Unudulası mümkün olmayan ilk məhəbbətdən yazılan şeirlər minlərlədir, amma Adil Cəmilin ilk məhəbbət şeirləri ən gözəl poetik nümunələrdən biri kimi «Ürəyimin çatına bax» gəraylısı aşıq havasına yaxın olduğuna görə diqqətimi daha çox cəlb elədi və mən bu şeiri dönə-dönə oxudum:

...Mələksima qadına bax,
Gözlərinin oduna bax
Ürəyimin çatına bax-
Alov saçan köz dağıyam.

...Məhəbbətdir qalam, bürcüm,
Son nəfəsim, axır gücüm
Yaşayıram sevgim üçün,
Sevgisizə göz dağıyam

Sanki şeir oxumursan, nəğmə oxuyursan. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, Adil Cəmilin sevgi şeirləri öz lirik tempinə və ritmik-melodik xüsusiyyətlərinə görə nəğmə janrına yaxındır və bu yaxınlıq şeirin gözəlliyindən, axıcılığından, dildə gözəl səslənməsindən və s. kimi xüsusiyyətlərdən irəli gəlir. Düzdür, şairin şeirlərinə bir neçə musiqi bəstələnib, amma bu, dəryadan bir damla əvəzidir. Bəlkə

də şairin sevgi şeirlərindən bəstəkarların xəbəri yoxdur? İnanmaq çətindir. Axı bu şeirə necə musiqi bəstələməmək olar? Bu baxımdan «Gülüm» şeiri də ruh oxşayır.

Ürəyim boş səhra idi,
Gülşənə döndərdin, gülüm.
Kərəmin qarlı dağına,
Məni də göndərdin, gülüm.

...Dərd verirsən bilə-bilə,
Əriyirəm gilə-gilə
Havalandım eşqin ilə,
Vurub yerə sərdin, gülüm.

Yaxud «Məhəbbət günəşdir» şeirindən bu misralara diqqət yetirək:

...Sənlə birlikdə bir gün bir andır-
Zamanı dayandır, vaxtı dayandır
Sevən ürəyimi gəl elə yandır
Baxmaq sənə qalsın, alışmaq mənə.

Bu şeirdə də şairin hissləri o qədər təmiz, o qədər təbii, o qədər inandırıcıdır ki, romantik duyğular o qədər yüksək səviyyədə ifadə olunub ki, heyrətlənirsən. Bəli, Adil Cəmil öz şeirləri ilə oxucuları həm də heyrətləndirməyi bacarır. Çünki bu şeirlərlə şair öz sevgi taleyini yazır. Onun məhəbbət duyğuları müqəddəsdi, heyranedicidi. Yaşadığı hisslərini, duyğularını ifadə etdiyi üçün ürəyimizə asanlıqla yol

tapıb yaşamaq hüququ qazanır.

Əllərim çatmayan arzu-diləksən,
İnsanlar içində bəlkə mələksən?
Səni xəlq eyləyən Tanrıya əhsən-
Rəsmini çəkibdir haqqın öz əli,
Dağlama sinəmi, dağlar gözəli.

«Dağlar gözəli»

Adilin şeirləri əslində, saflığın, əsl sevgi hisslərinin tərənnümüdür.

Bu poetik misralara diqqət yetirək:

Bir sözü deməyə bir ömür azmış-
Dilimin ucunda sözlərim əsir

«Uzaqdan uzağa»

Və yaxud:

«Gəlirsən yuxuma» şeirində belə bir beyt var:

Bahar yağışının notları ilə,
Şaqraq gülüşlərin yağır ömrümə.

***

Məhəbbət lirikası Adil Cəmil poeziyasının canıdır, nəfəsidir, ruhudur. Bu məhəbbət yuxarıda ərz elədiyim kimi, təkcə aşiqin məşuqa olan məhəbbəti deyil,

həm də insanlara, vətənə, yurda, ana təbiətə, uşaqlara olan məhəbbətdir. Çünki şairin lirikası həyati bir lirikadır. Bu nikbinliyi onun bəzi şeirlərindəki bədbinlikdə də görürük. Bu bədbinlik onu heç zaman ruhdan salmır, əksinə, şair bədbin olanda da nikbinliyini qoruyub saxlayır.

Adilin sevgi şeirlərində insanlara böyük məhəbbət hiss olunur. Bu şeirlərdə həm də torpağa bağlılıq var, həyatı sevmək var, çünki şairin xəyalı hərdən çox-çox uzaqlara getsə də, onun ayağı torpaqdadır, ayağı torpaqdan heç zaman üzülmür, necə deyərlər, ən möhtəşəm, ən uca, ən qocaman çinar ağacı kimi «köklərilə bu torpağa» bağlıdır. Torpağa bağlı olan şairin sevgi şeirləri də olduqca həyatidir. Həyati olduğuna görə də inandırıcıdır. Bəli, bu şeirlər həyati və inandırıcı olmasaydı ürəklərə yol tapa bilməzdi. Məhəbbət həyatın özüdür, həyatın sağlam nəfəsidir.

Öldürə-öldürə yaşadan, yaşada-yaşada öldürən, gah yayda qış gətirən, gah qışda yay gətirən məhəbbət Adil Cəmilin yazdığı kimi:

Cavan eylər yetmiş yaşlı qocanı,
Yaş üstündən yaş atandı məhəbbət.

...Məhəbbət şeirləri ən ali, ən ülvi duyğuların tərənnümüdür. Ən ali, ən ülvi duyğularını şeirlərində tərənnüm edən Adil Cəmilin «Səndən ötrü», «Beləmi sevirdin», «Od ilə oynamaq olmaz», «O gözlərə baxa biləm», «Bir dəli sevgidən göyərib dünya» və onlarca başqa şeirləri məhəbbət mövzusunda yazılmış ən

gözəl nümunələrdir. Hər şeirində məhəbbət aləminin sirlərini, incəliklərini, onun yeni bir xüsusiyyətini göstərən şair bu işin öhdəsindən müvəffəqiyyətlə gələ bilir. İnsan ruhunun ən gizli nöqtələrini üzə çıxaran, ülvi məhəbbəti tərənnüm etməkdən yorulmayan Adil Cəmil şeirlərində məhəbbət anlayışını insan qəlbinin ən yüksək mənəvi keyfiyyətləri kimi təsvir edir. Bu şeirlər insanın ürəyini ən gözəl hisslərlə doldurur, iç dünyasını işıq selinə qərq edir. Böyük bir mənəvi nemət kimi qəbul edilən məhəbbət hissləri insanı həyata bağlayan, yaşamağa, möcüzələr yaratmağa sövq edən gözəl hisslərdir. Bu hissləri yaşayan və indi də bu hissləri yaşamaqda davam edən Adil Cəmil hər şeirinin hər misrasında ürəyinin bir parçasını «əritmişdir». İnsanı həyəcanlandıran, gözəl hisslər aşılayan «O eşqin sarayı uçmayıb hələ» şeirinin iki bəndinə diqqət yetirək:

Könlüm açılmayıb, üzüm gülməyib,
Mən sənə könlümü açandan bəri.
O eşqin sarayı uçmayıb, gülüm,
Xəyalım keçmişə uçandan bəri.

...Vaxt keçib - varımla yoxum dəyişib,
Elə düşünmə ki, ruhum dəyişib.
And olsun Allaha yuxum dəyişib
Sən mənim yuxumdan qaçandan bəri.

Öz bədii kəşfləri, zəngin tapıntıları ilə, lirik tərənnüm üslubunu yaradıcılıq manerasına çevirməklə

Adil Cəmil lirik şeirimizi yeni orijinal xüsusiyyətlərlə zənginləşdirmiş, öz fərdi yaradıcılıq yolu olan bir şair kimi tanınmışdır.

Adil Cəmilin sevgi şeirlərini oxuduqca hiss edirsən ki, onun məftun olduğu gözələ, eləcə də insanlara, həyata, dünyaya məhəbbəti böyükdür. O nə qədər yazırsa yazsın, ürəyi yenə də insanlara məhəbbət dolu sözlərlə zəngindir. Onun ürəyindəki məhəbbət dolu sözlər tükənməzdir, bulaq kimi qaynadıqca qaynayır. Onun sevdiyi gözələ həsr etdiyi şeirlər, həm də həyata, dünyaya həsr etdiyi şeirlərdir

Şair bildirir ki, məhəbbətin ocaq tək alışıb, buztək soyuq olmağı da var. Aşiq məhəbbətin buztək soyumağında öz iştirakının olmadığını, əksinə sevdiyini qolları üstə günəş kimi qaldırmaq istədiyini bəyan eləyir:

...Əzizim, mən səni qollarım üstə
Qaldırmaq istərdim günəşə kimi

«Hanı o dünənki məhəbbətimiz»

Öz günəş istisini, öz günəş atəşini dilə gətirən şair bu sevgi odunu günəşlə müqayisə etməkdə yanılmır, əksinə bu sevginin qüdrətini qələmə alır:

Günəş dünya üçün gündüzlər yanır,
Gecələr yanıram mən sənin üçün

«Mən sənin üçün»

Adil Cəmil həyata, insana zəngin fərdi yaradıcılıq münasibəti olan bir şairdir. Və bir şair kimi Azərbaycan ədəbiyyatına yeni səs, yeni ruh kimi daxil olub, müasir şeirimizin yeni nümunələrini yarada bilib.

Şairin sevgi şeirlərində lirik qəhrəmanın əxlaqi mahiyyət daşıyan yüksək mənəvi keyfiyyətləri, lirik düşüncələri, humanist duyğuları bir an da olsa nəzərdən yayınmır. Təmiz əxlaqi-mənəvi keyfiyyətə, zəngin və romantik təbiətə malik olan lirik qəhrəmanın ləyaqət və qüruru, humanizm və insani keyfiyyətləri qabarıq şəkildə verilir. Adil Cəmil ürəklərə yol açan, insan duyğularını təlatümə gətirən, yaradıcılığını, poeziyasını şəxsləndirməyi bacaran bir şair kimi, yalnız sözləri cilalamaqla məşğul olmur, sözün ruhuna, mənəvi aləminə nüfuz edə bilir, sözün zahiri gözəlliyinə deyil, daxili tutumuna fikir verir.

Azərbayan poeziyasında öz səsi, öz nəfəsi olan bir şair kimi, qüdrətli bir qələm sahibi kimi Adil Cəmil özü olmayan yerdə sözü olan sənətkarlardan biridir. Və söz sənətkarı kimi ictimai-siyasi və bədii fikir tarixində, lirik şeirlər müəllifi kimi oxucuların böyük hörmətini, məhəbbətini qazanmış, ədəbi mühitdə ən yüksək mövqedə yer almış, heç kəsə oxşamayan şair taleyi, yaradıcılıq fəaliyyətilə, Azərbaycan ünvanlı poeziyası ilə, ruhən, qəlbən bu vətənə bağlılığı ilə adını ədəbiyyatın əbədiyyət tarixinə yazdıra bilmişdir.

Bəli, Adil Cəmil lirik şairdir. Həssas qəlbli, qaynar təbli şairdir. Şeirlərində hisslər, duyğular, emosiya, fikir mühüm yer tutur. Ürəksiz, odsuz-alovsuz ya-

zılan, poetik dünyaduyumundan məhrum olan bir şeirinə də rast gəlmək mümkün deyil.

Onun şeirlərində humanizm işığı var, ümid işığı var. Şair sanki sözün rənglərini gözlərimiz önündə canlandırır.

Və ən nəhayət, demək istəyirəm ki, Adil Cəmilin təmiz duyğularla dolu olan sevgi şeirlərinin sirri alovlu şair ürəyindən süzülməsidir.

DƏRDİN ADİL CƏMİL ZİRVƏSİ

Adil Cəmilin yaradıcılığında anaya, ataya, eləcə də oğlu Orxana yazdığı şeirlərdə həzin, kövrək duyğular üstünlük təşkil edir. O, həzin, kövrək duyğuları ilə Ana və Ata obrazını mükəmməl bir şəkildə yarada bilmişdir. Bu şeirləri oxuduqca gözlərimiz önündə bir ata canlanır, ağzıdualı, ağbirçək bir ana canlanır, dünyandan vaxtsız köçmüş bir oğul canlanır.

Şair şeirlərində elə incə məqamlara toxunur ki, oxucunun gözləri yaşarır və adama elə gəlir ki, bu səpkidə olan şeirləri şair ürəyinin qanı ilə yazıb.

Öz hisslərinin təzəliyinə, fikirlərinin yeniliyinə ciddiliklə yanaşan şairin ata, ana, oğul və s. kimi mövzularda yazdığı şeirlər heç kimin şeirlərinə bənzəmir, öz orijinallığı ilə seçilir.

O, ata-ana ucalığını, müqəddəsliyini yaxşı bilir, ata-ana zəhmətini, əməyini, qayğıkeşliyini yüksək qiymətləndirir, onları bir an da unutmur. Valideynlərinə olan sevgisini şeirlərinə köçürən, onları şeirlərində və ürəyində yaşadan şairin şeirləri ideya və məzmununa, bədii təsir qüvvəsinə görə diqqətdən yayınmır. Bu şeiri anası Maral xanıma ünvanlayıb. Yox. Eyni zamanda bu şeir həm də bütün Azərbaycan analarına ithaf olunub.

Ana, ay ana,
Urvalı əllərinlə
Çörək vermisən mənə,

Çörəyim çörəyindir.
Ürək vermisən mənə-
Ürəyim ürəyindir.

«Ana, ay ana»

Bu şeirdə qayğıkeş, zəhmətkeş və mehriban bir ana surəti ümumiləşdirilib. Şeirdən də göründüyü kimi, ana halal zəhmətilə, «urvalı əllərilə», kipriyilə od götürə-götürə ürəkli oğul böyüdüb. Gözəl və xeyirxah bir ananın insani keyfiyyətləri əks olunan bu şeiri həyəcansız oxumaq mümkün deyil. O, bir şair kimi, bir oğul kimi yaşadığı hiss və həyəcanlarını, duyğularını şeirə çevirərək ömrün enişli-yoxuşlu yollarının yolçusu olan bir ananın sözlə portretini yarada bilmişdir.

Ana, ay ana,
Beşiyimin başında
Dil açan laylam mənim,
Gözlərimin içində
Yaşayan dünyam mənim.

«Ana, ay ana»

Ata böyüklüyünü, ana müqəddəsliyini şeirlərində vurğulayan Adil Cəmil ürəyinin səsini qələmə alaraq elə bir ana obrazı yaradıb ki, bu şeiri oxuyan hər kəsin gözləri qarşısında öz anası canlanır.

Bəli, ata səsi, ana nəfəsi onun şeirlərinə hopub. Hər şeir sevgidən yoğrulub. Bu sevgi şairə atasından, anasından ötürülüb.

Gəlin şairin «Layla» adlı şeirini birlikdə oxuyaq:

Bir layla gəzirəm məni isidə,
Yüz qayğı bir ana mehrini verməz.
Dünyanın ən gözəl musiqisi də
Ana laylasının yerini verməz.

Şeirdə halal süd əmmiş bir övladın, etibarlı, qədirbilən bir oğulun anaya qiymət vermək bacarığını görürük. Anaya məhəbbət şeirin hər misrasında hiss olunur və yenə də oxucunun gözləri qarşısında öz anası canlanır. Ana müqəddəsliyini təcəssüm etdirən şair öz zərif, incə duyğularını, duyumlarını şeirə köçürməyə müvəffəq ola bilmişdir.

Bir həzin laylaya ehtiyacım var,
Ana mehri üçün dağlar aşaram.
Görsəm bir körpəyə layla çalırlar
Özümü unudub uşaqlaşaram.

Şair elə incə, kövrək məqamlara toxunur ki, kövrəlib göz yaşlarını axıtmaqdan özünü güclə saxlayırsan. Şairin anaya olan məhəbbəti elə böyük, elə möhtəşəmdir ki, özündə yüzlərlə sevgini, məhəbbəti birləşdirir.

Yaxud, şairin atası Savalan kişiyə həsr etdiyi şeirə diqqət yetirək:

Tükənib taqətim, azalıb gücüm-
Elə bil candərdi yaşayıram mən.

Soyuq torpaq altda yatdığın üçün
İsti çarpayımda üşüyürəm mən.

«Ağlaya bilmirəm»

Bu şeiri oxuduqca ata müqəddəsliyinə necə inanmayasan? Ata dağdır, arxadır, göydə Allah, yerdə atadır, - məsələni necə xatırlamayasan? Şairin isti çarpayıda üşüməsi təbiidir. Axı arxasızdır, köməksizdir, atasızdır

Atanın özü kimi həsrəti də böyükdür. Bu həsrət şairin gözünün yaşına sığışmır. Sığışa bilərmi?

O qədər böyükdür sənin həsrətin
Gözümün yaşına sığışmır, ata!

«Ağlaya bilmirəm»

Adil Cəmil poeziyasında pak və ülvi duyğular, səmimiyyət, rənglərin əlvanlığı və çoxcəhətliliyi, yüksək ifadə tərzi oxucunun ürəyinə nüfuz edir, onu həm də dərindən düşündürür.

O, incə zövqlü bir şair kimi ürəyin elə incə simlərinə toxunur ki, istər-istəməz ah çəkirsən, atalı-analı günləri xatırlayırsan, o illərin həsrətilə alışıb-yanırsan.

Onun şeirlərində kökə bağlılıq, yurda bağlılıq çox güclüdür. Ata ocağını bir an da unutmayan, analı günlərini tez-tez yada salan, atasından, nənəsindən ən kövrək duyğularla söhbət açan şair bu səpkili şeirlərində də oxucunu mənəvi-əxlaqi cəhətdən zənginləşdirir, ötən günləri yada salır, atalı-analı günlərimiz gözlərimiz önündən kino lenti kimi gəlib keçir.

O, sanki öz hiss və həyəcanlarını yox, oxucuların hiss və həyəcanlarını qələmə alır. Şeirlərinin ürəyəyatımlılığının bir səbəbini də bunda axtarmaq lazımdır.

Bu şeiri həyəcansız necə oxumaq olar?

...Ələyib göz yaşımı
Öpürəm başdaşını.
İsti öpüşlərimin
Soyuq daşın üstündə
Bir anlıq yeri qalır.
Torpağın qucağında
Qəbir də diri qalır

«Atamın xatirəsinə»

Adil Cəmil ata və ana mövzusuna tez-tez müraciət edir. Analı illərin oyatdığı təəssüratdan, yaşa dolsa da da anasız özünü yetim uşaq kimi hiss etdiyindən və s. kövrək duyğularından söhbət açır.

Ana haqqında minlərlə şeir yazılıb, amma Adil Cəmil yazılanların heç birini təkrar etməyib, anasına həsr etdiyi şeirlərində də öz üslubu, dəst-xətti aydınca seçilir. Bu mövzuda yazdığı şeirlər oxucuların qəlbinə daha çox hakim kəsilir.

Ana, ay ana,
Mənə çörək vermisən,
Mənə ürək vermisən,
Mənə layla olmusan,
Mənə dünya olmusan,

Sənə oğul olaydım

«Ana, ay ana»

Şairin qəm dolu pıçıltıyla dediyi «sənə oğul olaydım » sözlərində böyük bir həqiqət gizlənib. Axı ana borcunu qaytarmaq mümkün deyil! Bu misraları oxuyanda Əli Kərimin «Qaytar, ana borcunu» şeirini xatırladım. Adil Cəmil unudulmaz Əli Kərimin «Qaytar, ana borcunu» adlı şeirindəki fikirləri bircə misra ilə ifadə eləyə bilib. - «Mənə dünya olmusan, sənə oğul olaydım».

«Ana» və «ata» mövzusu Adil Cəmil yaradıcılığında mühüm yerlərdən birini tutur. O, anasının simasında bütün analara öz oğul məhəbbətini, öz oğul sevgisini bildirir, gözəl və ruhoxşayan şeirlər yazaraq hiss və duyğularını yüksək səviyyədə qələmə alır.

Ana böyüklüyünü, ata müqəddəsliyini məhəbbətlə tərənnüm edən sənətkar dəfələrlə bu ali mövzuya qayıtmış, atasının ölümünə son dərəcə təsirli şeirlər yazmış, yazdığı şeirlərilə ürək dərdlərinə sanki məlhəm qoymaq istəmişdir.

Ata adını əziz tutan, ata qədrini yaxşı bilən Adil Cəmil şeirlərinin birində yazır:

Xəlvətə çəkilib ağlayır anam,
Üzündə silinməz qəm var, kədər var.
Bu gündən mən sənin yetim oğlunam,
Daha nə sən varsan, nə Kəlbəcər var.

«Daha nə sən varsan, nə Kəlbəcər var»

Şairin ataya müqəddəs varlıq kimi baxması, ataya yüksək münasibət bəsləməsi onun həm də bir şair kimi ucalığından xəbər verir.

Atasını itirən şair həm də doğma Kəlbəcəri düşünür. Atasını Kəlbəcərsiz, Kəlbəcəri də atasız təsəvvür edə bilmir. Atasının ölümüylə o, sanki Kəlbəcəri ikinci dəfə itirmiş olur. Kəlbəcərin qoxusunu atasından alan, atasını Kəlbəcərin bir parçası hesab edən şairin ürək ağrısını necə duymayasan, bu ağrını necə öz ağrın kimi hiss etməyəsən?

Deyirdin o yurda dönməliyik biz,
Deyirdin dizimdə hələ təpər var.
Sən idin bir parça Kəlbəcərimiz,
Daha nə sən varsan, nə Kəlbəcər var.

...Ananın böyüklüyü, müqəddəsliyi əsrlərdən üzü bəri şairlərin qələmində öz əksini tapmış, «Ana haqqı, Tanrı haqqı» kəlamı hətta «Kitabi-Dədə Qorqud»da işlədilmişdir.

Adilin anasının ölümünə həsr etdiyi şeirlərdən biri «Anama layla» adlanır. Bu şeiri həyəcansız oxumaq, oxuya-oxuya ağlamamaq mümkün deyil. Bu şeir daş ürəkli insanı da kövrəldə bilir, onun da yatmış duyğularını, hisslərini oyadıb təsirləndirir:

Hicran məni dara çəkir,
Sən yatan məzara çəkir.
Ey dərdimə yanan, lay-lay,
Anam lay-lay, anam lay-lay.

Görmüşük ki, ana balasına layla çalar, amma balanın anasına layla çaldığına ilk dəfə şahidlik edirik.

Laylalar şifahi xalq ədəbiyyatının ən qiymətli incilərindən sayılır. Bu qiymətli incidən məharətlə istifadə edən Adil Cəmil ana həsrətini, ana yanğısını, ana ölümünü ancaq layla deməklə ifadə edə bilərdi. Bəlkə də şair başqa şeir növlərindən istifadə etsəydi «Anama layla» qədər təsirli alına bilməzdi. Ana ağrısını, ana dərdini, ancaq laylalarla, bayatılarla dilə gətirmək mümkündür. Hər halda mən belə düşünürəm. Az sözlə dərin poetik məna ifadə edən şair öz kədərini, öz dərdini, o qədər təsirli, o qədər ağrılı, o qədər inandırıcı təsvir edə bilib ki Şairin ürəyindəki ana sevgisi, ana yanğısı ilk misralardan hiss olunur. Bu sevgi, bu yanğı Adilin canından, qanından gəlir:

Qəm bağında ümid əkən,
Yuvam deyib haray çəkən
Ömrü, günü fənam lay-lay,
Anam lay-lay, anam lay-lay.

Ürək dağlayan, ağır qəm yükü ilə dolu olan misralar ürəyimizi yandırır. Anasına layla çalan şair laylalarda olduğu kimi hər dörd misrada təkcə öz hisslərini yox, bəşəri hissləri qələmə almaqla anaya olan məhəbbətini, oğul sevgisini, ürək yanğısını göz yaşları içində dilə gətirir:

Anam deyib öyündüyüm,
Həsrətində üyündüyüm
Daş sükutlu sonam, lay-lay,
Anam lay-lay, anam lay-lay.

Həsrətin dəyirman daşı kimi insanı üyütdüyünü poetik tərzdə ifadə edən şair həm də işğal altında olan Kəlbəcərə layla deyir. Şair ürəyinin böyüklüyünə, şair ürəyinin Vətən sevgisinə baxın ki, o, anasına layla deyib son mənzilə yola salanda da doğma Kəlbəcəri unutmur. Çünki Ana və Vətən sözlərini bir-birindən ayırmaq çətindir. Biz vətənə də ana deyirik. Ona görə də Ana və Vətən sevgisi eyniyyət təşkil edir. Anaya olan sevgi vətənə, vətənə olan sevgi anaya aiddir.

Şair ana məhəbbətini, ana saflığını, ana itkisini özünəməxsus çalarla ifadə edə bilmişdir:

Aylar, illər baş aldadır-
Hələ yurdun işğaldadır
Viran evim, binam lay-lay,
Anam lay-lay, anam lay-lay.

Bu şeirdə Adil Cəmil sənətinə xas olan ümumiləşdirmə diqqətdən yayınmır. O, sanki analarını itirən bütün övladların əvəzində «layla» çalır.

Analar haqqında minlərlə şeir yazılıb, ancaq anasına layla çalan şairə rast gəlinməyib. Adil Cəmil ilk şairdir ki, belə bir mövzuda, belə bir təsirli şeir yazmış və bir şair kimi hansı ucalıqda dayandığını öz qə-

ləmilə bir daha sübut etmişdir.

***

Məlumdur ki, Şərq şeirində mərsiyə janrında saysız-hesabsız nümunələr yaradılmışdır. Yaxın adamların, hökmdarların, şahzadələrin ölümü münasibətilə yazılan bu kədərli mərsiyələrdə şairlər qüssə və iztirablarını, ürəkparçalayan dərdlərini yanıqlı bir dillə qələmə almışlar

Adil Cəmil də doğmalarının itkisinə təsirli şeirlər yazmış, öz dərdlərini bölüşmək üçün qələminin gücündən istifadə etmişdir. Şair klassik Şərq şairlərindən fərqli olaraq mərsiyə yox, lirik şeirin başqa janrlarından istifadə edərək öz şəxsi kədərini ictimai kədər səviyyəsinə yüksəldə bilmiş, yuxarıda ərz elədiyim kimi ata-anasının, oğlunun simasında bütün ata-anaların, dünyadan vaxtsız köçmüş oğulların ölümünə son dərəcə təsirli şeirlər yazmışdır.

Ata, ana və oğul dərdinin iztirablarını dərin həyəcan və kədərlə qələmə alan Adil Cəmilin atasının ölümünə yazdığı «Ağlaya bilmirəm» adlı şeirinə diqqət yetirək. Şair ürəyini yandıran duyğuları belə ifadə edir:

Ayrıldın bizlərdən bir qış axşamı,
Əcəl şirin dilli, xoşqılıq imiş.
Yandı qəbrin üstə ayrılıq şamı,
Ölümün bir adı ayrılıq imiş.

Ürəyini yandıran duyğuları qələmə alan şair harayqışqırıq salmır, heç kimdən və heç nədən şikayət elə-

mir, öz ürək dərdini pıçıltı ilə deyir. Bu pıçıltı haray-həşirdən də yaxşı eşidilir.

Yuxuya getmisən yox bir oyadan,
İndi sən hardasan, mən harda, ata?!
«Vətən» deyə-deyə getdin dünyadan,
Qürbət var sən yatan məzarda, ata.

«Ağlaya bilmirəm»

Adil Cəmilin ata və anasına yazdığı şeirlərdə də Vətən həsrəti, Vətən sevgisi var Ata itkisi Vətən itkisinə oxşayır. Bu itkinin ağırlığı, dərd yükü çox böyükdür. Atanı itirmək, üstəlik də doğma yurd yerini itirmək çəkiləsi mümkün olmayan dərddi. Görəsən, bu dərdi şair necə çəkir?

«Vətən» deyə-deyə dünyadan köçən atanın vaxtilə yaşadığı doğma yurd yerlərinə həsrət qalması, elə bu həsrətlə dünyadan köçməsi şairi daha çox yandırıb-yaxır.

Kimi qaytarıb ki, bu göz yaşları?
Olum var, ölüm var-gəldi-gedər var.
Sənsiz gül bitirməz yaz yağışları,
Daha nə sən varsan, nə Kəlbəcər var.

Bu bənddə «Olum var, ölüm var, gəldi-gedər var» - deyən şairin ölümlə bağlı fikirləri də diqqətçəkəndir. Şair ölümdən qorxmamağı, ölümün də bir həyat olduğunu deyir. Əsl həyatın ölümdən sonra başladığını, ruhun ruhlar məmləkətinə varıb getdiyini dilə gətitrir.

Gedəsi insanları,
Əcəl aparıb gedir.
Ruhlar məmləkətinə
Ruhumuz varıb gedir.

Və yaxud:

Ölümə yoxluq demə,
Ölüm də bir həyatdır,
- deməklə ölümün fəlsəfəsini açıb-göstərir.

Ölüm haqda çox yazılıb, çox deyilib. «Ölüm də bir həyatdır» - deyən şair əzrayılın da mələk olduğunu, mələkdən qorxmamağı tövsiyyə edir. Doğrudan da insan oğlu ölümünü bildiyi halda ölümdən niyə qorxmalıdır? Ölüm bir dünyadan başqa bir dünyaya səfər etməkdir. Şair də haqlı deyir ki, «Torpağın altında bir dünya da var».

Adilin şeirlərində ölümün labüdlüyü, həyatın əbədi olması haqqındakı fəlsəfi fikirlərini də hiss edirik. Hiss edirik ki, Adil Cəmil də min illərdən bəri bəşəriyyəti düşündürən «Olum nədir? Ölüm nədir?» suallarına cavab tapmaq istəyir.

Özbaşına, özxoşuna
Ölə bilmir insan oğlu.
Olum nədir, ölüm nədir
Hələ bilmir insan oğlu.

...Bir yuxudur bu ömür-gün,
Yollar yoxuş, ürək üzgün.
Elə çıxıb gedir bir gün
Gələ bilmir insan oğlu

«İnsan oğlu»

«Olum, ya ölüm» fəlsəfəsi Adil Cəmilin şeirlərində aydın duyulur. O, insanın dünyaya gəlib və dünyadan getdiyini dərindən dərk edərək ölümün fəlsəfəsini açmağa çalışır. Həm də demək istəyir ki, ölüm də vaxtında gəlsə yaxşıdı. Ölüm haqq işi olduğuna görə yaşlı adamlar dünyasını dəyişəndə yaş töküb ağlamaq da olmur, çünki «deyirlər yaşını yaşayıb getdi».-və düz də deyirlər Amma bir gənc öləndə gözlərimiz dolur, cavan ömrə ağlayırıq Ölümün yaşının dünyanın yaşı ilə bir olduğunu yaxşı bilən şair həm də təskinlik üçün yazır:

Yaranış yaşıdır ölümün yaşı,
Tarixi yüz ildən, min ildən deyil.
Onsuz da ağlasan, ağlamasan da
Göz yaşı kimisə dirildən deyil.

«Etiraf»

Bu şeir şairin həm də ölüm fəlsəfəsini yaxşı bildiyini göstərir. Və deyir ki, insan hər gün son gününə tələsir. Əzrayıl onu qovur və insan heç nə deyə bilmir:

Hər gün son gününə tələsən insan
Nə desin Əzrayıl qovan ömrünə?

Amma şair susa bilmir, insan ömrünü qovan Əzrayıla - zalım fələyə şikayətlənir, hələ yaşamaq istədiyini, ömrünün ilmə-ilmə söküldüyünü, leysan yerinə gözünün yaşını tökdürdüyünü, qaynayan bulaqları qurutduğunu ürək ağrısı ilə qələmə alır:

Yaşamaq istədim, a zalım fələk,
Sorğusuz sitəmlər çəkdirdin mənə.
Yaşamaq istədim, bir az yaşamaq,
Diriykən qəbrimi tikdirdin mənə.

«A zalım fələk»

Amma neyləyəsən ki, fələk amansızdı, şair demişkən zalımdı. Zalım fələkdən dərddən, ayrılıqdan savayı nə gözləmək olar? Zalım fələyin göndərdiyi oğul dərdinə şair necə tablasın? «Ay oğul atası, oğulsan tabla» adlı şeir Orxanın ölməz xatirəsinə yazılıb. Şairin ürəyi yaralı, ciyəri dağlı ahı göyləri yandırır:

Sənin otağının qapısı bağlı,
Açmağa, ay bala, əlim gəlməyir.
Ürəyim yaralı, ciyərim dağlı,
«Sən yoxsan» deməyə dilim gəlməyir.

***

...Şair dərdinin yükü ağır olur. Bu yükü daşımaq o qədər də asan deyil.

Adilin dərd yükü daha böyükdür. Bu böyüklüyü sözlə ifadə etmək çətindir. Amma şair heç vaxt dərddən şikayətlənmir, əksinə, dərdlə «qol-boyun» olub Tanrının verdiyi ömrü yaşamaqdadır.

«Hər kəsin qəlbini qəm dəlik etmir», - deyən şair haqlıdır. Bu misrada giley-güzar yoxdur. Bu misrada əsl kişi nəfəsi duyulur. Əsl kişilər başını dik tutub belə deyə bilərlər

Dərd Adili sevdikcə, Adil də dərdi sevir. Dərddən yüngülləşməyin ən yaxşı yolu elə dərdi sevməkdir.

Fərqlidir ağayla qulun yazısı,
Bu - mənim getdiyim yolun yazısı.
Səndən hara qaçım, alın yazısı,
Dərd məni sevdikcə mən dərdi sevdim.

«Sevdim»

Alın yazısından qaçmaq olmaz. Şairlərin alın yazısında dərdlər üstünlük təşkil edir.

Dərd də Tanrı payıdır. Bunu şair də deyir. Deyir ki:

Mən ağız büzmədim Tanrı payına-
Sevinc də, kədər də göndərdi - sevdim.

«Sevdim»

Tanrının göndərdiyi sevinci sevdiyi kimi, kədəri də sevən şairin dərdinin yaşı sevincinin yaşından çoxdur. O, sanki dünyaya dərd çəkmək üçün gəlib.

Qəhrimi heç kəsə yükləmədim mən,
Dedim öz içimdə çəkim dərdimi.
Mən hansı günümün bəxtəvəriyəm,
Mən hansı günümə büküm dərdimi?

Sevincim - göy zəmi, qəm dəryazımdır,
Belə doğulmuşam, belə lazımdır
Bu mənim qismətim, alın yazımdır,
Çəksə dərdə düşər hər kim dərdimi.

«Belə doğulmuşam»

Bəli, dərd şairin ürəyində yaşayır. Kimsə onun çəkdiyi dərdi çəkə bilməz. O, dərd əlindən küncə dirənsə də, ah çəkib kükrəyən Arazı qurutsa da, qalan taqətini, gücünü əlindən alsa da, yenə də çəkiyə gəlməyən dərdin ağırlığını az qala gülümsəyərək dilə gətirir:

Daha Adil Cəmil dirənib küncə,
Kimsə çəkdiyimi çəkməyir məncə.
Belimdə şələ var vallah ölüncə,
Neçəki diriyəm, diridi dərdim.

«Dərdim»

Şair dərdi öz içində öldürmür, diri saxlayır, çünki o dərdi, dərd də onu sevir. Dərd onun ürəyində susmur, danışır:

Demərəm bu dünya bir gülzar imiş-
Ömür karvanına qəm ovsar imiş.
Sən demə dərdin də dili var imiş-
Nə susdu, nə də ki, kiridi dərdim.

«Dərdim»

Adil Cəmil həyatın hər zərbəsinə müqavimət göstərir. Deyəsən, Paskalın fikridir: «Yalnız müqavimət göstərənə söykənmək olar». - Mən də Adilin mənəvi dünyasının işığı ilə gedərək onun şeirlərinin döyüşkən ruhu ilə daha yaxından tanış olmaq istəyirəm. Tanış olduqca görürəm ki, dünyanın dərdi ondan yan keçmir. Və bu dərdlər şairin sinəsində çiçək açır:

Yaralı sinədə dərd çiçək açar,
Yağışdan sonrakı köbələk kimi.

«Qismətin olmasa»

Yağışdan sonra kiçik bir ərazidə yüzlərlə köbələk çıxır. Bu bənzətmə ilə şair dərdlərinin sayını yağışdan sonra çıxan köbələklərin sayı ilə eyni olduğunu bildirir.

Bu şeirdə həm də şairin döyüşkən ruhunun şahidi oluruq. Onu dönə-dönə dara çəkən, əlində çərpələng kimi fırladan fələyə qarşı üsyan edir və o rəzalətlə razılaşmaq istəmir.

Rəzalətin dünyəvi dərdə heç bir dəxli yoxdur. Dəxli olmadığına görə də:

İnsan rəzalətlə razılaşanda,
Yumşalıb, yuxalıb quzulaşanda
Elə o məqamda, elə o anda
Dərd gələr üstünə şir-pələng kimi, - deyir və dediyində haqlıdır.

Rəzalətə dözmək, rəzalətlə razılaşmaq haqsızlıq önündə susmağa bərabərdir. Şair isə susa bilməz! O, istəyir ki, kimsə ümidini itirməsin, kimsə rəzalət önündə naçar qalmasın.

Bağlı qapılara ümiddir açar,
Ay, Adil, bir kimsə qalmasın naçar.

«Qismətin olmasa»

***

Bəli, dərd Adil Cəmilin də ürəyində yuva qurub. Bu «yuva» istidir. Bu isti ürəkdə dərd «üşümür», «buz bağlamır», əksinə, özünü çox rahat hiss eləyir və şairin şeirlərində boy göstərir.

Şairin şeirlərində əks olunan dərdlərdə bir doğmalıq, bir yaxınlıq var. Axı bu dərdlər adi dərdlər deyil; bu dərdlər ana dərdidi, ata dərdidi, oğul dərdidi Bu dərdləri dağa yükləsən, dağ da qar kimi əriyər, amma bu dərdlər şair ürəyində şairlə birlikdə dünyanı dolaşır. Çünki şair dərdə əyilməyib, məğlub olmayıb, həyatın gedişatının ölümlə nizamlandığını yaxşı bilir. Həm də yaxşı bilir ki, ölüm haqq işidir, Tanrı işidir. Tanrının işinə qarışmaq olmaz. Axı həyat ölümü, ölüm də həyatı yaşadır. Deməli, ölüm nə qədər böyük dərd olsa da, bu dərddə bir işıq da var. Bu işıq həyatdır. Həyat həm ölümü yaşadır, həm də özü yaşayır.

Deməli, Maral ana dünyasını dəyişsə də həyatı yaşadır və özü də oğlu Adil Cəmilin şeirlərində yaşayır.

Adilin şeirləri ölümsüzdür, deməli, Maral ana da ölümsüzdür.

Ana ömrü bir dastandı. Bu dastanı aşıqlar yox, Tanrı söyləyir. Bu «dastan» nə qədər qəmli olsa da Maral ananın qürurla yaşadığını, nur içində ömür sürdüyünü görürük. Həm də görürük ki, heç vaxt dərdini dilə gətirməyən ana, Kəlbəcər dağlarından aldığı qüruru, əzəməti yaşada-yaşada bir sabah dünyanı tərk eləyib haqqın dərgahına qovuşdu.

Hüseyn Arif yazırdı ki, «torpaq da anasız qalmasın deyə, torpağın qoynuna köçür analar». Torpaq Maral ana üçün də darıxmışdı; bunu Maral ana da hiss eləyirdi, ona görə də torpağı darıxmağa qoymadı və üzündəki nur ilə üzünü örtüb torpağa qovuşdu.

Bir qəmli dastan idi,
Bu sabah bitdi anam.
Anaların içində
Gözümdən itdi anam.

«Anamın xatirəsinə»

Yox. Ana şairin gözündən itmədi. Parlaq bir ulduza dönüb onun yoluna işıq salmağa başladı. Bu işıqda şairin özünü görürük, qəmli səsini eşidirik:

Canımdan can qoparıb,
Son mənzilə o varıb.
Dünyamı da aparıb
Dünyadan getdi anam.

«Anamın xatirəsinə»

Bu şeir qiyməti olmayan Tanrı payıdır. Şair bu Tanrı «payını» oxucularla bölüşür və oxucuların ürəyindən bir qəm seli gəlib-keçir. Maral ananın timsalında hər kəs öz anasını görür, torpağa əmanət etdiyi anasını düşünür, xəyalında onunla söhbət eləyir. Amma Adil Cəmilin çəkdiyi dərd yükü fərqlidir. Niyə? Çünki atasını və anasını torpağa tapşıran şair, indi də oğlunu ata və anasına tapşırır. Bu, təsadüfi deyil. Çünki, ən müqəddəs varlığı, ancaq ata və anaya etibar etmək olar. Şair də bu mənada oğlu Orxanı bu müqəddəs varlıqlara tapşırır və bununla bir az təskinlik tapan kimi olur.

...Nə olum təzədir, nə ölüm təzə,
Məzar nöqtəsidir gedilən yolun.
Ay ata, ay ana, qurbanam sizə
Nakam nəvənizdən muğayat olun

«Ay oğul atası, oğulsan tabla»

Bu şeiri mən deyərdim ki, şair qələmini ürəyinin qanına batırıb yazıb. Çünki bu şeir, ancaq ürək qanıyla yazıla bilərdi. Yoxsa şair ürəyində yuva salan dərdin böyüklüyünü, dərdin Adil Cəmil zirvəsini oxuculara göstərməkdə çətinlik çəkərdi.

Adilin atasına, anasına, oğluna ünvanladığı şeirlər mərsiyə deyil, Tanrıya oxunan dualardı. Bu «duaların» təsir gücü çox böyükdür, bu şeirləri oxuyanda hər kəs uşaq kimi hönkürüb ağlamaqdan özünü saxlaya bilmir. Niyə? Ona görə ki, bu şeirlərdə

öz ruhunu görür, öz doğmalarını görür, öz duyğularını hiss edir, heç kimin sonsuzluğa qədər yaşamayacağını başa düşür.

Adil Cəmilin oğluna yazdığı şeirləri oxuyandan sonra bir həqiqəti də başa düşdüm. Başa düşdüm ki, səhra tikanları uzunömürlü olur, bahar çiçəkləri isə gözəl açır və tez solur. Orxanın da ömrü çiçək qədər oldu. Tez açdı, tez soldu.

Orxan həm də şair idi. Və bir şair kimi də həm öz şeirlərində, həm də Adil Cəmilin şeirlərində yaşayacaq.

Gəlin bu ürək titrədən misralara diqqət yetirək:

Daha varlığıma bu dünya dardı,
İşıqlı nə varsa aparıb getdin.
Dilimdə bir «oğul» kəlməsi vardı,
Onu da dilimdən qoparıb getdin.

«Ay oğul atası, oğulsan tabla»

...Ölmək haqqın dərgahına və haqqın dərgahındakı doğmalara qovuşmaqdı. Deməli, Orxan da haqqın dərgahında öz doğmalarına -nənəsinə, babasına qovuşub.

Adil Cəmil böyük şairdi. Bu, həqiqətdir. O da həqiqətdir ki, Dostoyevski demişkən böyük insanlar həmişə böyük iztirablar çəkməyə məhkumdurlar

Xaqani Şirvani də böyük şair, böyük insan olub. O da böyük iztirablar çəkib. O da oğul itirib. Adil Cəmil də oğul itirib. Bu itkinin böyüklüyünü sözlə ifadə eləmək çətindi. Məhz ona görə də «Ruhum

yanır» adlı şeirindən bu misraları oxumaq da kifayətdir ki, dərdin Adil Cəmil zirvəsini görə biləsən:

İndən belə ağlamağın nəfi nə?!
Əcəl varsa bu həyatın kefi nə?
Qapısından tək çıxdığın evinə
Tabutunla qoşa döndün, ay oğul.

Yuxarıda ərz elədim ki, insan həyatı ilə ölür, ölümü ilə yaşayır. Xaqani Şirvaninin də, Adil Cəmilin də oğulları ölümlərilə yaşayırlar. XII əsrdə Xaqani Şirvaninin, XXI əsrdə Adil Cəmilin oğullarını yaşatmaq əllərində deyildi, ancaq onlar şeirlərində oğullarını yaşada bilərdilər və yaşadırlar da

Gəlin xəyalən bir anlığa XII əsrə qayıdaq. Xaqani Şirvaninin saqqalından süzülən göz yaşları 880 ilə yaxındır ki, ürəyimizi yandırır.

İllər, əsrlər ötəcək Adil Cəmilin şeirlərini oxuyanlar da o böyük şairin böyük dərdilə tanış olandan sonra dərindən ah çəkməyəcəklərinə necə inanmaya bilərik?

***

Adil Cəmilin oğlunun vaxtsız ölümünə həsr etdiyi şeirlər əslində, onun ürəyində yuva salmış dərdin səsidir. Bu səsi hamı eşidir və hər kəs gənc unudulmaz Orxanın vaxtsız ölümünə göz yaşları axıdır.

Orxan şair idi, həm də vətənpərvər bir gənc idi. Və mən deyərdim ki, o, ölmədi, şəhid oldu. Şəhid oldu və ölümsüzlüyə qovuşdu.

Mənim düşüncəmə görə şairlər də şəhid olurlar Şəhidlərin yeri Tanrı dərgahındadır. Şairlər də Tanrıya daha yaxın olduqlarına görə Tanrının pıçıltılarını

qələmə alıb dünyaya yayırlar. Bu şairlərə Tanrı tərəfindən verilən bir missiyadır. Şairlər bu missiyanı yerinə yetirəndən sonra gedib Tanrının dərgahında özlərinəməxsus yer tutur və mələklərə öz şeirlərini oxuyurlar.

Bəli, Orxan da Tanrı dərgahındadır. Təəssüf ki, onun bu dünyadakı missiyası tez başa çatdı.

Bu misraları həyəcansız necə oxumaq olar?

Ruhum yanır yanan canın içində,
Qəlbim dərdin, bağrım qanın içində.
Əlimizdən bircə anın içində
Uçub gedən quşa döndün, ay oğul.

«Ruhum yanır»

Bu mərsiyə isə Xaqani Şirvaniyə məxsusdur.

Günəşə bənzəyən bir oğlum vardı,
Basdırdım mən qara torpağa nagah.

Mənə elə gəlir ki, ürək ağrısı ilə yazılmış bu beytləri Xaqani Şirvani həm oğlu Rəşidin, həm də Adil Cəmilin oğlu Orxanını ölümünə yazıb. 20 yaşlı Rəşidin də, 34 yaşlı Orxanın da taleyi bir-birinə oxşayır. Onların hər ikisi şair idi. Və onlar Xaqaninin dililə desək dünyadan çox tez getdilər

...Dünya bir süfrədir, loğması zəhər,
Həyat bir yuxudur, ölümsə təbir.

...Rəşidin tez getdi, sənsə çox qaldın,
Onun ömrü sənə verildi, ey pir!

Bu misralar isə Adil Cəmilə məxsusdur. Eyni tale yaşayan, eyni oğul dərdi çəkən şairlərin şeirlərində də bir əlaqə var. Bu əlaqə hər iki şairi bir-birinə daha da yaxınlaşdırır.

Mən Adiləm - çaylar kimi çağlaram,
Fəryadımla dağları da dağlaram.
Qara daşa «Orxan» deyib ağlaram,
Niyə belə daşa döndün, ay oğul?!

«Ruhum yanır»

Mənə elə gəlir ki, Xaqaninin mərsiyəsi Orxana, Adilin şeiri də Rəşidə ünvanlanıb.

Xaqani Şirvani yazır:

Rəşidim öləndə dedim: «Ay bala,
Nə arzun var isə söylə müxtəsər».
Gülüb dedi: «Arzu həyat üçündür,
Ölərkən bir arzu qalırmı məgər?».

Adil Cəmil yazır:

Sənsiz ötüşməyir bircə anım da,
İçim sızıldayır - bəlkə duyursan?..
Atamın, anamın qəbri yanında
Mənim əvəzimə sən uyuyursan.

Xaqani Şirvani yazır:

Hər gecə göylərin yüksək qatına,
Xaqani naləsi qalxıb ucalar

Adil Cəmil yazır:

Ürək şana-şana, qəlb didim-didim,
Xoşbəxt günlərimiz bura qədərmi?
Deyirdim ay oğul, çiynində gedim,
Atanın çiynində oğul gedərmi?

Hər iki şairin iztirabları böyükdür, çox böyükdür. Bu böyük iztirabları, ancaq böyük şairlər qələmə ala bilərlər

HƏR UŞAQ BİR DÜNYADIR

Bu dünya çox zəngindir. Və hər uşağın da öz sirli, sehirli dünyası var. Bu dünyanı duymaq, uşaqların mənəvi aləmilə yaxından tanış olmaq xüsusi istedad və bacarıq tələb edir.

Adil Cəmilin uşaqlar üçün yazdığı şeirlər də sevilə-sevilə oxunur, yaddaşa həkk olunur, ürəkdə xoş təəssüratlar oyadır. Şair uşaq ədəbiyyatı ilə ciddi məşğul olmasa da, kiçik və orta yaşlı uşaqlar üçün yazdığı şeirlər onun uşaq dünyasına yaxından bələd olmasından xəbər verir.

Uşaq aləmini, onun incəliklərini dərindən bilən, bədii və şirin dillə tərənnüm edən, bu sahədə də uğurlar qazanan Adil Cəmil həm uşaqları sevindirir, həm də onları düşündürür, onlarda vətənpərvərlik, yurdsevərlik duyğuları aşılayır, son dərəcə romantik, gözəl bir üslub seçməyi bacarır. Bu şeirlər həm uşaqların, həm də böyüklərin kövrək xəyalını qanadlandırır, istər-istəməz dilimizdə bu sözlər səslənir: «Biz də uşaq olmuşuq».

Uşaq qəlbinə nüfuz etməyi bacaran, uşaq psixologiyasını bilən, şeirlərinin sadəliyi, təbiiliyi, şirinliyi və məna dəyərilə seçilən şair məxsusi yumorundan da qalmır. Onun, uşaq şeirlərinin böyük bir qismində quşlar, onların özünəməxsus xüsusiyyətləri, səciyyəvi hərəkətləri, eləcə də çiçəklərin, bitkilərin, ağac və kolların əlamətləri barədə məlumat verilir. Bu məlumatlar uşaqlar üçün çox əhəmiyyətlidir, onların təbiətlə tanışlığına bir köməkdir. Və həm də bu

məlumatlar o qədər dəqiq qələmə alınıb ki, ömründə həmin quşları, bitkiləri bir dəfə də görməyən kiçikyaşlı uşaqlar əlamətlərinə görə onları tanıyır, bir-birindən fərqləndirə bilirlər Məsələn, «Pişikquyruğu», «Ayıdöşəyi», «Quzuqulağı», «Qarağat» adlı şeirlərində həmin bitkilərinin fərqləndirici əlamətləri barədə məlumat verilir.

Bitib bulaq başında-
Suyuna, bulağına bax.
Bir az yedim turş daddı-
Dilimə, dodağıma bax.
Quzunun özü yoxdur,
Quzunun qulağına bax

«Quzuqulağı»

Və yaxud «Pişikquyruğu» adlı şeiri oxuyaq:

Çəməndə quyruq gördüm
Seçilmirdi çiçəkdən.
Pişiyin quyruğuydu
Elə bil ki, gerçəkdən.
Bir daş atdım tərpəndi,
Dedim pişik qaçacaq
Gördüm ki, quyruq imiş,
Torpaqda bitib ancaq.

Bu səpkidə yazılan şeirləri uşaqlar həm maraqla oxuyur, həm də gülə-gülə düşünür.

...«Qaranquş», «Qorxaq quş», «Kəpənəklər - gül

ləçəyi», «Durnalar», «Göyərçin» adlı şeirlərində isə quşlar haqqında məlumat verilir və bu məlumatlardan kiçikyaşlı uşaqlar həmin quşların xarakterik xüsusiyyətlərilə yaxından tanış olmaq imkanı qazanır:

«Qorxaq quş» şeirindəki bu misralara diqqət yetirək:

...Alabəzək sərçələr,
Kola bəzək sərçələr.
Yaxın getsən pırıldar,
Ağaclarda parıldar.
...Daha bildim necədir-
Ən qorxaq quş sərçədir.
Qorxa-qorxa beləcə
Qalıb boyu balaca

Şair bu şeirində sərçənin timsalında qorxaqlığı qınayır, uşaqları qorxaq olmamağa səsləyir. Şeirdə bu çağırış olmasa da hiss edilir, çünki Adil heç vaxt uşaqlara öyüd-nəsihət vermir, uşaqların özlərinin oxuduğu şeirlərdən nəticə çıxarmalarını istəyir və bu istəyində haqlıdır. Axı uşaqlar yaşlarına uyğun olmayan öyüd və nəsihətləri sevmirlər, bu, onları darıxdırır. Bu məlum həqiqəti yaxşı bilən Adil öyüd və nəsihətlərində həmişə bunu nəzərə alır və uşaqların şən və gülməli şeirlər sevdiklərini bildiyi üçün bu üsuldan da istifadə edir. Məhz ona görə də şairin uşaq şeirləri rəngarəngliyi, məzmunca dolğun, keyfiyyətcə yüksək olması ilə, həm də təbiiliyi və yumoru ilə seçilir.

Adil Cəmil darıxdırıcı şeirlər yazmır, uşağın

düşüncəsinə, mənəvi dünyasına çox yaxın olan şeirlər yazır. Uşaqlarda, eləcə də böyüklərdə xoş əhvalruhiyyə yaradan duyğular öz şirinliyi, öz təbiiliyilə gözəldir. Şair yumordan o qədər incəliklə istifadə edir ki, bu da onun uşaqlar üçün son dərəcə gözəl, romantik bir üslub seçmək bacarığını göstərir. Məsələn, «Sual-cavab», «Gül qızım, gülməli qızım» adlı şeirlərində olduğu kimi:

- Atacan, yüz saatdır
İynəni ver, deyirəm
- Neyləyirsən iynəni?
- Ev tikmək istəyirəm.

«Sual-cavab»

Uşaq şeirlərində şairi həm də bir müəllim kimi, təcrübəli pedaqoq kimi görürük. O, uşaq şeirlərində müəllimin funksiyasını yerinə yetirir, amma müəllimdən fərqli olaraq şair kimi şeir «dilində» danışır. Ona görə də şeirləri təkcə uşaqlar tərəfindən deyil, böyüklər tərəfindən də maraqla qarşılanır.

Adil Cəmilin uşaq şeirlərində yanıltmacaya da rast gəlirik. Belə şeirlərdən biri «Bulaqda» adlanır. Uğurla yazılan bu yanıltmac orijinal söz düzümü ilə diqqəti çəkir.

Ay balaca Baloğlan,
Bulandırma bulağı.
Şalvarına bax, oğlan,
Bulanıbdır balağı.
Baban gəlir, qalx, oğlan,

Çəkiləcək qulağın

Yanıltmaclar uşaqlarda danışıq tərzinə yiyələnməkdə böyük rol oynayır. Yanıltmacda sözlər ritmik, oynaq verilsə də məna itmir, əksinə, daha qabarıq verilir.

Yanıltmac dildə «çətinlik» yaratsa da, dili «dolaşdırsa» da, uşaqları cəlb edir və uşaqlar onu tez əzbərləyir və uzun müddət unuda bilmirlər. Fikrimizin təsdiqi kimi «Göbələk həsrəti» şeirinə nəzər salaq:

Ay Ayaz,
Gəl bu yaz
Götürək
Səbəti,
Çağıraq
Səmədi.
Toplayaq
Göbələk.
Çox yıxsaq
Gəl bölək
Az yığsaq
Neyləyək?

Yaxud «Arılar və balalar» şeirindən bu misraları misal gətirmək olar:

...Baldan şirin nə var ki
Bunu bilən balalar
Qaçıb arıxanaya
Babalardan bal alar.

Uşaqların mənəvi tələbini duyan, uşaq ədəbiyyatının estetik dəyərini real şəkildə dərk edən, şüuru formalaşdıran, uşaqları düzgün yola istiqamətləndirən, onlara maraqlı görünən həyat müşahidələrindən doğan hadisələri qələmə alan Adil Cəmil bir-birinə bənzəməyən uşaq şeirlərilə də seçilir və uşaq ədəbiyyatında özünəməxsus yeri olmasa da, yeri hiss edilir.

Bəli, uşaq aləmi maraqlı dünyadır. Bu maraqlı dünyanın sakinlərinə şeirlər yazan Adil Cəmil körpə balalara böyük məhəbbət bəsləyir, bulaq suyu kimi büllur, dağ çiçəyi kimi təmiz olan, saf duyğular qəlbinə hakim kəsilən uşaqlara ata sevgisilə yanaşır, sevincini, məhəbbətini belə izhar edir:

Atasının çiçək qızı,
Anasının gül balası
Gözlərindən günəş doğan
Vətən qızı, el balası.
Qız deyilmiş, qızıl imiş
Yurdun ipək tel balası.
Söz-söhbəti dilə düşən
Evin şirindil balası.
Bu dünyada dünyam sənsən
Gəl qucuma, gəl, balası

«Balası»

Adilin uşaq şeirlərini bir ümumi cəhət birləşdirir; uşağın tərbiyəsinə təsir etmək, onları düzgün yola istiqamətləndirmək, ata-anaya məhəbbət ruhunda

böyütmək, gözəlliyi sevdirmək...

O, uşaqlar üçün nədən və nəyi yazmağı yaxşı bilir. Yaxşı bildiyinə görə də şeirləri xoşa gələndir, ruh oxşayandır. Bu şeirlər uşaqların qəlbində yuva salır, onların fikir və hisslərinə, xəyallarına hakim kəsilir.

Bəli, şair uşaqları sevindirmək, onları düşündürmək üçün bir-birindən gözəl və mənalı şeirlərilə diqqəti cəlb edir.

«Yaylaqda» adlı şeirindən iki bəndə diqqət yetirək:

...Yerlə, göylə əlləşir
Buxovlanmış kəhər at.
Meşədən odun gəlib-
Ocaq yanır çata - çat

..Qırxbuğumun kətəsi
Sac üstündə buğlanır.
Alaçığın küncündə
Qaymaq payım saxlanır.

Balaca oxucularına vətənpərvərlik ruhu aşılamağa çalışan şair bu şeirində gözlərimiz önündə bir mənzərə canlandırır. İstər-istəməz qoyun-quzu mələşməsi eşidilir, balaca çobanların güləşməsi gözlərimiz önündən gəlib keçir; nehrəsini çalxalayan dilidualı nənələrimzin şirin zümzüməsi eşidilir «Yaylaqda» şeirinin hər misrasında vətənə, yurd yerinə məhəbbət var, tükənməz sevgi var. Vətənə olan məhəbbət hissləri balaca oxucuların da ürəyində baş qaldırır və onlar da özlərini qatar-qatar düzülən alaçıqda hiss

edirlər və onlar da fəxrlə deyirlər:

Ürəyə qüvvət verir
Bulağın hər qurtumu.
Anam qədər sevirəm
Doğma ana yurdumu

...Ciddi mətləbləri uşaqlara çatdırmaq üçün bəzən o, məzəli əhvalatlar uydurur, ən başlıcası isə uşağın başa düşəcəyi şəkildə öz fikrini bildirir.

Onun uşaq şeirlərində təbəssüm var, şirinlik var, yumor var, şirin bir zarafat var:

Gəl durmayaq yol üstündə-
Ehey, tərpən, qarğı atım.
Göy meşədə kol üstündə
Yol gözləyir qarağatım.

Çapdım, çapdım meşə boyu,
Büdrəmədi arıq atım.
Söylədi ki, meşəbəyi
Sovulubdur qarağatım.

Az qalmışdım düşüb atdan
Gözlərimə qora qatım.
Bir də gördüm yarpaq altdan
Əl eyləyir qarağatım.

«Qarağat»

Uşaqlıq illərində kim «qarğı atını» «minib» səyirtməyib ki? Demək olar ki, kənddə böyüyən bütün kişilər...

Bu şeir həm də böyüklərin qəlbində kövrək hisslərin baş qaldırmasına səbəb olur və böyüklərin də diqqətini cəlb edir.

Şairin uşaq şeirlərinin dili sadədir, anlaşıqlıdır, ifadələr obrazlıdır, təsvir olunan obyekt quru ifadələrdən uzaqdır.

Uşaqlar üçün yazmaq o qədər də asan deyil. Uşaqlar üçün yazan şair gərək bədii sözün bütün cazibədar gözəlliyindən istifadə etsin, çünki yüksək bədii keyfiyyətə malik olan şeirləri sevə-sevə oxuyurlar. Həm də bədii sözün ruhunda yumor olanda bu, uşaq qəlbinə daha tez hakim olur. Bu keyfiyyətləri Adil Cəmilin şeirlərində də görmək mümkündür. Məhz ona görə də şeirləri uşaqların qəlbinə asanlıqla yol tapa bilir.

Misraların ahənginə, bədii təsir gücünə xüsusi əhəmiyyət verən Adil Cəmilin «Aysel» şeirindən götürdüyümüz aşağıdakı misralar fikrimizi bir daha təsdiqləmiş olur:

..Elə bil ki, Ayseli
Çəkib rəssam fırçası.
Bu aydınlıq gecədə
Aysel bir ay parçası.

Sarışın saç, mavi göz,
Nurlanıb işıq saçır.
Aysel Ayın altında
Fırlanıb işıq saçır.

Yeddi bəndlik şeirdən misal gətirdiyimiz iki bənd-

dən də görünür ki, şair sanki rəssam kimi şəkil çəkib. O, Ayselin şəklini ustalıqla çəkərək gözlərimiz önündə canlandırır.

Şairin süjetli uşaq əsərləri də var. O, süjetli şeirə uşağın mənəvi tələbatı kimi baxır və öz düşüncəsində yanılmır. Bu səpkidə yazılmış şeirlər yalnız təbəssüm doğurmur, uşağı güldürmür, həm də ibrətamiz sonluğu və bədii təsirilə seçilir. Məsələn, şairin «Zirvədə göl», «Şələquyruq», «Azmayan azğın pişik» poemaları təqdirəlayiqdir. Müəllifin həcmcə çox kiçik olan poemaları kiçikyaşlı uşaqlara geniş bilgi verməklə, onları düşündürür

Adil Cəmil şeirlərində uşaqlara əxlaq dərsi keçmir, canlı həyat hadisələrini qələmə alır və uşaqların özlərinin nəticə çıxarmasını istəyir. Bu da şairin uşaq qəlbinə dərindən bələd olmasından irəli gəlir.

O, uşaq psixologiyasını yaxşı bilir, uşaq dünyasına dərindən bələddir. Məhz ona görə də yazdığı şeirlər uşaqlara güclü təsir edir, uşağın xarakterinin formalaşmasında, vətənpərvərlik ruhunun inkişafında əvəzsiz rol oynayır.

Uşaqları sevmədən, onların psixologiyasına bələd olmadan gözəl sənət əsərləri yaratmaq o qədər də asan məsələ deyil. Axı uşaq psixologiyasını dərindən bilməyən şair, yaxud yazıçı necə gözəl əsər yarada bilər? Bu, mümkün deyil.

Təbiət gözəlliklərini uşaqlara sevdirmək üçün bir çox yüksək məziyyətli şeirlər yazıb. «Murov dağ», «Qoruq», «Laçın qaya» və s. kimi şeirlərində təbiət mənzərələrini poetik bir dillə təsvir edir.

Balaca oxucuların dünyagörüşünün genişlənməsinə, onların estetik zövqlərinin inkişafına yardımçı olan şair uşaqlara həm də heyvanlar, quşlar haqqında, təbiət haqqında geniş bilgi verir.

«Təbiətin qanunu» şeirindən bir neçə bəndə diqqət yetirək:

Quyruğunu bulayan
Tülkü buyruq quludur.
Minsifətli tülkülər
Pələngdən qorxuludur.

..Bayquş «bəy quş» deməkdir,
Budaqdan «bəy» enməyir.
Bağa çıxır qınından
Qınını bəyənməyir

«Təbiətin qanunu» şeirində hər heyvanın, bitkinin özünəxas əlamətləri şirin bir dillə göstərilir. Bu şeirdə şair həm də heyvanların timsalında bir çox insanlara da öz sözünü-düz sözünü deyir. Şeir o qədər sadə dillə qələmə alınıb ki, uşaqlar müəllifin nə demək istədiyin anlaya bilir.

Adil Cəmil uşaqların qəlbində nəcib insani hisslər, duyğular oyatmaqla, onları həm də babalarımıza, nənələrimizə, eləcə də doğma vətənimizə məhəbbət ruhunda tərbiyə edir, yurd yerlərini uşaqlara tanıdır və sevdirir, uşaq təfəkkürünə uyğun şəkildə onlara təqdim edir.

Məsələn, «Xınalıq» şeirindən bu misralara diqqət ye-

tirək:

Gül nəfəsli dağ kəndinin
Evləri zirvədən baxır.
Xınalıq bir möcüzədir-
Gələn baxır, gedən baxır.

Bu kənddə bir evin damı
Başqa evə həyət olub.
Burda heç kəs seçilməyib-
Hamıya bir həyat olub.

Şeirdə Qubanın Xınalıq kəndini təsvir edən şair uşaqlarda bu kənd haqında geniş təsəvvür yaradır və uşaqlar Xınalıq kəndini Adil Cəmilin şeirindən tanıya bilirlər

...Şair eyni zamanda uşaqlarda əməyə məhəbbət hissi oyatmaq məqsədilə bir-birindən gözəl şeirlər qələmə alıb. Gəlin «Dülgər dayı» adlı şeirdən bu misraları oxuyaq:

..Dülgər dayı saxlamayır
Rəndəsinin yonqarını.
Bircə-bircə sığallayır
Ağacların donqarını.

Dülgər dayı işləyir ki,
Taxtadan ev-eşik olur.
Dülgər dayının əlində
Taxta dönüb beşik olur.

Şair qayğıkeş bir ata kimi, həm də bir müəllim

kimi zəhmətin yüksək insani duyğularla vəhdətini «Naxırçı Əkbər», «Kəndçi babam, cütcü babam» və «Dülgər dayı» şeirlərində məharətlə açıb göstərir. «Dülgər dayı» adlı şeirdə əlində rəndəsilə ağac yonan dülgər təsvir olunur. Dülgər işləyir, ağacın donqarını rəndələyir və nəhayət ki, gözəl bir beşik düzəldir. Oxucunun gözləri qarşısında əvvəlcə yöndəmsiz, əyri-üyrü taxta parçaları, sonra da könül oxşayan uşaq beşiyi canlanır.

Beşik körpə üçündür. Körpə dülgərin gələcəyidir. Gələcək uşaqlara məxsusdur, necə deyərlər uşaqlar bizim gələcəyimizdir. Şair «Taxta dönüb beşik olur» misrasında məhz bunu demək istəyir.

O, zəhmətsevər dülgəri təsvir etməklə əməyi tərənnüm edir və bu gözəl təsvirin arxasında həm də şairin nəcib məqsədi dayanır.

***

Adilin şeirlərini oxuyan böyüklər də özlərini uşaq dünyasında hiss edirlər. Bu dünya safdır, təmizdir, gözəldir və istər-istəməz bu saflığa, təmizliyə, gözəlliyə qovuşursan. Adilin poetikasının sehirli aynasında özlərini görən böyüklərin ürəyində yenidən uşaq olmaq arzusu baş qaldırır.

Həyat hadisələrini, uşaq dünyasını səbrlə, müdrikcəsinə müşahidə edən, gördüklərini poetik təsvirə, obraza çevirən şair uşaqları söz sehrinə sala bilir.

Bəli, Adil Cəmilin uşaqların ədəbi zövqünün formalaşmasında böyük zəhməti var və onun bu zəh-

məti unudulmazdır, ürəyində uşaqlara olan ata məhəbbəti, baba sevgisi çox güclüdür.

Gəlin «Yuxusunda gülən qız» şeirindən bir parçanı oxuyaq:

Dedim: - Birdən səs salar
Qovdum qara pişiyi.
Yuxuladı Xəyalə
Yelləndikcə beşiyi.

Yuxu gəldi gözünə
Kirpikləri qovuşdu.
Əlində alma yatdı-
Alması bir ovucdu.

Səkkiz bəndlik şeirdə romanlara sığmayan fikir və təsvir var, «Yuxusunda gülən qız»ın ata sevinci, ata məhəbbəti var Şeir oxucuya xoş təsir bağışlayır və bu təsirin gücü ürəklərdə aylarla qalır

Adil Cəmilin şeirlərində poetik duyumun dəyəri həm də ondadır ki, onun özünəməxsus ifadə tərzi var, yazı dili şirindir. Bu gözəl ifadə tərzi və şirindillilik folklorumuzdan gəlir, folklora xas olan əlamətdir ki, bu da şairin şifahi xalq ədəbiyyatını gözəl bildiyindən qaynaqlanır:

Bu birliyi görənlərin
Apardığı heyrət olur.
«El bir olsa dağ oynadar...»,
Birlik varsa qeyrət olur.

«Xınalıq»

Poetik fikir və duyğuların ifadə tərzi, uşaqlarla şirin üslubda təmas yaratmaq ustalığı, onlara öz fikrini olduqca aydın, harmonik şəkildə ifadə etmək bacarığı şairin şeirlərinin daha effektli, daha sirayətedici olmasına gətirib çıxarır.

Yenə də bəzənir yallar, yamaclar,
Oyanır yuxudan yatan ağaclar.
Çöllərdə səs-səsə verib turaclar
Oxuyur: - Nə qədər qəşəngsən, bahar!

«Bahar»

Bu şeirdə bitkin, real mənzərə lövhələri yaradılıb. Bu şeiri oxuyan hər bir uşağın gözləri önündə əsil təbiət mənzərəsi canlanır, çünki baharın poetik təsviri elə canlı verilmişdir ki, sanki bir rəssamın çəkdiyi mənzərə tablosuna baxırsan.

Şairin «Günəş baxır Günəşə» adlı şeiri də bu qəbildəndir. Şeirdə dəniz və günəşi o qədər dolğun və real bir şəkildə təsvir edilmişdir ki, heyrətlənməmək olmur.

...Elə bil ki, göydən yox,
Dənizdən baxır günəş.
Dəniz də bir göy üzü-
Bu «üzdən» baxır günəş.

Kimə desən inanmaz-
Qopub yerə gün düşə
Dənizdən günəş doğur-

Günəş baxır günəşə

Hər bir sözün poetik dəyərini yüksək qiymətləndirən Adil Cəmilin şeirlərində yerində olmayan bir sözə rast gəlmək mümkün deyil. Bu, onun uşaq şeirlərində də xüsusilə özünü göstərir, az sözlə balacalar üçün real həyat mənzərələri yarada bilir, az sözlə canlı aləmin rəngarəngliyini bədii boyalarla təsvir edir, ən gözəl poetik nümunələr yaradır.

Görkəmli rus yazıçısı Maksim Qorki «Ədəbiyyat haqqında» (Bakı, 1950) kitabında söz yaradıcılığını bədii sənətdə əsas meyar kimi götürərək yazırdı: «Ədəbiyyatın əsas materialı sözdür. Bizim bütün təəssüratlarımızı, fikirlərimizi müəyyən formaya salan da sözdür Sərrast seçilmiş söz, ifadə və cümlələr arasında sənətkar elə parlaq lövhələr, elə canlı portretlər yarada bilər ki, oxucu təsvir edilən varlığı, hadisəni şəxsiyyətin gözü ilə görmüş kimi olar. Sənətkar bilməlidir ki, o, sadəcə qələm işlətmir, bəlkə də, söz və ifadələr əsasında şəkil çəkir, portret yaradır. Həm də o, insanı rəssam kimi hərəkətsiz təsvir etmir, surət və personajları dinamik inkişafda, qaynar iş fəaliyyətində, ardıcıl və qətiyyətli mübarizədə canlandırır».

Yaradıcılığında bu prinsipə ciddi əməl edən Adil Cəmil kövrək uşaq qəlbini dərindən duyduğuna görə, uşaq qəlbini oxşayan, uşaq dünyası ilə üst-üstə düşən şeirlərə daha çox üstünlük verir, uşaq qəlbinin ən incə məqamlarına toxunaraq onlarda heyranlıq hissi yaradır.

Bu şeiri oxuyan uşaq təbiətin möcüzəsinə, kəpə-

nəyin təsvirinə necə heyran olmaya bilər?

...Kəpənəklər çiçəklərin
Qol-qanadlı gələcəyi.
Kəpənəklər havalanıb
Göydə uçan gül ləçəyi.

Kəpənəklər göy çəmənin
Gül ətri, gül qoxusudur.
Kəpənəklər çiçəklərin
Allı-güllü yuxusudur.

«Kəpənəklər - gül ləçəyi»

Adil Cəmil istər təbiətin, istərsə də bir çiçəyin təsvirini verərkən onları real boyalarla təqdim edir, hamının müşahidə edə bilmədiyini, öz müşahidələri nəticəsində üzə çıxarır. Bəli, təfəkkürün yaratdığı bir obraz kimi, çiçək də, quş da, dağ da, duman da, bahar da, çəmən də zahiri görkəmcə daha canlı, daha baxımlı olur.

Təbiət şairin poetik yaradıcılığında xüsusilə diqqəti çəkir. Poetik obrazları daha qabarıq verən, hər varlığın əksini gözlərimiz önündə canlandıran, təbiətin gözəlliyini sənətkarlıqla yarada bilən Adil Cəmil böyük rus yazıçısı Aleksey Tolstoyun dediyi kimi uşaqların «həyatı qavrama ölçüsünə və tərzinə uyğun» şeirlər yazır. Aleksey Tolstoy «Uşaqlarımızın uşaq ədəbiyyatından istədikləri nədir?» sualına belə cavb verirdi ki, «Hər şeydən əvvəl, onlar istəyirlər ki, onların ədəbiyyatı onların həyatı qavrama ölçüsünə və tərzinə uyğun olsun». - Bəli, Adil Cəmil də uşaqların

həyatı qavrama ölçüsünə və tərzinə uyğun şeirlər qələmə alır. Onun şeirlərində harmoniya, musiqi, şirin duyğular, konkretlik özünü daha çox göstərir.

Yuxarıda da ərz elədiyim kimi uşaqlara daha çox xoş gələn yumorlu və zarafat tərzində yazılan «Xumar və mən» adlı şeirindən bir parçanı nəzərdən keçirək:

-Yat, mənim quzum,
Ayım, ulduzum.
Açılsın sabah,
Çıxaq səhərə,
Gedək şəhərə

Gör Xumar balam
İndi nə deyir:
- Onda, ay ata,
Sabahın xeyir

Burada uşaqlara xas olan şən əhval-ruhiyyə daha qabarıq nəzərə çarpır, obrazın özünəməxsus mənəvi dünyası, psixoloji-xarakterik xüsusiyyətləri göstərilir. Şeiri oxuyanda istər-istəməz dodaqların qaçır, üzündə xəfif bir təbəssüm oyanır. Bu şeirdə şair balaca Xumarın zahiri portretilə yanaşı, daxili dünyasını da gözlərimiz önündə canlandırır, uşağın nadinciliyini, hərəkətlərini xoş ovqatlı yumorla qələmə alan sənətkar lirik qəhrəmanın xarakterini açmağa müvəffəq ola bilmişdir.

Adil Cəmil uşaqlara həsr etdiyi şeirlərində onlarla

uşaq dilində danışır. O, təbiət aləminə nüfuz edəndə də uşaqlara məxsus əlamətləri önə çəkir, onların xarakterik xüsusiyyətlərini üzə çıxarır.

Adil Cəmil uşaqlar üçün az yazsa da, yazdıqları şeirləri nəzərdən keçirdikdə onun fərdi üslubundan doğan mənzərə lövhələri daha çox nəzərə çarpır. Könül oxşayan poetik lövhələr yaradan şairin təsvir etdiyi obyekt gözəl bir mənzərə təsiri bağışlayır və uzun müddət gözlərin önündə canlanan bu mənzərənin ovsunundan azad ola bilmirsən. Şair şeirlərində sözlərin yığcamlığına, düzülüşünə, az sözlə bütöv poetik bir fikir ifadə etməyə, necə deyərlər, konkretliyə üstünlük verir, çünki şeirdə söz yığnağından xoşu gəlmir, sözü havayı işlətməyi nəinki özünə, heç kimə rəva görmür, şeirdə yığcamlıq prinsipinə həmişə sadiq qalır. Böyük rus tənqidçisi V. Q, Belinski də şeirin yığcamlığına, konkretliyinə üstünlük verərək yazırdı: «Lirik əsərlərin uzunluğu ondan irəli gəlir ki, ya şair eyni bir əsərdə bir duyğudan başqa bir duyğuya keçir və bu keçidləri, istər-istəməz ritorik əlavələrlə doldurmağa məcbur olur, ya da saxta şeirə və daha artıq lirikaya zidd olan bir cərəyana qapılıb hər hansı didaktik, mücərrəd fikirləri inkişaf etdirir».

Hər bir uşaq şeirində yeni poetik fikirlər söyləyən, cəlbedici əsərlər yaradanda da fərdi yaradıcılıq istedadı və üslubu həlledici rol oynayan, uşaqları şeirlərilə məşğul edən, düşündürən, sevindirən Adil Cəmil uşaqlara məxsus məsumluğu, təmizliyi bu gün də qoruyub-saxlayır. O, bu yaşda da uşaqla uşaq kimidir, nəvələrilə nəinki onların öz dilində danışır,

hətta onlarla dostluq, yoldaşlıq edir. Bu dostluğun, yoldaşlığın nəticəsidir ki, yaddaqalan, xoş ovqat bağışlayan, üzdə təbəssüm oyadan, həm də düşündürən şeirlər yazır. Mənə elə gəlir ki, bu gözəl şeirlərə görə həm qələminə, həm də nəvələrinə borcludur.

Adil Cəmilin qəlbinə saf və təmiz duyğular hakim kəsilib. Təmiz və saf duyğular olmasaydı, könül oxşayan şeirlər də yazılmazdı. Hər halda mən belə düşünürəm. Həm də düşünürəm ki, şair uşaqlardan şeir yazanda daha çox özünə qayıdır, təmizliyinə qayıdır, uşaqlıq illərini yadına salır, tozlu-torpaqlı kənd yollarında qaçdığı günləri xatırlayır.

Həmişə saflığa, düzlüyə can atan şair doğma yurd yerini, uşaqlıq illərini xatırladıqca, uşaqlıq dünyasına daxil olduqca ilahidən daha çox güc alır, sanki nur selinə bürünür və hər zaman Adil Cəmil kimi qalmağa cəhd edir. Bu mənada «Kəhər atım», «Alma satan Əvəz kişi», «Nənəm nağıl deyərdi», «Kənd yolunda» və s. şeirləri misal göstərmək olar.

***

Şairin «Vüqarın vüqarı» adlı şeiri də maraqlıdır, diqqətçəkəndir. Uşaqların qəlbində elmə həvəs oyadan, elmi təbliğ edən, onun böyük mahiyyətini uşaqların başa düşəcəyi şəkildə - balaca Vüqarın timsalında belə açıqlayır:

...Nə olsun ki, məktəbə
Düşməyir hələ yaşım.
Mənim qədər bilməyir

Məndən böyük qardaşım.
Dostum, hələ bu nədir,
Hələ indi mən kiməm.
Bir vaxt gələr görərsən
Ağ xalatlı həkiməm.

Həkim olmaq üçün gərək dərslərini yaxşı oxuyasan, elmin sirlərinə bələd olasan. Bunu balaca Vüqar da yaxşı anlayır.

Şair Vüqarın dililə gənc nəslin oxumasını, kamala yetməsini arzulayır.

Bu şeirdə də dil sadə və anlaşıqlıdır. Vüqarın arzu və istəyi lirik boyalarla verilir və şair yenə də bədii sözün bütün cazibədar gözəlliyindən məharətlə bəhrələnir.

***

Vaxtilə Səməd Vurğun yazırdı: «Uşağın sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur: düşünmək, duymaq, sevinmək, küsüb-incimək, ağlamaq, gülmək, qəzəblənmək, xatırlamaq, xəyala dalmaq, ümid və arzulara bağlanmaq, yaxşılıq, hörmət-bütün insani xassələr uşaq aləmində mövcuddur». - Əvvəlcə öz oğul və qızlarını, sonra da nəvələrini müşahidə edə-edə, onları duya-duya uşaq dünyasını öyrənən Adil Cəmil düşünmək, qəzəblənmək, xəyala dalmaq və s. insani xassələrin uşaq aləmində mövcud olduğunu yaxşı görür. Gördüklərini qələmə alaraq «Gül qızım, gülməli qızım», «Əkizlər», «Dəniz və Xumar» kimi gözəl sənət əsərləri yaradır:

Bu şeirləri oxuyandan sonra belə bir qənaətə gəlirsən ki, uşaq şeiri yazmaq üçün təkcə istedadlı olmaq kifayət deyil, uşaq aləmini dərindən bilmək gərəkdir. Uşaq aləmini dərindən bilməyən, uşaq dünyasına daxil olmayan şair uşaqlar tərəfindən sevilən şeirlər yaza bilməz.

Uşaqların yaş səviyyəsini nəzərə alaraq onların hər birinin yaşına uyğun şeirlər yazan Adil Cəmilin hər bir əsəri bir çox cəhətdən düşündürücüdür.

Şair uşaqlar üçün yazdığı şeirlərə çox məsuliyyətlə yanaşır və çalışır ki, şeirin dili daha cazibədar olsun, qafiyələr oynaqlığı ilə seçilsin, uşaqlarda xoş ovqat yaratsın, onları düşündürsün.

Adil Cəmilin uşaqlar üçün yazdığı tərbiyəedici şeirlər də az deyil. Bu baxımdan uşaq şeirləri çox qiymətlidir və uşaqların vətənpərvərlik ruhunda tərbiyə olunmasında əhəmiyyətlidir. Fikrimizin təsdiqi kimi şairin «Sən mənimsən, sən mənim», «Laçınqaya», «Dava-dava» və s. kimi şeirlərini göstərmək olar.

...Bu torpağın oğluyam,
Balaca Koroğluyam
Mənim ana vətənim,
Sən mənimsən, sən mənim.

«Sən mənimsən, sən mənim»

Şeirdə vətənə, yurd yerinə ülvi bir məhəbbət, tükənməz bir sevgi var. Şeirdə adları çəkilən qərənfil də, nərgiz çiçəyi də, sünbülə dönən dən də, allı-güllü çəmən də müqəddəsdir, doğmadır, çünki onlar Vətən torpağında bitir. Vətənin isə hər quru çöpü belə əzizdir...

***

Uşaqların dərk edəcəyi dildə yazılan şeirlər, həm də onlara yeni biliklər verir, onların mənəvi cəhətdən zənginləşməsində böyük təsir qüvvəsinə malikdir.

Şairin qələminin qüdrətindən xəbər verən «Murov» adlı şeirə nəzər salaq:

...Yamacında ərimir
Qar qalağı, qar tarı.
Zirvəsində qıy vurub
Keşik çəkir qartalı.

Görəsən, Murov dağını bundan gözəl necə təsvir etmək olar? Şeirin təsir gücünü dərindən duyan uşaqlarda Murov dağı haqqında daha dərin təəssürat oyanır və bu baxımdan «Meşəbəyi» adlı şeir də maraqlıdır.

...Meşəbəyi yaxşı bilir
Meşənin sərhəddi nədir.
Bir kimsənin bir ağaca
Əl vurmağa həddi nədir

Çiynində qoşalüləsi,
Belində patrondaşı var.
Heç kəs deyə bilməz ona-
Gözü üstündə qaşı var.

Bu şeiri oxuyan hər bir uşaq meşəbəyi haqqında danışa bilər, onun vəzifələrini bir-bir deyər və bu gözəl peşəni təqdir edər. Şeiri oxuduqca gözlərimiz önündə meşəni qoruyan ”meşəbəyi-meşə bəyi» canlanır, eləcə də gündüşməz meşələr, buz kimi bulaqlar gözlərimiz önündən kino lenti kimi gəlib keçir.

Uşaq dünyası çox zəngindir. Bunu şair də gözəl bilir. Məhz ona görə də hər bir şeirində bunu nəzərə alır. O, həm də yaxşı bilir ki, uşaqların təfəkkürü də poetikdir, romantikdir. Uşaq heyvanların danışığına, külək əsəndə çiçəklərin üşüməsinə, yarpaqların pıçıltısına, çayların nəğmə oxumasına, inəyin saqqız çeynəməsinə və s. bu kimi ifadələrin doğruluğuna inanır, şübhə etmir. Yəqin ki, uşaqların multuplikasiya filmlərinə böyük maraqla tamaşa etdiklərini, Maşa ilə Ayının sərgüzəştlərinə heyran kəsildiklərini hamımız görmüşük. Çiçəklərin, quşların, heyvanların danışdığına uşaq inanır və onların xəyal dünyası seyr etdikləri filmlərlə, oxuduğu, yaxud dinlədiyi şeirlərlə birgə dolanır.

Ana laylası qədər həzin, ana südü qədər şirin şeirlərində şair uşaqlarla aydın bir dildə danışır, bəzən də bir rəssam kimi təsvir etdiyi obyektin sözlə şəklini çəkir.

«İnək saqqız çeynəyir» adlı şeirində ala inəyin sözlə şəklini elə ustalıqla çəkib ki, balaca oxucular inəyin saqqız çeynəməsinə inanmaya bilmir:

...Ala inək kövşəyir,
Dişləri şaqqıldayır,
Çənəsi taqqıldayır.
Birdən qaçıb Şəlalə
Heyrətlə deyir belə:
- Görürsənmi ay nənə,
Ala inək neynəyir-
Oğurlayıb cibimdən
Saqqızımı çeynəyir

Və yaxud «Dəniz və Xumar» şeirinə diqqət yetirək. Bu şeirdə də balaca Xumar qağayıların dalğanı dənlədiyinə, əsən küləklərin ağacları güldürdüyünə, dənizin qəşəng donu olduğuna inanır və bu inamla da atasını sorğu-sual edir:

..Niyə gülür ağaclar,
Niyə danışmır dəniz?
Bəlkə də küsdürüblər
Hələ barışmır dəniz.

Ay ata, bu dənizin
Gör nə qəşəng donu var.
Dəniz harda qurtarır,
Dənizin də sonu var?

Yaxşı ki, qar yağmayır,
Qar yağsa dəniz donar.
Ay ata, qurban olum,
Mənə dənizdən don al

Və ən nəhayət, onu demək istəyirəm ki, Adil Cəmilin uşaq şeirləri tərbiyəvi əhəmiyyəti baxımından çox qiymətlidir. Onun şeirləri uşaqların etik və estetik tərbiyəsinin düzgün istiqamətləndirilməsində, vətənpərvərlik, humanizm, təbiətə vurğunluq və s. kimi keyfiyyətlərin aşılanmasında mühüm rol oynayır.

Sözə son dərəcə məsuliyyətlə yanaşan, şirin bir dillə yazan, dilimizin zənginliklərindən məharətlə istifadə edən Adil Cəmil poeziyasında bir uşaq səmimiliyi var. Bəlkə uşaq şeirlərinin səmimi və gözəl olması onun da uşaq kimi təmiz və səmimi olmasından irəli gəlir? Bu, həqiqətən belədir.

Son söz əvəzi

TURAN DÜNYASININ ŞAİRİ

İstəkli oxucular! «Adil Cəmilin poeziyası» kitabını yarpaq-yarpaq çevirdiniz, oxuyub başa vurdunuz. İnanıram ki, Adil Cəmilin söz dünyası ilə az-çox tanış oldunuz və bu tanışlıqdan məmnun qaldınız. Həm də inanıram ki, istedadlı bir şairin söz dünyasından söhbət açmaqla, onun işıq dolu, məna dolu şeirlərini təhlil etməklə, fikir və düşüncələrini üzə çıxarmaqla, bir sözlə, şairin sənətkarlıq xüsusiyyətlərindən danışmaqla bu görkəmli qələm adamının yaradıcılıq yoluna az da olsa işıq sala bilmişəm.

Bir qələm adamı kimi mən də Adil Cəmilin söz dünyasından söz açmaq istədim. İstəyimə nail ola bildimmi? Deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, Adilin şeirlərinin ruhu mənə nəyi anlatdısa onu da yazmalı oldum. Yazmasam, mənən rahatlıq tapmayacaqdım, çünki Adilin şeirləri məni elə ovsunlamışdı ki bu ovsundan, bu sehrdən qurtulmağın bircə yolu vardı: Yazmaq, ancaq yazmaq Son nöqtəni qoymamışdan öncə daha nə deyə biləcəyimi fikirləşdim. Fikirləşdim ki, «son söz yerinə» daha nə əlavə edə bilərəm. Elə bu dəm qeybdən bir səs eşitdim. Bu səs sanki havada uçurdu və mən havada uçan səsi aydınca eşidirdim. Eşitdiklərimi «son söz yerinə» əlavə etməli oldum. Adil Cəmil əbədiyyətə doğru yol gedən şairdi. Əbədiyyət yolunda onun qoyduğu izlər açıq-aşkar görünür. Bu izlər onun məna dəyərini heç vaxt itirməyəcək şeirləridi. Bu şeirlərin hər birində o böyük şairin özünü gördüm, səsini eşitdim, nəfəsini duydum.

Mən Adil Cəmilin poeziyasının və poetikasının özünəməxsusluğunu üzə çıxarmağa cəhd eləmişəm. İstə-

mişəm ki, çağdaş Azərbaycan poeziyasında yeni cığır açan, heç kimi təkrarlamayan, heç kimin yoluyla getməyən Adilin özünəməxsus yaradıcılığından söz açam və fərdi poetik təfəkkürü ilə seçilən şairimizin əsərləri barədə öz fikir və düşüncələrimi bölüşüm.

Onun şeirlərində həsrət yanğısı da var, kədər də, qəm də şeirlərindən boylanan kədərin, sezilən qəmin və həsrət yanğısının özündə də bir ümid var. Ümid işıqdı. Bu işıq şairin kədərində də, qəmində də əks olunur.

Poeziyasevərlərin sevdiyi və dəyər verdiyi, gözəl bir şair kimi qiymətləndirdiyi Adil Cəmil yaradıcılığı haqqında az da olsa söhbət açdım və bu qənaətə gəldim ki, onun çoxsahəli poetik yaradıcılığından sanballı tədqiqat əsərləri hələ çox yazılacaq.

Şairin geniş yaradıcılıq miqyasını təsəvvür etmək üçün iki cildlik seçilmiş əsərlərini oxumaq kifayət elə-yər ki, bu da özlüyündə onun bir şair kimi formalaşmasının və inkişaf etməsinin əyani təsdiqidir.

Adil Cəmil aydın və oxunaqlı şeirlər yazır. Şeirlərinin məna tutumu, fəlsəfi yükü, təsir gücü də sadə və aydın bir şəkildə yazılmasındadır. Hamının anladığı, qavradığı sadə üslubda şeirlər yazan şair həyatda təvazökar olduğu kimi şeirlərində də təvazökardır, səmimidir. İşıqlı, şərəfli və mənalı şair ömrü yaşayan Adil Cəmil Azərbaycan ədəbiyyatında əsl sənətkar kimi qalacaq və yaşayacaqdır. Gələcək nəsillər də, poeziyasevərlər də onun səsini eşidəcək, şeirlərini oxuyacaq, xalqına, vətəninə, millətinə böyük sevgilərlə yanaşan şairin kitablarını sevə-sevə oxuyacaqlar.Unudulmaz şairlər sırasında onun yeri həmişə görünə cəkdir.

İstəkli oxucular! Mənli də, mənsiz də Adil Cəmili tanıyır, onun şeirlərini sevə-sevə oxuyursunuz. Mən isə sadəcə olaraq onun yaradıcılığı haqqında fikirlərimi, dü-

şüncələrimi, ürəyimdən gələn səsləri qələmə almağa çalışdım və öz-özlüyümdə «Adil Cəmil kimdir?» sualına cavab tapmağa çalışdım. Əminəm ki, bu kitabı oxuyub başa vurandan sonra mənim fikirlərimlə sizin də fikirləriniz üst-üstə düşəcək və siz də mənim gəldiyim nəticə ilə razılaşacaqsınız. Razılaşacaqsınız ki, Adil Cəmil müasir Azərbaycan poeziyasında öz üslubu, öz dəsti-xətti, öz yeri və çəkisi olan orijinal bir şairdi, böyük ədəbiyyatın zirvəsinə doğru inamla addımlayan bir şairdi.

O, halal söz adamıdı, halal qələmilə vətəninə, millətinə xidmət eləyən, sözünün qüdrətilə seçilən cəsarətli söz sahibidir. O, həm də heç kimin dərdinə biganə qalmayan, vətənin, millətin ağrılarını ürəyində gəzdirən, Azərbaycanın uğurlarına sevinən, Azərbaycan həqiqətlərini dünyaya çatdıran, yurdun hər qarış torpağını müqəddəs bilən, elnən nəfəs alan, elin xeyrində, şərində yaxından iştirak edən, xalqın sevinciylə sevinən, kədəriylə kədərlənən vətəndaş şairdir.

Adil Cəmil ürək adamıdı, dost adamıdı, həm də vətənin füsunkar gözəlliyindən, təbiətindən, zirvəsi buludlardan nəm alan dağlarından ilham alan gözəl təbli şairdi, təkcə Azərbaycanın yox, Turan dünyasının şairidir. Bu səbəbdən də şairin söz dünyasından söz açmaya bilməzdim.

Adilsevərlər bu gün də çoxdur, sabah isə daha çox olacaqdır. Çünki o, daha çox sabahın şairidir, gələcəyin şairidir, bir sölə, bütün zamanların şairidir. Bunu mən demirəm, bunu şairin şeirləri deyir, bir-birindən maraqlı və oxunaqlı kitabları deyir.

Şeirlərini sevə-sevə oxuduğum Adil Cəmilin söz dünyası haqqında fikir və mülahizələrimə burada nöqtə qoyuram. Şair Əli Kərim demişkən «Daha heç nə demirəm, nöqtə, nöqtə və nöqtə».

Vaqif İsaqoğlu,
22 fevral 2022

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Adil Cəmil. Seçilmiş əsərləri. I cild. Bakı, «Elm və təhsil», 2014.
2. Adil Cəmil. Seçilmiş əsərləri. II cild. Bakı, «Elm və təhsil», 2014.
3. Adil Cəmil. Anama layla. Bakı, «Elm və Təhsil», 2020.
4. Adil Cəmil. «Yuxusunda gülən qız». Bakı, «Gənclik». 1989.
5. Adil Cəmil. «Manas» (dastan-poema). Bakı, «Elm və təhsil», 2021.
6. Yusif Seyidov. «Sözün şöhrəti». Bakı, 1986.
7. Bualo.» Poeziya və sənət». Bakı, 1969.
8. V. Belinski. Seçilmiş məqalələr. Bakı, 1971.
9. M. Qorki. «Ədəbiyyat haqqında». Bakı, 1950.
10. B.Vahabzadə. «Sadəlikdə böyüklük». Bakı, 1978.
11. Aydın Məmmədov. «Sözümüz eşidilənədək». Bakı, 1988.

KİTABIN İÇİNDƏKİLƏR

Haqqa könül verən haqq şairi (ön söz əvəzi).....3
Adil Cəmilin poetik dünyası.....8
Vətən duyğulu, təbiət ətirli şeirlər.....82
«Eşqsiz ey dünya nədir dəyərin»?.....148
Dərdin Adil Cəmil zirvəsi.....185
Hər uşaq aləmi bir dünyadı.....210
Turan dünyasının şairi (son söz əvəzi).....236

Vaqif İSAQOĞLU

Adil Cəmilin poeziyası
(monoqrafiya)

İMZA
NƏŞRLƏR EVİ

Direktor: Səbuhi Aslanov,
Dizayner: Veys Əliyev
Korrektor: Hüseyn Məmmədov
Bədii redaktor: Müzahim İsmayılzadə

Çapa imzalanıb: 20.04.2022.
Kağız formatı: 60x84 16/1
Fiziki çap vərəqi 9.
Tiraj: 300

Ünvan: Bakı şəhəri, Mətbuat prospekti,
529-cu məhəllə.
Əlaqı tel: 012-538-18-87
050 -263-16-16